Xalqın qəzeti!

# Xalq qəzeti

№ 251 (30367) 18 noyabr 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az


## Günün sözü

**Prezident İlham ƏLİYEV:**

**Bizə yeni müharibə lazım deyil. Biz istədiyimizə nail olduq, beynəlxalq hüququ bərpa etdik, tarixi ədaləti bərpa etdik, milli ləyaqətimizi bərpa etdik, düşmənə onun yerini göstərdik. Bunu hamı bilsin və heç kim bunu unutmasın.**

## Azərbaycan XİN-in bəyanatı: ABŞ-ın “kovboy” tərzinə sərt yanaşma



**ABŞ Konqresinin Nümayəndələr Palatasında keçirilmiş Qarabağ dinləmələri, eləcə də orada ölkənin Dövlət Departamenti rəhbərinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O’Braynın Azərbaycanla bağlı səsləndirdiyi fikirlər dəhşətdir.**

Bəşəriyyət neçə əsrdir inkişaf yolu keçir, bunun müqabilində özünü demokratiyanın, insan hüquq və azadlıqlarının beşiyi sayan Birləşmiş Ştatların ali qanunverici orqanında tam bir müstəmləkəçilik ab-havası hökm sürür. Sanki Konqresin müzakirə zalındakı oturacaqlarda əyləşənlər konqresmenlər yox, Amerika “kovboy” filmlərindəki mənfi personajlardır. Bu tipajların bircə qarşılarına tapança qoymaqları və ayaqlarını masanın üstünə aşırmaları qalıb...

Beləliklə, “kovboylar” O’Brayna avantürist suallar verir, Ermənistanı müdafiə müstəvisində Azərbaycana və Türkiyəyə yönəlik sərsəm fikirlər səsləndirir, Dövlət Departamentinin “Zorroya” dönmüş rəsmisi isə onlara cavab verir, eyni zamanda, təmsil etdiyi dövlətin Cənubi Qafqaz regionu ilə bağlı ermənipərəst, beynəlxalq hüququ heçə sayan, ikili standartlara əsaslanmış mövqeyini ortaya qoyurdu. Ümumən, həmin gün ABŞ-ın qanunvericilik tarixində bəlkə də ən miskin mənzərə yaşanırdı.

*(ardı 3-cü səhifədə)*

## Birinci vitse-prezident Mehriban Əliyeva Milli Dirçəliş Günü ilə bağlı paylaşım edib




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva 17 Noyabr – Milli Dirçəliş Günü ilə bağlı rəsmi “Instaqram” səhifəsində foto paylaşıb.**

**AZƏRTAC fotonu təqdim edir.**

## Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın Azərbaycana qarşı 10 iddiasından 7-sini rədd edib




Beynəlxalq Ədalət Məhkəməsi noyabrın 17-də Ermənistanın Azərbaycana qarşı 10 iddiasından 7-sini rədd edib.

Məhkəmə öz qərarında Azərbaycanın Qarabağ üzərində suverenliyini və ərazi bütövlüyünü təsdiqləyib, Azərbaycanın hərbi və hüquq-mühafizə orqanlarının Qarabağ bölgəsindən çıxarılması ilə bağlı əsassız və gülünc tələbini rədd edib. Həmçinin qərara əsasən Azərbaycan hökumətinin Qarabağın erməni sakinləri ilə bağlı artıq bəyan olunmuş siyasəti qəbul edilib. Bu, milli və ya etnik mənşəyindən asılı olmayaraq bütün sakinlərin təhlükəsizliyini və mühafizəsini təmin etmək barədə Azərbaycanın öhdəliyini əhatə edir.

Məhkəmə Ermənistanın BMT agentliklərinin Qarabağ bölgəsinə səfəri və Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) ilə əməkdaşlıq barədə iddiasına əhəmiyyət verməyib, bununla da, beynəlxalq təşkilatların bölgəyə girişi ilə bağlı ölkəmizə qarşı bütün iddiaları mahiyyətcə əsassız edib. Həmçinin məhkəmənin mədəniyyət abidələri və artefaktlar ilə bağlı Ermənistanın iddialarını rədd etməsi Azərbaycanın həyata keçirdiyi müsbət tədbirlərin təsdiqidir.

Bundan başqa, məhkəmə müvafiq ittihamlarla saxlanılan qanunsuz separatçı rejimlə əlaqəsi olan şəxslərlə bağlı Ermənistanın iddiasını eyni şəkildə təmin etməyib.

Azərbaycanın İrqi Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi haqqında Beynəlxalq Konvensiya (CERD) öhdəliklərini pozması Məhkəmə tərəfindən təsdiqlənməyib və Ermənistanın bu iddiası da rədd edilib.

## Vaşinqtonun “Ermənistanı müdafiə” oyunu



**ABŞ Senatı noyabrın 15-də “Ermənistanı Müdafiə Aktı” deyilən sənəd qəbul edib. Sənədin qərəzi onun anti-Azərbaycan mahiyyəti daşımasındadır. Sual olunur: əgər Ermənistan müdafiə olunmalıdırsa, nə üçün bu, Azərbaycana əks məsələ kimi özünü göstərməlidir? Belə çıxır ki, birinci ikincidən qorunmalıdır (?). Ortada ironik durum var.**

Bəli, “Ermənistanın Azərbaycandan qorunması” son ayların beynəlxalq “müzakirə trendinə” çevrilmiş məsələdir. Sanki, ölkəmiz hədd-hüdud bilməyən, loru dildə desək, kimə gəldi diş qıcayan dövlət strukturuna malik məmləkətdir. Avropa ilə yanaşı, ABŞ da beynəlxalq ictimai rəydə məhz bu görüntünü formalaşdırmaq yolu tutur.

*(ardı 3-cü səhifədə)*

## Sülh Ermənistanın qapısını döyür

**Son üç ildə hərbi və diplomatik cəbhədə bir-birinin ardınca məğlubiyyətə uğrayan Ermənistan bundan dərs almaq, Azərbaycanla münasibətləri normallaşdırmaq əvəzinə, yenə müxtəlif bəhanələrlə sülh sazişinin imzalanmasından boyun qaçırır.**

2023-cü il sentyabrın 11-də Azərbaycan tərəfi İrəvandan tezliklə cavab almaq ümidi ilə sülh sazişinin 5-ci dəfə düzəliş edilmiş variantını qarşı tərəfə təqdim edib. Fəqət, üstündən iki ay keçməsinə baxmayaraq, ortalıqda heç bir razılıq yoxdur. Bəs, Ermənistan sazişi imzalamaqdan ötrü hansı arqumentləri irəli sürür? İrəvan, ilk növbədə, suverenlik ritorikasına köklənir. Yəni, ərazisindən keçəcək kommunikasiyada nəzarət-buraxılış qaydalarının öz qanunvericiliyinə uyğun tətbiqinə çalışır. Amma bu, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın şərtlərinə ziddir.

*(ardı 4-cü səhifədə)*



## Qəzzanın ağır günləri davam edir

Səhifə ⇨ 11



**Monteneqroda şahmat üzrə komandalar arasında Avropa çempionatında Azərbaycan şahmatçıları medallar uğrunda mübarizəni davam etdirirlər.**

Səhifə ⇨ 11

## Qadın şahmatçılarımız inamla irəliləyirlər

# Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Su ehtiyatları, su təsərrüfatı və meliorasiya sahələrində idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 mart tarixli 2074 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

**2.** "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin strukturu" təsdiq edilsin (əlavə olunur).

**3.** Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (bundan sonra – Agentlik) tabeliyindəki Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin Hidrogeoloji-Meliorativ Xidmət və Suların İstifadəsinə-mühafizəsinə Nəzarət İdarəsinin əsasında Agentlik yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidməti yaradılsın.

**4.** Agentliyin Aparatının işçilərinin say həddi 170 ştat vahidi, Agentlik yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidməti işçilərinin say həddi cəmi 146 ştat vahidi, o cümlədən Xidmətin Aparatı üzrə 51 ştat vahidi və regional bölmələri üzrə 95 ştat vahidi müəyyən edilsin.

**5.** Agentliyin tabeliyində aşağıdakı publik hüquqi şəxslər yaradılsın:

5.1. bu Fərmanın 3-cü hissəsi və 5.3–5.5-ci bəndləri nəzərə alınmaqla, tabeliyindəki Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin çevrilmə formasında yenidən təşkili yolu ilə Regional Su Meliorasiya Xidməti;

5.2. bu Fərmanın 5.5-ci bəndi nəzərə alınmaqla, tabeliyindəki "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin çevrilmə formasında yenidən təşkili yolu ilə İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti;

5.3. tabeliyindəki Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin Meliorasiya Elmi Tədqiqat İnstitutunun çevrilmə formasında yenidən təşkili yolu ilə Su və Meliorasiya Elmi Tədqiqat İnstitutu;

5.4. tabeliyindəki Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin Tikilməkdə olan meliorasiya və irriqasiya obyektlərinin birləşmiş müdiriyyətinin çevrilmə formasında yenidən təşkili yolu ilə Tikilməkdə Olan Obyektlərin Müdiriyyəti;

5.5. tabeliyindəki Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin Su təsərrüfatı obyektlərinin layihələndirilməsi üzrə Azərbaycan Dövlət İnstitutu "Azdövsutəslayihə"nin və tabeliyindəki "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin "Sukanal" Elmi Tədqiqat və Layihə İnstitutunun çevrilmə formasında yenidən təşkili yolu ilə Su və Meliorasiya Kompleksinin Layihələndirilməsi İnstitutu.

**6.** Müəyyən edilsin ki:

6.1. Agentlik yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidməti, Agentliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq, su obyektlərindən istifadə və onların mühafizəsi qaydalarına, sudan istifadə limitlərinə, su obyektlərindən istifadə və onların mühafizəsi sahəsində sanitariya-gigiyena, ekoloji, hidrogeoloji, hidroloji, texnoloji tələbləri nəzərdə tutan normativ hüquqi aktlara, su mühafizə zonalarının ərazisindən istifadə rejiminə və Azərbaycan Respublikası su qanunvericiliyinin digər tələblərinə riayət edilməsinə dövlət nəzarətini, su və su təsərrüfatı obyektlərinin monitorinqini həyata keçirən Agentliyin strukturuna daxil olan qurumdur;

6.2. Regional Su Meliorasiya Xidməti meliorasiya və irriqasiya sahəsində xidmətlər göstərən, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin istismarını və mühafizəsini, balansında (istifadəsində) olan su təsərrüfatı obyektlərinin (su anbarlarının, kanalların, boru xətlərinin və s.) istismarını həyata keçirən, həmçinin Azərbaycan Respublikasının rayon və şəhərlərində (Bakı, Sumqayıt, Gəncə, Mingəçevir və Şirvan şəhərləri istisna olmaqla) istehlakçıların məişət (təsərrüfat) – içməli, istehsalat və digər məqsədlər üçün su ilə təmin olunması, yağış və tullantı sularının emalı və axıdılması xidmətlərini göstərən publik hüquqi şəxsdir;

6.3. İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti Bakı, Sumqayıt, Gəncə, Mingəçevir və Şirvan şəhərlərində istehlakçıların məişət (təsərrüfat) – içməli, istehsalat və digər məqsədlər üçün su ilə təmin olunması, yağış və tullantı sularının emalı və axıdılması xidmətlərini göstərən publik hüquqi şəxsdir;

6.4. Su və Meliorasiya Elmi Tədqiqat İnstitutu su və meliorasiya sahəsində fundamental və tətbiqi tədqiqatlar həyata keçirən publik hüquqi şəxsdir;

6.5. Tikilməkdə Olan Obyektlərin Müdiriyyəti tikinti işlərinin təsdiq edilmiş layihə-smeta sənədlərinə uyğun həyata keçirilməsini və əsaslı vəsait qoyuluşu üzrə dövlət büdcəsindən və digər mənbələrdən ayrılmış vəsaitin idarə edilməsinin səmərəliliyini təmin edən, habelə su təsərrüfatı və meliorasiya obyektlərinin, su təchizatı və kanalizasiya sistemlərinin inşası, yenidən qurulması, bərpası ilə bağlı satınalmaları təşkil edən publik hüquqi şəxsdir;

6.6. Su və Meliorasiya Kompleksinin Layihələndirilməsi İnstitutu su təsərrüfatı və meliorasiya obyektlərinin, su təchizatı, tullantı sularının emalı və axıdılması sistemlərinin layihələndirilməsini həyata keçirən publik hüquqi şəxsdir;

6.7. bu Fərmanın 5.1-ci və 5.2-ci bəndlərində nəzərdə tutulan publik hüquqi şəxslər "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatına alındığı günədək Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti və "Azərsu" Açıq Səhmdar Cəmiyyəti öz fəaliyyətini davam etdirir və onların strukturu, işçilərinin say həddi, əməkhaqları (vəzifə maaşları, vəzifə maaşlarına əlavələr, mükafatlar və digər ödənişlər) və əməyin ödənilməsi sistemi saxlanılır;

6.8. bu Fərmanın 5.1-ci və 5.3-cü bəndlərində nəzərdə tutulan publik hüquqi şəxslərin saxlanma xərcləri və fəaliyyəti dövlət büdcəsinin vəsaiti, habelə onların fəaliyyətindən əldə edilən gəlir və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşir;

6.9. bu Fərmanın 5.2-ci, 5.4-cü və 5.5-ci bəndlərində nəzərdə tutulan publik hüquqi şəxslərin saxlanma xərcləri və fəaliyyəti onların fəaliyyətindən əldə edilən gəlir və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşir;

6.10. bu Fərmanın 5-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxslərin nizamnamə fondu onların çevrilmə yolu ilə yenidən təşkil olunduqları qurumların əmlakı (bu Fərmanın 8.1.6.1-ci və 8.1.6.2-ci yarımbəndləri nəzərə alınmaqla) hesabına formalaşır.

**7.** Bu Fərmanın 5-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxslərin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

7.1. Azərbaycan Respublikasının Prezidentinə:

7.1.1. yenidən təşkili və ləğv edilməsi;

7.2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

7.2.1. nizamnamənin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onlarda dəyişiklik edilməsi;

7.2.2. idarəetmə orqanlarının yaradılması;

7.3. Agentliyə:

7.3.1. bu Fərmanın 7.1-ci və 7.2-ci bəndlərində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

**8.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

8.1. dörd ay müddətində:

8.1.1. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidmətinin əsasnaməsinin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

8.1.2. bu Fərmanın 5-ci və 6-cı hissələri nəzərə alınmaqla, mühafizə olunmalı həyat təminatlı və mühüm əhəmiyyətli obyektlərin mühafizəsi ilə əlaqədar təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

8.1.3. bu Fərmanın 1–6-cı hissələri nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

8.1.4. bu Fərmanın 5-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxslərin nizamnamələrini təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

8.1.5. "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinin birinci hissəsinin yeddinci abzasına uyğun olaraq, meliorasiya və irriqasiya sistemlərinin kadastrının aparılması qaydasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

8.1.6. bu Fərmanın 5.1-ci və 5.2-ci bəndlərində nəzərdə tutulan publik hüquqi şəxslər dövlət qeydiyyatına alındığı gündən aşağıdakı dövlət əmlakının balansdan balansa verilməsi ilə bağlı tədbirlər görsün:

8.1.6.1. "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin balansındakı əmlakın (Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan şəhərlərinə xidmət göstərən su təchizatı və tullantı suları sistemləri üzrə) İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətinin balansına;

8.1.6.2. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin balansındakı əmlakın və bu Fərmanın 8.1.6.1-ci yarımbəndi nəzərə alınmaqla "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin balansındakı digər əmlakın Regional Su Meliorasiya Xidmətinin balansına;

8.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**9.** Agentlik:

9.1. bu Fərmanın 5-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxslərin dövlət qeydiyyatına alınması üçün onların nizamnamələri təsdiq edildikdən sonra 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə müraciət etsin;

9.2. bu Fərmanın 5-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxslər dövlət qeydiyyatına alındıqdan sonra onların strukturunu, əməyin ödənişi fondunu, işçilərin say həddini və əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini bir ay müddətində təsdiq etsin;

9.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**10.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

10.1. bu Fərmanın 10.2-ci bəndi nəzərə alınmaqla, Agentliyin cari ildə fəaliyyətinin təşkili üçün zəruri maliyyələşməni təmin etsin;

10.2. bu Fərmanın 3-cü hissəsinə əsasən yaradılan Xidmətin və bu Fərmanın 5.1-ci və 5.3-cü bəndlərində nəzərdə tutulan publik hüquqi şəxslərin cari ildə fəaliyyətinin təşkili məqsədilə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti üçün nəzərdə tutulmuş vəsait çərçivəsində maliyyələşməni təmin etsin;

10.3. Agentliyin, bu Fərmanın 3-cü hissəsinə əsasən yaradılan Xidmətin, habelə bu Fərmanın 5.1-ci və 5.3-cü bəndlərində nəzərdə tutulan publik hüquqi şəxslərin fəaliyyətinin təşkili üçün tələb olunan vəsaiti hər il dövlət büdcəsinin layihəsində nəzərdə tutsun;

10.4. qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) qiymətləri (tarifləri) artırıldığı hallarda, fəaliyyət xüsusiyyətləri nəzərə alınmaqla, bu Fərmanın 5.1-ci və 5.3-cü bəndlərində nəzərdə tutulan publik hüquqi şəxslərin fəaliyyətinin təşkili məqsədilə zəruri əlavə maliyyələşməni təmin etmək üçün tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 noyabr 2023-cü il**

# "Su ehtiyatları, su təsərrüfatı və meliorasiya sahələrində idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 mart tarixli 2074 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Su ehtiyatları, su təsərrüfatı və meliorasiya sahələrində idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 mart tarixli 2074 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 3, maddə 370) 3-cü hissəsində "fəaliyyətin təşkilini" sözləri "fəaliyyəti" sözü ilə əvəz olunsun və həmin hissəyə "qurğuların" sözündən sonra "(Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində yerləşən dəniz qurğuları, onların saxlanılmasını və qorunmasını təmin edən əsas və köməkçi avadanlıq istisna olmaqla)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 noyabr 2023-cü il**

# M.M.Seyidovun Naxçıvan Muxtar Respublikası Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Mirsənani Mirsaleh oğlu Seyidov Naxçıvan Muxtar Respublikası Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 noyabr 2023-cü il**

**Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir**

# Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin strukturu

**1.** Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin Aparatı (şöbələr və sektorlar).

**2.** Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidməti və onun yerli bölmələri.

# "Daşınmaz Əmlakın Elektron Reyestri və Kadastrı" informasiya sisteminin yaradılması haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, daşınmaz əmlakın dövlət kadastrı və reyestri sahələrində idarəetmə sisteminin təkmilləşdirilməsi, şəffaflığın və operativliyin artırılması, biznes mühitinin yaxşılaşdırılması baxımından əmlakın qeydiyyatı ilə bağlı xidmətlərin elektronlaşdırılması və keyfiyyətinin yüksəldilməsi, nəzarət mexanizmlərinin, habelə elektron sənəd dövriyyəsinin genişləndirilməsi məqsədilə **qərara alıram:**

**1.** "Daşınmaz Əmlakın Elektron Reyestri və Kadastrı" informasiya sistemi (bundan sonra – Sistem) yaradılsın.

**2.** Müəyyən edilsin ki, Sistem aşağıdakıları təmin edir:

2.1. ərizəçinin daşınmaz əmlakın dövlət reyestrini və kadastrını tərtib edən və aparan quruma müraciətinin və ona əlavə edilən sənədlərin (məlumatların) qəbulu, emalı və nəticələrinə dair elektron sənədlərin, habelə məlumatların elektron qaydada verilməsini, eləcə də ərizəçilər tərəfindən müraciətlərin icra vəziyyətinin izlənilməsini;

2.2. "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci və 10-cu maddələrində nəzərdə tutulmuş sənədlərin (məlumatların), həmçinin daşınmaz əmlakın tarix və mədəniyyət abidəsi olması barədə məlumatın Sistemə daxil edilməsini və həmin sənədlərdən (məlumatlardan) istifadə edilməsini;

2.3. daşınmaz əmlak üzərində hüquq əldə edən, onun tərəfindən vəkil edilmiş şəxs tərəfindən daşınmaz əmlakın dövlət reyestrindən çıxarışın və texniki sənədlərin, habelə notariuslar və ya qanunla müəyyən edilmiş hallarda notariat hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxslər tərəfindən qanunla müəyyən edilmiş hallarda notariat hərəkətinin aparılması üçün zəruri olan məlumatların elektron qaydada Sistemdən yoxlanılmasını və əldə edilməsini;

2.4. daşınmaz əmlakın dövlət reyestrinin və kadastrının aparılması üçün əsas olan hüquqi və texniki sənədlərin, habelə məlumatların əldə edilməsini;

2.5. qanunla nəzərdə tutulan ödənişlərin elektron qaydada həyata keçirilməsi imkanının yaradılmasını.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti altı ay müddətində:

3.1. Sistem haqqında əsasnamənin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Sistemin yaradılması ilə əlaqədar daşınmaz əmlakın qeydiyyatı, kadastrı və idarə edilməsi sahələrində normativ hüquqi aktların təkmilləşdirilməsinə dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 noyabr 2023-cü il**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 417** **Bakı şəhəri, 16 noyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "1997-ci il avqustun 2-dək olan xidmət dövründə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar hərbi xidmət vəzifələrini (xidməti vəzifələrini) yerinə yetirərkən və ya həqiqi hərbi xidmət dövründə xəsarət (yaralanma, travma, kontuziya) alması və ya xəstələnməsi nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçulara, daxili işlər orqanlarının əməkdaşlarına və ya onların vərəsələrinə birdəfəlik ödəmənin verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2022-ci il 2 avqust tarixli 271 nömrəli və "Dövlət icbari şəxsi sığorta ödənişinin verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2023-cü il 20 fevral tarixli 56 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 735-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 2 avqust tarixli 271 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 8, maddə 960) ilə təsdiq edilmiş "1997-ci il avqustun 2-dək olan xidmət dövründə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar hərbi xidmət vəzifələrini (xidməti vəzifələrini) yerinə yetirərkən və ya həqiqi hərbi xidmət dövründə xəsarət (yaralanma, travma, kontuziya) alması və ya xəstələnməsi nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçulara, daxili işlər orqanlarının əməkdaşlarına və ya onların vərəsələrinə birdəfəlik ödə-mənin verilməsi Qaydası"nın 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.5-ci bəndə "əlavə edilməklə" sözlərindən sonra "(bu Qaydanın 2.9-cu bəndinin tələbi nəzərə alınmaqla)" sözləri əlavə edilsin;

1.2. 2.9-cu bənd aşağıdakı redaksiyada verilsin:

"2.9. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinə əsasən Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanlarından (qurumlarından) bu Qaydanın 2.6-2.8-ci bəndlərində qeyd olunan sənədləri və ya məlumatları əldə etmək mümkün olduqda, həmin sənədlərin və ya məlumatların təqdim edilməsi müraciət edən şəxsdən tələb olunmur. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi müraciət edən şəxsin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanlarından (qurum-larından) tələb olunur və ya müraciət edən şəxs tərəfindən təmin edilir.";

1.3. 2.10-cu bəndin üçüncü cümləsinə "aradan qaldırılması" sözlərindən sonra "(bu Qaydanın 2.9-cu bəndinin tələbi nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 56 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 319) ilə təsdiq edilmiş "Dövlət icbari şəxsi sığorta ödənişinin verilməsi Qaydası"nın 4-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

"4.6. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinə əsasən EHİS vasitəsilə müvafiq dövlət orqanlarından (qurumlarından) bu Qaydaya uyğun olaraq tələb olunan sənədləri və ya məlumatları əldə etmək mümkün olduqda, həmin sənədlərin və ya məlumatların təqdim edilməsi müraciət edən şəxsdən tələb olunmur. Belə sənədlərin və ya məlumatların EHİS vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi müraciət edən şəxsin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanlarından (qurumlarından) tələb olunur və ya müraciət edən şəxs tərəfindən təmin edilir.";

2.2. 4.7-ci bəndin birinci cümləsinə "əlavə olunduğu" sözlə-rindən sonra "(bu Qaydanın 4.6-cı bəndinin tələbi nəzərə alınmaqla)" sözləri əlavə edilsin;

2.3. 4.13-cü bənddə "Sığorta" sözü "Bu Qaydanın 4.6-cı bəndinin tələbi nəzərə alınmaqla sığorta" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan XİN-in bəyanatı: ABŞ-ın “kovboy” tərzinə sərt yanaşma

## Yaxud ölkəmizin qətiyyətli və prinsipial xəttinə sözardı

**(əvvəli 1-ci səhifədə)**

Demək olmaz ki, 2023-cü ildə Karen Donfridin istefasından sonra Dövlət Departamenti rəhbərinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi vəzifəsinə təyin edilmiş O’Brayn özfəaliyyətlə məşğuldur. Çünki son zamanlar ABŞ başda olmaqla, kollektiv Qərb Azərbaycan–Ermənistan münasibətlərinin tənzimlənməsi baxımından “erməni sevdasını” işə salması ilə seçilir. Mövcud tendensiyanın ən müxtəlif təzahürləri diqqətdən yayınmır. Görünür, Birləşmiş Ştatların hakimiyyət komandası elə sanır ki, Azərbaycanla təhdid dili ilə danışanda istəklərinə nail ola biləcəklər. Elə bu səbəbdən də Azərbaycanın Xarici İşlər Nazirliyi ölkəmizin Konqresdə keçirilmiş dinləmələrə sərt, qətiyyətli və dolğun məzmunlu mövqeyini ifadə edən bəyanat yaydı. Bəyanatı bir neçə cəhətdən xarakterizə etmək mümkündür.

**Birincisi,** ABŞ Konqresinin aşağı palatası olan Nümayəndələr Palatasındakı Qarabağ dinləmələri Azərbaycan–Amerika münasibətlərinə zərbədir. Həm də ona görə zərbədir ki, orada Birləşmiş Ştatlar Bakı–İrəvan münasibətlərinin tənzimlənməsi üzrə tərəfə, indiki halda tam ədalətsiz tərəfə çevrilməkdədir. Halbuki, Vaşinqtonun ölkəmizlə qarşılıqlı əməkdaşlıq dairəsi onun Ermənistanla münasibətlərinin çərçivəsindən qat-qat genişdir. Geniş olmaqla yanaşı, eyni zamanda, kifayət qədər mütərəqqi əsaslara malikdir. Bu əməkdaşlıqda ABŞ-ın Cənubi Qafqaz maraqları daha çox nəzərə alınır. Yəni, İrəvanın mövcud istiqamətdə təklif edəcəyi daha tutarlı heç nə yoxdur. Ona görə Birləşmiş Ştatlar Azərbaycanla münasibətlərdə nəyi itirəcəyinin fərqinə varmalıdır. Əlbəttə, fərqinə varmayıb, birbaşa ermənipərəst mövqe tutursa, bu onun daxili işidir.

**İkincisi,** ölkəmizin baş xarici siyasət idarəsinin bəyanatı Azərbaycanın əvvəlki illərdə ABŞ-a müxtəlif sferalarda göstərdiyi dəstəyin təsviri baxımından əhəmiyyətlidir. Belə ki, ölkəmiz Birləşmiş Ştatların bütün regional təşəbbüslərində, xüsusən də beynəlxalq terrorizmlə mübarizədə yaxından iştirak edib. Nəinki iştirak edib, eyni zamanda, təşəbbüslərə özünün töhfəsini də verib. Əgər, Ağ Ev administrasiyası bunu nəzərə almaq istəmirsə, buyurub özünün ona heç bir fayda gətirməyəcək kursunu davam etdirməyində olsun.

**Üçüncüsü,** istər konqresmen-kovboyların yanaşması, istərsə də O’Braynın mövqeyi onu deməyə əsas verir ki, ABŞ Azərbaycan–Ermənistan münasibətlərinin tənzimlənməsi müstəvisində, ümumən, dünya üzrə ədalətli vasitəçi olmaq baxımından tam yararsızdır. Vaşinqton əməlləri ilə göstərir ki, hər an beynəlxalq hüququn norma və prinsiplərini heçə saya, mövcud istiqamətdə manipulyasiyalara yol verə bilər. Nəzərə alaq ki, O’Braynın bildirdikləri, xüsusən də onun Bakı ilə İrəvan arasında sülh müqaviləsinin imzalanması ilə bağlı yeni şərtlər qondarması bunu deməyə əsas verməkdədir. Hesab edirik ki, Azərbaycan XİN-in bəyanatı həm də belə neqativ təmayülə qarşı son dərəcə tutarlı cavab, ciddi xatırlatmadır.



**Dördüncüsü,** ölkəmizin baş diplomatiya idarəsi ABŞ-ı regiondan uzaq ölkə kimi dəyərləndirir. Bu dəyərləndirmə ona görə gündəmə gəlir ki, Cənubi Qafqazın təhlükəsizliyi və sabitliyi mühüm məqamdır. Ölkəmiz mövcud istiqamətdəki təhdidləri görür. Ümumən, Bakı Vaşinqtonun böyüklük faktorunu nəzərə aldıqca, bu böyüklük demarş dəstxətinə, birtərəfli yanaşmaya köklənir ki, nəticədə haqqında söz açdığımız təhlükəsizliyin pozulmasına dair ehtimallar ön plana çıxmağa başlayır.

**Beşincisi,** Azərbaycan ABŞ-a regional təhlükəsizliyin başlıca komponentinin əməkdaşlıq olduğunu xatırladır. Əməkdaşlıq isə bərabərtərəfli olmalı, səmimiyyətə əsaslanmalı, hər bir dövlətin üzərinə götürdüyü öhdəliklərə sadiqlik ruhunu rəhbər tutmalıdır. Bu baxımdan Azərbaycanın və Türkiyənin irəli sürdüyü “3+3” regional platforması mövcuddur. Yeri gəlmişkən, Ermənistanın da təmsil olunduğu mövcud formatda, başlıca rolu Rusiya və İran da oynamaqdadır.

Türkiyə ilə bağlı hər şey aydındır. Ankara özünü təsdiqləmiş və qəbul olunmuş regional aktordur. Rusiya və İrana gəldikdə isə, hazırda ABŞ-la ziddiyyətlər içərisində olan bu ölkələri heç bir halda bölgənin coğrafiyasından silmək mümkün deyil. Nəinki mümkün deyil, eyni zamanda, buna əsas da yoxdur. Hazırkı dövrdə onlarla birgə Cənubi Qafqazın dinc, birgəyaşam məkanı olmasına çalışılmalıdır. Azərbaycanın istədiyi budur. ABŞ isə Ermənistan üzərindən mövcud trayektoriyanı, balanslı yanaşmanı heçə saymazdan gəlmək niyyətindədir. Məsələ tam şəkildə yolverilməzdir.

**Altıncısı,** Azərbaycan XİN ABŞ-ın diqqətinə bilavasitə Ermənistanın üzərinə götürdüyü öhdəliklərdən yayındığını çatdırır. Məsələnin xüsusi vurğulanması son dərəcə vacibdir. Əgər Birləşmiş Ştatların departament rəsmisi O’Braynın şəxsində qarşıdakı iki həftə ərzində Azərbaycanla məsləhətləşmələrdən danışırsa və buna əsasən Vaşinqtonun konkret mövqeyinin, hərəkət və davranış amplitudasının formalaşacağına işarə edirsə, mütləq qaydada bu amili nəzərə almalıdır. Söhbət 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatdan gedir. O bəyanatdan ki, 44 günlük müharibəyə son qoymuşdu. O bəyanat ki, Ermənistanın kapitulyasiya aktı idi və orada ölkənin baş naziri Nikol Paşinyanın imzası var. Birləşmiş Ştatlar bir anlığa düşünsün ki, əgər həmin sənəd və imza olmasaydı, bugünkü ərköyünləşmiş Ermənistandan hansısa əsər-ələmət qalardımı? Əsla qalmazdı! Daha bir sual: Birləşmiş Ştatlar üç il əvvəl İrəvanı müdafiə edə bildimi? Əlbəttə ki, yox!

Ağ Ev administrasiyası heç bir halda unutmamalıdır ki, 44 günlük müharibədən sonra Azərbaycan və Ermənistan arasında yaşananlar, o cümlədən, Qarabağ müstəvisində baş verənlər Paşinyan və komandasının qeyri-konstruktiv, Cənubi Qafqazda sülhün yaranmasına zidd mövqeyinin nəticəsidir. Və eyni zamanda bu yarıtmaz mövqeyin nəticəsidir ki, rəsmi İrəvan haqqında söz açdığımız üçtərəfli Bəyanata məhəl qoymur, Nikol balaca uşaq kimi davranaraq, öz imzasına hörmətsizlik yolu tutur. Bu gün Birləşmiş Ştatlar “uşağın” əlindən tutub ona yeritməyə girişibsə, məsələyə can yandırırsa, ona yolda düzgün getməyi öyrətməlidir. Düşünməlidir ki, üçtərəfli Bəyanata əsasən Ermənistanın məğlub ölkə kimi üzərinə götürdüyü konkret öhdəliklər var. Paşinyan və komandası həmin öhdəliklərə əməl etməlidir.

**Yeddincisi,** ölkəmizin baş diplomatiya idarəsinin bəyanatında ifadəsini tapmış ən başlıca məqam ABŞ-ın açıq demarşına cavabdır. Cavab bundan ibarətdir ki, Azərbaycan qonşu ölkələrlə, habelə İranla hansı səviyyədə əlaqələr qurur, necə münasibət saxlayır, nə kimi razılaşmalar əldə edir, bu, müstəsna suveren hüquq məsələsidir. Ölkəmizin digər ərazilərini Naxçıvanla birləşdirən yolun İrandan keçməsi istiqamətindəki razılıq da həmçinin.

Mövcud xüsusda vurğulanmalı bir vacib element də var. Azərbaycan torpaqları otuz ilə yaxın müddətdə Ermənistanın işğalı altında qalmışdı və o zaman ölkəmizin İranla 132 kilometrlik sərhəd zolağı da yox idi. Həmin dönəmdə Azərbaycan vətəndaşları Naxçıvanla quru əlaqəsini məhz İran vasitəsilə gerçəkləşdirirdilər. Görəsən, o illərdə ABŞ hara baxırdı? Cavab verək: ölkə ATƏT-in artıq canını tapşırmış Minsk qrupunda təmsilçilik edərək işğalın leqallaşmasına çalışır, vaxt uzadırdı. Daha bir sual: nə üçün işğal illərində Vaşinqton regiondakı başlıca tərəfdaşı kimi qiymətləndirdiyi Azərbaycanın vətəndaşlarının İran kimi “əbədi düşmənlə” əlaqə kontekstində Naxçıvana gedib-gəldiyinin fərqinə varmadı? Göründüyü kimi, ortada aşkar riyakarlıq faktı var. Çünki indi Ermənistanı bəsləmək, erməni avantürizmi üçün “yaşıl işıq” yandırmaq əsas götürülüb.

Bəli, Azərbaycan yenə də Naxçıvana gedən yolun İrandan keçməsini istəyir. Həm də ona görə istəyir ki, bir qədər əvvəl də bildirdiyimiz kimi, Ermənistan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmir, həmin yolda təhlükəsizlik təminatını özü gerçəkləşdirməyə çalışır. Heç bir inam və etibar qazanmayan Paşinyan iqtidarı belə bir vacib məsələdə söz sahibinə çevrilmək cəhdinə baş vurur. Nikol üçtərəfli Bəyanatdakı imzasına hörmətsiz yanaşdığının fərqinə qətiyyən varmır. ABŞ üçün bunu görmək çoxmu çətindir? Əlbəttə yox!. Ancaq O’Braynlar və ona bənzərlər Naxçıvana gedən yolla bağlı hökm çıxarır və yolun Ermənistandan keçməsinin qaçılmazlığından danışır, əmr dilində danışmağa üstünlük verir. Əlbəttə, belələri bizim üçün heç kimdirlər! Azərbaycan XİN bəyanatında məhz bu məqamı vurğuladı. Özü də tam qətiyyətlə!

**Səkkizincisi,** əvvəldə də qeyd etdik ki, Konqresdəki müzakirələr və ona oxşar ermənipərəst tədbirlər müstəvisində itirən tərəf ABŞ olacaq. Azərbaycan XİN bu məqamı da diqqətə çatdırır. Ölkəmizin baş diplomatiya idarəsi bildirir ki, belə bir şəraitdə ABŞ-dan Azərbaycana yüksək səviyyəli səfərlər yersizdir. O cümlədən, Azərbaycandan ABŞ-a səfərlər də. Buna görə rəsmi Bakı noyabrın 20-də Azərbaycan və Ermənistan XİN rəhbərlərinin Vaşinqtonda keçirilməsi nəzərdə tutulan görüşündən imtina edir. Deməli, Birləşmiş Ştatlar özünün qeyri-konstruktiv yanaşması, birtərəfli mövqeyi ilə Bakı və İrəvan arasındakı vasitəçilik missiyasını itirmiş vəziyyətə düşür. Beləliklə də ABŞ özü olmağı yox, aşkar ermənipərəst xətt yeridən Fransaya çevrilməyi daha üstün tutur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Vaşinqtonun “Ermənistanı müdafiə” oyunu

## Ədalətsizliyin “907-ci sifəti” Azərbaycana təzyiq cəhdi və avantürizm nümunəsidir

**(əvvəli 1-ci səhifədə)**

Ermənistanın müdafiəyə çoxmu ehtiyac var? Bəlkə də var. Amma niyə və nə üçün? Heç kəs soruşmur ki, ölkə bütün oyun qaydalarına zidd davranır, özünün ərazi iddiasından daşınmır, Qarabağ avantürasını diri tutmağa çalışır. Bəli, Amerika erməni cəmiyyətinin damarına işləmiş tipik xəstəliyi nəzərə almır. Nəzərə almır ki, bu xəstəlik təkcə Azərbaycana deyil, regiona zərər vura biləcək mənfur xislətlidir. Bir ölkənin ki, əsas qanunlarında beynəlxalq hüquq prinsiplərinə zidd olaraq ərazi iddiası əksini tapa, onu müdafiə etmək bu qədərmi vacibdir? Sual ritorikdir. Çünki ABŞ hər bir halda məsələnin “vacibliyi” qənaətindədir. Onun öz “paramentrləri” var. Bu nəticəyə gələrkən isə haqqı və ədaləti deyil, imperialist maraqlarını düşünür.

***

Bəli, Ermənistan kimi işğalçı mahiyyətə malik ölkəni müdafiə etmək qədər iyrənc, miskin və aciz nə isə təsəvvürə gətirmək çox çətindir, heç mümkün də deyil. Amma nəzərə alsaq ki, Birləşmiş Ştatların yaranış özəyində iyrənciliklərlə dolu qəddarlıqlar dayanmışdı, indiki duruma təəccüblənməmək lazımdır. Axı, Amerikanın aborigen əhalisinin – hinduların qanlarına qəltan edilmələri, bu əhaliyə qarşı insanlıq tarixinin ən böyük soyqırımlarının yaşadılması bugünkü ABŞ dövlətçiliyinin vicdanındakı qara ləkədir. Elə bir ləkədir ki, nəinki silinəcəyinə ümid var, eyni zamanda görünür, ölkənin hazırkı idarəçilik məktəbi həmin ləkəni yaradanların “mirasına” sahiblənməyi ideoloji kurs, mövcudiyyət faktoru kimi görməkdədirlər.

Qeyd edək ki, Senat ABŞ Konqresinin yuxarı palatasıdır. Aşağı palata isə Nümayəndələr Palatası sayılır. Bu palatanın da Azərbaycana münasibətini Qarabağla bağlı bir neçə gün əvvəlki müzakirələr xüsusunda yaxşı gördük. Belə təsəvvür yarandı ki, bölgə müstəvisindəki hərəkət və davranışlar Ermənistanı müdafiə məqsədi daşıyırmış. Sanki, Qarabağ Azərbaycanın deyil, Ermənistanınmış və Bakı bu il sentyabrın 19-u və 20-də keçirdiyi antiterror tədbirləri ilə İrəvana məxsus ərazini işğal etdi. İşğala görə isə cəza olmalıymış. Həqiqətən də ortada son dərəcə miskin mənzərə var. Vaşinqton beynəlxalq hüququ bu cür ayaqlar altına alır. Məhz Ermənistana görə!

Beləliklə, onu deyə bilərik ki, Konqresin yuxarı palatası olan Senat ermənipərəstlik yarışında aşağı palatanı – Nümayəndələr Palatasını geridə qoymağa girişib. İkincidə dinləmələr keçirilir, birinci dərhal qanun layihəsi qəbul edir. İndi bu layihəni aşağı palata da təsdiqləməlidir ki, məsələ ölkə Prezidentinin masasının üzərinə çıxsın. Birləşmiş Ştatlardakı hazırkı “erməni sevdasının” yüksək dozasına əsasən əminliklə söyləmək mümkündür ki, qanun layihəsi dövlət başçısına yol tapacaq.

***

Senatın “Ermənistanı Müdafiə Aktı” adlandırılmış sənədi Ermənistanın silahlandırılmasını nəzərdə tutur. Layihənin mənfur tərəfi də elə budur.



Deməli, Vaşinqton erməni avantürizimi yaşatmaq üçün ciddi şəkildə hərəkətə keçib və deməli Ağ Ev Cənubi Qafqazda sülhü təhdid yolu seçib. Mövcud xüsusdakı ən böyük ədalətsizliyə diqqət yetirərkən, əslində tarixi ədalətsizliyin yenidən işə salınması məntiqini görürük. İzah edək necə?

Məsələ burasındadır ki, 1992-ci ildə qəbul edilmiş Azadlığa Dəstək Aktına 907-ci Düzəliş ABŞ hökumətinin Azərbaycana birbaşa dövlət yardımını qadağan edirdi. Həmin vaxt ABŞ-dakı erməni lobbi və diaspor təşkilatları belə bir layihənin təsdiqlənməsinə nail olmuşdular. Bəs, bu düzəlişin meydana çıxma səbəbi nə idi? Belə ki, 907-ci düzəliş, guya, “Azərbaycan tərəfindən Qarabağın “işğalı” və Ermənistana qarşı blokadanı dayandırmaq” məqsədilə ərsəyə gəlmişdi. O zaman “təşəbbüs” senator Con Makkeyn, daha sonra isə senator Con Kerri və konqresmen Veyn Ovens tərəfindən irəli sürülmüşdü. Həmin vaxt senator Riçard Luqar düzəlişin qəbulunun əleyhinə çıxmışdı. Lakin buna baxmayaraq, sənəd ABŞ Konqresi tərəfindən Azadlığa dəstək haqqında akta əlavə olunmuşdu.

Təsəvvür edin, Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasəti yeridir, torpaqlarımıza qəsb edir, soyqırımı törədir, buna qarşılıq ölkəmiz işğalçı kimi təqdim olunurdu və qeyd etdiyimiz kimi, ona Vaşinqtonun dövlət yardımı qadağan edilirdi. Demək istədiyimiz də budur ki, 907-ci düzəlişinin özünün mayasında böyük ədalətsizlik dayanır. Və hazırda ABŞ-da həmin ədalətsizliyi yenidən gündəmə gətirmək istəyənlər baş qaldırıblar. Daha doğrusu, onlar məsələni artıq gündəmə gətiriblər. Necə deyərlər, eyni dalğa, eyni koordinat.

***

Haqqında söz açdığımız “Ermənistanı Müdafiə Aktı” Prezident Cozef Bayden tərəfindən təsdiqlənəcəyi halda, Azadlığa Dəstək Aktına 907-ci düzəliş kimi mənfur məsələ yenidən qüvvəyə minəcək. Bu yerdə onu da bildirmək lazımdır ki, 2001-ci ildə ABŞ Senatı ölkənin dövlət başçısına hər il düzəlişin qüvvəsini dayandırmaq səlahiyyətini vermişdi. Həmin ildən vaxtaşırı olaraq Birləşmiş Ştatların prezidentləri bunu həyata keçirirdilər. Sözügedən səlahiyyət isə Azərbaycanın Vaşinqtonun terrorizmlə mübarizəsinə fəal dəstək göstərməsi səbəbindən gündəmə gəlmişdi. Görünür, hazırda ABŞ üçün beynəlxalq terrorizm oyunu bitib və onun yerini erməni avantürası tutmağa başlayıb. Ona görə də deməliyik ki, Bayden “Ermənistanı Müdafiə Aktı”nı imzalayacağı halda, bununla eyni zamanda 907-ci düzəlişin qüvvəsini dayandırmaq hüququnun əlindən çıxmasını təsdiqləmiş olacaq.

***

Sonda bir məqamı da vurğulayaq ki, “Ermənistanı Müdafiə Aktı” adlandırılmış qanun layihəsinin ilhamverici müəllifi 2023-cü ilin sentyabrında Ermənistanda səfərdə olan ABŞ nümayəndə heyətinə rəhbərlik etmiş senator Herri Pitersdir. Onunla yanaşı, senatorlar Robert Keysi, Bill Kessidi, Cin Şeyhin, Con Kennedi, Co Rikets, Marko Rubio və Kris Van Hollen də sənədin həmmüəllifləri sırasında yer alırlar. Adları çəkilən şəxslərin hər biri Birləşmiş Ştatlardakı erməni lobbi və diaspor təşkilatları ilə sıx əlaqədədir.

***Ə.RÜSTƏMOV***
***XQ***

**Müsahibə**

# İrəvanın KTMT demarşı Belarusdan necə görünür?

## Politoloq Aleksey Zermant Nikol Paşinyanın bütün məsuliyyəti öz boynundan atmağa çalışdığını vurğulayıb



**Ermənistanın baş naziri Nikol Paşinyanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzv ölkələrin liderlərinin zirvə görüşündə iştirak üçün Belarusun paytaxtı Minskə getməmək qərarına toplantıya evsahibliyini gerçəkləşdirən ölkə necə reaksiya verdi? Ermənistanın KTMT-dən çıxması nə dərəcədə realdır? Ümumən, hazırkı şəraitdə KTMT faydalıdırmı? Ermənistanın VERELQ Analitik İnformasiya Mərkəzi bu və digər suallara cavab tapmaq üçün belaruslu politoloq, "Şimali Avrasiya" İnteqrasiya Araşdırmaları Mərkəzinin direktoru Aleksey Zermanta suallarla müraciət edib. "XQ" siyasi ekspertlə həmin müsahibəni təqdim edir.**

**– Nikol Paşinyanın Minskə KTMT-yə üzv ölkələrin liderlərinin sammitinə getməmək qərarına Belarus necə reaksiya verdi?**

– Bəli, Nikol Paşinyanın KTMT sammitinə getməmək qərarına rəsmi reaksiya Prezident Aleksandr Lukaşenko tərəfindən səsləndirildi. O, Ermənistanın baş nazirini qərarlarına balanslı yanaşmağa, ənənəvi müttəfiqlərlə əlaqələri pozmamağa və öz qərarlarını yenidən nəzərdən keçirməyə və onların nəticələrini düşünməyə çağırdı.

Amma, ümumilikdə, təbii ki, burada yaxşı heç nə yoxdur. Çünki (İrəvanın davranışında – red.) inteqrasiya birliklərimizə – KTMT-yə, Avrasiya İttifaqına marağın zəifləməsi və Qərbə meylin artması əlamətlərini görürük. Bunu, kifayət qədər, mübahisəli, qeyri-müəyyən görüşlərdə təsdiqləyir. Məsələn, Paşinyanla (Belarusun – red.) qondarma "prezident" (Svetlana – red.) Tixanovskaya arasında keçirilən görüş. Bu, ümumiyyətlə, qeyri-dost addım kimi qiymətləndirilir. Lakin A.Lukaşenko diplomatik və təmkinli reaksiya verir. O, dostcasına olmayan jestlərə baxmayaraq, Paşinyanla ünsiyyətini davam etdirir. Etdirir ki, Ermənistan lideri və erməni elitası düzəldilməsi mümkünsüz səhvlərə yol verməsin, müttəfiqləri ilə münasibətləri kəsməsin.

**– Sizcə, Nikol Paşinyanın qərarının arxasında nə dayanır? Onun yalnız KTMT müttəfiqlərinin Azərbaycanın Ermənistanın beynəlxalq səviyyədə tanınmış ərazisinə təcavüzünə siyasi qiymət verməkdən imtina etməsindən narazılığı?**

– Paşinyan və ətrafının niyə belə addımlar atmasının hansısa daxili motivasiyasını mühakimə etmək çətindir. Deyirlər ki, KTMT Ermənistana kömək etməyib, biz Qərbə üz tutacağıq, Fransadan silah alacağıq, ingilislərlə danışacağıq, Ermənistanın hərbi təhlükəsizliyinin təmin olunmasında amerikalıların dəstəyinə ümid edəcəyik.

Yəqin ki, bunun bir məqsədi var. Baxmayaraq ki, bəlkə də bu, Paşinyanın özünün dərin inamıdır. Axı, onun qeyri-hökumət təşkilatları strukturlarında yetişdiyi aydındır. Digər məsələ Qərbin maliyyə mənbələri ilə bağlıdır. Bəlkə də Ermənistanın Qarabağda məğlub olmasından və KTMT-nin mövcud müstəvidə köməyinin olmamasından istifadə edir. Bəlkə də fürsətdən yararlanaraq, çoxdan hazırladığı proqramı həyata keçirir. Məsələni istisna etmək olmaz və belə düşünmək üçün kifayət qədər dəlillər var.

Əgər biz sadəcə, bir növ, çoxvektorlu siyasətdən danışırdıqsa, bu, bir şeydir, nümayişkaranə jestlər isə başqa bir şey. Axı, ortada Paşinyanın həyat yoldaşı ilə Zelenskinin həyat yoldaşı arasında görüş, Tixanovskaya ilə görüş, həmçinin Qərb dövlətlərinin kəşfiyyat xidmətləri vasitəsilə çoxsaylı təmaslar başlamalar var. Və bütün bunlar ümumi götürdükdə, təbii ki, Ermənistanın Paşinyanın hakimiyyəti altında nəinki KTMT-dən və Rusiyadan Qərbə doğru meyllənməsindən, aşkar dönüşündən xəbər verir.

**– Ermənistanın KTMT-dən çıxması nə dərəcədə realdır?**

– Məncə, hüquqi formal çıxış yolu mümkündür. Bu dünyada qeyri-mümkün heç nə yoxdur. Xüsusən, Ukrayna hadisələrinə baxsanız... Əvvəllər belə bir müharibənin olacağını təsəvvür edə bilməzdik. Ona görə hər şey mümkündür.

Digər məqam Ermənistan üçün bunun necə nəticələnməsidir. Mənə elə gəlir ki, belə bir addım erməni cəmiyyətini təhlükəsizlik və daxili sabitlik baxımından sadəcə parçalayacaq və sarsıdacaq.

Ermənistanın təhlükəsizlik baxımından Qərb dövlətlərinin timsalında özünə bir əvəzləyici tapacağına şübhə edirəm. Yəni, belə bir addım ərazi bütövlüyünü və suverenliyini itirmək təhlükəsi ilə üzləşən ölkənin təhlükəsizliyinə öldürücü təsir göstərə bilər.

**– İndiki reallıqlarda KTMT nə dərəcədə bacarıqlıdır? Bu, əsl hərbi-siyasi blokdur, yoxsa bəzi ekspertlərin dediyi kimi, Rusiya silahlarını daha ucuz qiymətə almaq üçün maraqlar klubudur?**

– Aydındır ki, Ermənistan tərəfinin KTMT-yə qarşı şikayətləri var və düşünürəm ki, yalnız Azərbaycanın Ermənistanın beynəlxalq səviyyədə tanınmış ərazisinə hücumlarından söhbət getsə, ölkəyə qismən haqq qazandırmaq olardı. Başqa bir məsələ budur: başa düşmək lazımdır ki, məsələn, KTMT müttəfiqləri Qarabağ uğrunda Ermənistanın əvəzinə döyüşmək məcburiyyətində deyildilər. Ancaq bu iki məsələ, prinsipcə, bir-birinə bağlı idi. Yəni, KTMT tam işə qarışsa və Azərbaycana cavab verməyə başlasa, bu, genişmiqyaslı münaqişənin başlanğıcı demək olardı. Açığı, KTMT müttəfiqləri bundan yayınmaq istəyirdilər. Üstəlik, onlar dəfələrlə Ermənistan tərəfinə Qarabağ probleminin həlli variantlarını təklif edirdilər. Bütün bunlara məhəl qoyulmadı və Azərbaycan bu problemi öz gücü ilə həll etdi. Və burada, bəli, aydındır ki, Ermənistanda, KTMT-də və digər müttəfiqlərdə vəziyyətin fərqli anlayışı var.

Hesab edirəm ki, KTMT-nin təhlükəsizlik funksiyasını qiymətləndirməmək olmaz. Qazaxıstanda baş verənlər bunu göstərdi. Bəli, yəqin ki, müxtəlif ölkələrin qurumda müxtəlif inteqrasiya və iştirak dərəcələri və çəkiləri var. Amma biz hamımız başa düşürük ki, Rusiya əsas oyunçudur və mən Ermənistanın təhlükəsizliyini təmin etmək baxımından hansısa ölkənin onu əvəzləyəcəyinə şübhəylə yanaşıram. Bunu başa düşmək lazımdır.

Odur ki, hazırda Ermənistanda KTMT ilə bağlı geniş yayılmış bütün şübhələrlə yanaşı, Belarusdan aydın görünür ki, Paşinyan daha çox, məsuliyyəti özündən, ümumiyyətlə, rəhbərlik etdiyi hökumətdən uzaqlaşdırmaq istəyir. O, beş illik hakimiyyəti dövründə Qarabağda hadisələrin bir az fərqli cərəyan etməsi üçün heç nə etməyib. İndi o, bütün məsuliyyəti, faktiki olaraq, Rusiyanın, KTMT-nin üzərinə atıb və bununla da siyasi statusunu qoruyub saxlamağa çalışır. Biz də bunu çox gözəl başa düşürük. Paşinyan siyasi məsuliyyətdən boyun qaçıranda, ondan yayınanda, onu başqasının üzərinə atanda, bu, kənardan heç də xoş görünmür. Amma əsas odur ki, o, belə bir siyasətdə ölümcül addım atmasın, bütün əlaqələri qırmasın. Əks halda bu, həqiqətən də, erməni xalqı və Ermənistan dövləti üçün daha böyük sarsıntılar yaradacaq.

Üstəlik, biz başa düşürük ki, Qərb Ermənistandan regiona xaos gətirmək, Rusiya və İrana problem yaratmaq aləti kimi istifadə edə bilər. Yalnız ümid edə bilərik ki, həm Ermənistan rəhbərliyi, həm də erməni xalqı bunu başa düşür, həm Paşinyanın, həm də onun hökumətinin müttəfiqlərlə münasibətlərini korlamasına imkan verməyəcək.

*Hazırladı:*
***R.ƏVƏZ***
***XQ***

# Sülh Ermənistanın qapısını döyür

## Bakı Yaxın Şərqin ən "uzunömürlü" münaqişəsinin həlli modelini ortaya qoyub

**(əvvəli 1-ci səhifədə)**

Vətən müharibəsindən sonra Cənubi Qafqazda baş verən proseslər isə onu deməyə əsas verir ki, Ermənistanın üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməsi təkbaşına verilən qərar deyil. Bu məsələdə ölkənin tutduğu destruktiv mövqe bölgədə geosiyasi maraqlarını güdən kənar aktorların İrəvana göstərdiyi təsirlə birbaşa bağlıdır. Görünür, Qərbin bəzi dairələri, okeanın o tayındakı erməni havadarları regionda sülhün, sabitliyin bərqərar olmasını, etibarlı qonşuluq və əməkdaşlıq mühitinin qərarlaşmasını istəmirlər. Onlar davamlı gərginliyin saxlanmasında maraqlıdırlar. Nəticədə dəstəkçilərinin güclənən anti-Azərbaycan fəaliyyətindən cürətlənən Hayastanın siyasi rəhbərliyi son vaxtlar üçtərəfli Bəyanatın bəndlərini nəinki təftiş edir, həm də həmin müddəaların inkarına girişir. Tərəflər arasında sülhün əldə olunması ilə bağlı əsas maneələrdən biri də məhz budur. Göründüyü kimi, qapısının kandarına kimi gəlmiş sülh sazişini imzalamaqdan ötrü Ermənistan hakimiyyətinin siyasi iradəsi yetərli deyil. Əvəzində ölkəni silahlandırmağa, onu Rusiyaya qarşı qoymağa cəhd göstərən Fransa, ABŞ kimi dövlətlərin canfəşanlığını müşahidə edirik.

### Gündəlikdə münasibətlərin normallaşması dayanır

"Azərbaycanın gündəliyində Bakı ilə İrəvan arasında sülh və ikitərəfli münasibətlərin normallaşması məsələsi var". Bu sözləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev jurnalistlərə açıqlamasında bildirib. H.Hacıyev Xankəndidəki qanunsuz rejim tərk-silah edilib Azərbaycan ərazisindən çıxarıldıqdan sonra Ermənistanla Azərbaycan arasında sülh sazişini bağlamaq üçün heç bir əngəlin qalmadığını, hazırda iki ölkə arasında ədavət və düşmənçilik fəslini dəyişdirmək və Bakının təklif etdiyi beş fundamental prinsip əsasında davamlı sülh yaratmaq naminə tarixi fürsətin yarandığını diqqətə çatdırıb.

Prezidentin köməkçisi rəsmi Bakının Avrasiya xəritəsində ən "uzunömürlü" münaqişələrdən birinin həlli üçün model yaratdığını qeyd edib. O, jurnalistlərin diqqətinə ATƏT-in Minsk qrupunun uğursuz fəaliyyətini, onun missiyasının Ermənistanın Azərbaycana qarşı işğal siyasətini qorumaq və davam etdirməkdən ibarət olduğunu çatdırıb. "Artıq işğal və ədalətsizlik dönəmi geridə qalıb. Ona görə də Azərbaycanın gündəliyində Bakı ilə İrəvan arasında sülh və ikitərəfli münasibətlərin normallaşması məsələsi var. Ancaq istənilən sülh öhdəliyi hər iki tərəfin öz üzərinə düşən vəzifəni yerinə yetirməsini tələb edir. Ermənistan da öz rolunu oynamalı, pozitivlik və xoşməramlılıq nümayiş etdirməlidir", – deyən H.Hacıyev Azərbaycanın Ermənistanla bağlı gələcək siyasətinə də toxunub: "Biz regionda ədalət prinsiplərinə söykənən, bir-birimizin ərazi bütövlüyünü və suverenliyini tanıyan və bir-birimizə qarşı bütün ərazi iddialarına son qoyaraq yeni regional təhlükəsizlik arxitekturasını qurmaq istərdik. Sülh və regional təhlükəsizlik Brüsseldə deyil, Parisdə deyil, Vaşinqtonda deyil, Moskvada və ya başqa yerdə deyil. Sülh bölgənin özündədir".



Rəsmi Bakı iki ölkə arasında sülh sazişinin imzalanması, münasibətlərin nizamlanması ilə bağlı yeni təkliflər zərfini İrəvana təqdim edib. Yəni, Azərbaycan tərəfi hər iki istiqamətdə məsələnin tezliklə həllində maraqlıdır. Prezident İlham Əliyev də Azərbaycanın sülhə və normallaşmaya hazır olduğunu dəfələrlə bildirib. Düzdür, Ermənistan tərəfi cavab verməsə də, təkliflər zərfini aldığını etiraf edib. Həmçinin, bu layihəyə müsbət yanaşdığını bildirib. Ən önəmli məsələ Azərbaycan və Ermənistan liderlərinin sülh və normallaşmaya pozitiv münasibətidir.

Azərbaycanla münasibətlərin normallaşdırılması çərçivəsində gərgin diplomatik işin davam etdiyini söyləyən Ermənistan parlamentinin hakim "Mülki müqavilə" fraksiyasının üzvü Gevorq Papoyan bu məsələdə İrəvanın mövqeyinin beynəlxalq tərəfdaşlar tərəfindən "tam başa düşüldüyünü" açıqlayıb. Onun sözlərinə görə, mövcud durum tərəflərə sülh müqaviləsini imzalamağa imkanı verir. Amma Papoyan bu xüsusda "təbii ki, maneələr var. Yoxsa müqavilə bu gün imzalana bilərdi", – deyə fikir bildirməyi də yaddan çıxarmayıb.

İrəvandan fərqli olaraq, Bakının dəqiq siyasi kursa malik olduğunu deyən erməni politoloq Arqişti Kiviryan yerli mediaya müsahibəsində qeyd edib ki, hazırda Ermənistan hakimiyyətinin apardığı siyasət ölkəni təhlükə altına atır. "Bu siyasəti onların diplomatik cəhətdən savadsızlığını şərtləndirir. Gələcəkdə hüquq-mühafizə orqanları bununla məşğul olmalıdır" – vurğulayan Kiviryanın fikrincə, Ermənistan iqtidarının apardığı siyasətin ölkəni mütləq fəlakətə sürükləyəcəyini anlamaqdan ötrü dərin ağıla malik olmaq lazım deyil: "Bu adamların siyasi səriştəsizliyi Ermənistanı bölgədə tək qoyub və hazırda onun regional müttəfiqi yoxdur".

Tədricən Ermənistan cəmiyyətində sağlam düşüncəyə malik, reallıq hissini itirməmiş insanların səsi eşidilməyə başlayır. Bu, təqdiredici haldır. Amma hələlik beləlari azlıqdadır.

### Xristian təəssübkeşliyi aşkar göz önündədir

Son vaxtlar Avropa İttifaqının emissarlarının İrəvana və Tbilisiyə çoxsaylı səfərləri müşahidə edilməkdədir. Mediada Aİ-nin Gürcüstanı quruma üzv qəbul etməyə hazırlaşdığı barədə məlumatlar dolaşır. Hətta Tbilisi və İrəvanın Aİ-yə eyni vaxtda qəbul ediləcəyinə dair vahid planın olduğunu söyləyənlər də var. Bəli, Gürcüstanın bu təşkilata üzvlüyə yolunu açmaq üçün açıq cəhdlər edilir. Yəqin növbəti mərhələdə eyni proses Ermənistan üçün də başlayacaq. Göründüyü kimi, həm Brüssel, həm də Vaşinqton platformalarında sülh müqaviləsinin imzalanması yönündə tələskənliyin, tərəflərə edilən təzyiqlərin əsas səbəblərindən biri bu imiş. Artıq heç kəsə sirr deyil ki, Qərbin məqsədi Cənubi Qafqazın iki xristian ölkəsini – Gürcüstan və Ermənistanı Aİ-yə üzv etməkdir. Bu yanaşmanın məhz dini amil üzərindən aparıldığı şübhə doğurmur. İntəhası, ortada fərqli problemlər mövcuddur. Gürcüstan-Rusiya münasibətlərində məlum ziddiyyətlər hələ də qalmaqdadır. Bu isə Tbiliyə təzyiq vasitələrindən biridir. Elə Ermənistanın özünün də Moskva ilə münasibətləri heç də hamar müstəvidə deyil. Rusiyanın Gümrüdəki hərbi bazasının hərəkətə gətirilməyəcəyinə və burada yeni Ukrayna ssenarisinin oynanılmayacağına kim təminat verə bilər? Yeri gəlmişkən, deyəsən, Kreml artıq haqqında söz açdığımız prosesə start verib. Onun Paşinyanı hakimiyyəti qəsb etməkdə günahlandırması hadisələrin eynilə Ukraynadakı kimi cərəyan edə biləcəyinə dəlalət edir. Qərbin Ermənistanı gücləndirmək istəyinə, onu kütləvi şəkildə silahlandırmaq səylərinə də məhz bu kontekstdən yanaşmaq lazımdır.

ABŞ-ın bölgə ölkələrinə münasibətdə son davranışlarına gəldikdə isə onun rəsmi Bakı ilə çox vacib məsələlərdə uzun illər qarşılıqlı əməkdaşlığını unudaraq, Cənubi Qafqazda söz sahibinə çevrilən Azərbaycanla qarşıdurma yolunu seçdiyi birmənalıdır. Bu qarşıdurmada kimin uduzacağını yaxın tarix göstərəcək.

***İmran BƏDİRXANLI***
***XQ***

**Ekspert rəyi**



**Fərid ŞƏFİYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərklәzinin rəhbəri, politoloq**

Qərb düşünür ki, əgər Ermənistana daxil olsa, o, üzünü tamamilə Rusiyadan çevirəcək. Amma Paşinyan bəyan edib ki, hələ ki, Rusiyaya bağlı heç bir qurumdan çıxmırıq. Buraya, ilk növbədə, KTMT və Avrasiya İqtisadi İttifaqı daxildir. Avropa mətbuatı bu yaxınlarda sanksiyaya düşən malların Ermənistandan Rusiyaya ötürüldüyü barədə məlumatlar dərc etmişdi. Amma bu məsələdə erməni lobbisi amili, eləcə də digər faktorlar nəzərə alınmalıdır.

Fəqət, Ağ Evin Türk dünyası ilə əlaqələri pozduğunun da şahidi oluruq. Birləşmiş Ştatlar bunun faydasını görməyəcək. Azərbaycan üçün 907-ci düzəlişin yenidən qüvvəyə minməsinin elə bir ciddi fəsadları yoxdur. Onsuz da həmin düzəliş 1992-ci ildən 2000-ci ilədək qüvvədə qalmışdı və Azərbaycan nə onda, nə də ondan sonrakı müddətdə Amerikadan heç bir ədəd də hərbi texnika almayıb, belə bir yardımdan asılılığı yoxdur. Bu səbəbdən 907-ci düzəlişin qüvvəsini dayandırmasının ləğvi qərarının Azərbaycana heç bir təsiri olmayacaq.

Başlıca məqam budur ki, hazırda Cənubi Qafqaz uğrunda siyasi mübarizə gedir. ABŞ da, Rusiya da həmin mübarizədə Ermənistan kimi kiçik dövlətlərdən istifadə edir. Azərbaycanı belə bir alətə çevirə bilmədiklərindən, təzyiqləri artırmaq yolu tutublar.



# Azərbaycanın dövlət müstəqilliyinin Naxçıvan təməli və dərsləri

**Keçmiş SSRİ-nin ali rəhbərlərindən biri, dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyev sovet imeriyasının olimpindəki düşmən dairənin məkrli fitvası ilə istefaya məcbur ediləndən 4 il sonra Vətənin dar məqamında xalqının mübarizəsinə bacardığı köməyi göstərmək üçün 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilməyə razılıq verdi.**

"Çiyinimə avtomat salıb, Azərbaycan xalqının yolunda, onun azadlığı yolunda canımı qurban verməyə hazıram" məramı ilə siyasi fəaliyyətə qayıdan Ulu öndər doğulub böyüdüyü Naxçıvan torpağında Azərbaycanın yaxınlaşan dövlət müstəqilliyinin əsaslarının formalaşdırılmasına rəhbərlik etdi. Bu tarixçə bir daha sübut etdi ki, böyük tarixi şəxsiyyətlərin həyatı və fəaliyyətinin bütün gedişləri və önəmli məqamları mənsub olduğu xalqın və ölkənin, hətta geniş mənada beynəlxalq münasibətlərin dəyişməsi və inkişaf etdirilməsi, yenidən qurulması ilə üzvi surətdə bağlı olur.

Ümummilli liderin blokada və işğal təhlükəsi şəraitində yaşayan Naxçıvanda siyasi fəaliyyətini davam etdirməsi Azərbaycan xalqının taleyində böyük siyasi əhəmiyyətə malikdir. Bu hadisəyə XX əsrin səksəninci illərinin sonu və doxsanıncı illərin başlanğıc dövrünün ictimai-siyasi proseslərinin müstəvisindən baxsaq, xalqımızın və ölkəmizin taleyi üçün tanınmış, təcrübəli və səriştəli siyasi liderin nə dərəcədə əhəmiyyətli olduğu qabarıq şəkildə nəzərə çarpar.

Keçən əsrin səksəninci illərinin ortalarından sonuna qədər bir-birini əvəz edən kommunist rəhbərləri Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə rəhbərliyindən sonrakı dövrün boşluğunu doldurmaq gücündə ola bilməmişdilər. Doxsanıncı illərin əvvəllərində zamanın dalğasında romantik-idealist simalar kimi görünən AXC–Müsavat iqtidarının nümayəndələrinin isə nə siyasi təcrübəsi və səriştəsi, nə də normal idarəçilik qabiliyyətləri var idi. Sözün böyük mənasında, Azərbaycanın geniş dünyagörüşlü, möhkəm əqidəli, həyatın çətin sınaqlarından çıxmış, ölkəsinə və xalqına bağlı olan güclü dövlət xadiminə ciddi ehtiyacı var idi.

Nə kommunist rəhbərlərin arasında, nə də cəbhəçi bəylərin sıralarında mövcud tarixi şəraitdə ölkəyə rəhbərlik edə biləcək, Sovet İttifaqının dağılması ilə əlaqədar xalqı düşdüyü ağır vəziyyətdən çıxaracaq, ölkəni irəli apara biləcək əhəmiyyətli siyasi fiqur görünmürdü. Vəziyyət isə çox mürəkkəb idi. Sovet dövlətinin dağılması nəticəsində digər keçmiş müttəfiq respublikalar kimi, bəzilərindən isə daha çox Azərbaycan Respublikası çoxcəhətli böhranın dərinləşməsi dövrünü yaşamaqda davam edirdi. Xalqda ölkənin gələcəyinə böyük ümidsizlik yaranmışdı.

Ara-sıra Azərbaycanın parçalanacağı, regionların müxtəlif ölkələr arasında bölüşdürüləcəyi barədə mülahizələr səslənməkdə idi. Üstəlik də çətin blokada şəraiti Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında vəziyyəti daha da çətinləşdirmişdi. Bütün bunlar az imiş kimi, keçən əsrin səksəninci illərinin axırlarından etibarən Azərbaycan iqtidarındakı sol və sağ təmayüllü rəhbərlərin, demək olar ki, mütləq əksəriyyəti Naxçıvan Muxtar Respublikasına ögey münasibət bəsləyirdi. Onlardan bəziləri Naxçıvanı "acı bağırsaq kimi kəsib atmaq", bəziləri isə muxtariyyət statusunu ləğv etmək barədə bəyanatlarla çıxış edirdilər. Yaranmış boşluqdan istifadə edən Ermənistan tərəfdən də siyasi-hərbi təzyiqlər qüvvətlənməkdə davam edirdi.

Olduqca çətin, mürəkkəb və məsuliyyətli məqamda Heydər Əliyev kimi böyük və zəngin həyat və siyasət məktəbi keçmiş təcrübəli dövlət xadiminin Azərbaycana qayıdışı, taleyin hökmü ilə 22 iyul 1990-cı ildə Naxçıvana gəlməsi, həmin ilin 30 sentyabrında Nehrəm kəndindən Azərbaycan Respublikasının Ali Sovetinə və Mirzə Fətəli Axundzadə adına Naxçıvan şəhər seçki dairəsindən Muxtar Respublikanın Ali Məclisinə deputat seçilməsi geniş mənada xalq arasında ölkənin gələcəyinə böyük ümid qığılcımları yaratmışdı.

Bu mənada, Heydər Əliyevin 3 sentyabr 1991-ci ildə xalqın tələbi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilməsi Azərbaycan miqyasında böyük rəğbətlə qarşılanan əhəmiyyətli siyasi hadisə idi. Artıq xalqımız əmin idi ki, ən azı Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası bundan sonra daha heç vaxt düşmən caynağına keçə bilməz. Bu hadisə o zamankı Dağlıq Qarabağ ətrafında torpaqların itirilməsi prosesinin tez-tez müşahidə olunduğu ağır bir vaxtda xalqda ölkənin ərazi bütövlüyünün bərpa olunacağına da böyük ümid yaratmışdı.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyevin Sədrliyi ilə keçən iclaslarında ölkənin müxtəlif bölgələrindən gəlmiş rəsmi qurumların nümayəndələrinin, haqları tapdanmış sadə, zəhmətkeş insanların iştirak edib, özlərinin mövcud vəziyyətləri barəsində dəqiq məlumatlar verərək, çıxış yolları barədə məsləhətlər almaları, dəstək görmələri Ali Məclisi Azərbaycan xalqının ümid qapısına çevirmişdi. Bütövlükdə isə görkəmli dövlət xadimi Heydər Əliyev ölkənin və xalqın əsl ümid çırağı idi. Naxçıvanda yaşayıb-işlədiyi illərdə Heydər Əliyevin iş otağında yanan sadə çıraqdan bütün Azərbaycana işıq düşürdü.

Faktiki olaraq 1991-ci ilin əvvəllərində Naxçıvan Muxtar Respublikasında sovet hakimiyyəti idarəçiliyi yox kimi idi. Bir qədər əvvəl Naxçıvan MR Ali Məclisinin görkəmli dövlət xadimi Heydər Əliyevin sədrliyi ilə keçirilən 17 noyabr 1990-cı il tarixli sessiyası Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adını dəyişərək, bundan sonra Naxçıvan Muxtar Respublikası adlandırılmasını qərarlaşdırmışdı. SSRİ hökumətinin hələ fəaliyyətdə olduğu dövrdə Heydər Əliyevin sarsılmaz siyasi iradəsinin və böyük uzaqgörənliyinin nəticəsində Naxçıvan MSSR-in adından "Sovet Sosialist" sözlərinin çıxarılması, Naxçıvan MSSR Ali Sovetinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi adlandırılması, sadəcə, redaktə xarakterli düzəliş deyildi. Bu, de-fakto SSRİ-nin tərkibindən çıxmaq, ən azı isə bu dövlətin çərçivəsində müstəqil dövlət qurumu yaratmaq demək idi.

Bundan başqa, Naxçıvan MR Ali Sovetinin 17 noyabr 1990-cı il sessiyasında Azərbaycanın dövlət rəmzi kimi Xalq Cümhuriyyəti dövründə qəbul edilmiş üçrəngli bayrağın Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilməsi barədə yekdilliklə qərar qəbul edilmiş və sessiyanın iclasına sədrlik edən Heydər Əliyevin təşəbbüsü ilə həmin milli mahiyyət daşıyan Dövlət Bayrağı Ali Məclisin binası üzərində dalğalanmağa başlamışdı. Bütün bunlar yalnız Naxçıvan MR Ali Məclisinin sessiyasına sədrlik edən Heydər Əliyevin həm böyük siyasi iradəsinin, dönməz azərbaycançılıq idealının, qeyri-adi cəsarətinin və uzaqgörənliyinin sayəsində həyata keçirilə bilmişdi.

Bütün bunlar Sovet İttifaqı və respublika rəhbərlərini narahat etmişdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 17 noyabr 1990-cı il tarixli iclasında qəbul edilmiş ciddi və mühüm siyasi qərarlardan sonra isə Azərbaycan Sovet Respublikasının rəhbərliyinin təzyiqi ilə muxtar respublikada siyasi rəhbərliyi həyata keçirən əsas qurum olan Naxçıvan Vilayət Partiya Komitəsi tədricən Ali Məclisin sessiyalarının keçirilməsinə mane olmağa çalışmış, təzyiqlər göstərmişdi. Bunun nəticəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisi bir müddətdən sonra, 1991-ci ilin avqust ayına qədər fəaliyyətini dayandırmalı olmuşdu.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 3 sentyabr 1991-ci il tarixli fövqəladə sessiyasının gündəliyinə geniş mənada həmin tarixi mərhələnin ən aktual məsələləri, xüsusən də ölkə miqyaslı və o cümlədən, Naxçıvan Muxtar Respublikası ilə əlaqədar zəruri məsələlər daxil edilmişdi. Fövqəladə sessiya ölkədə Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsinə münasibət bildirməli idi. Gündəlikdə nəzərdə tutulan məsələlərin həllinə təsir göstərmək Azərbaycanda müstəqil dövlətçilik prosesinin dərinləşdirilməsinə və sürətləndirilməsinə xidmət edirdi. Ancaq həmin məsələlərin müsbət həlli Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasında bu ali hakimiyyət orqanının sədri seçiləcək şəxsin siyasi iradəsindən, cəsarət və uzaqgörənliyindən çox asılı idi. Buna görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 3 sentyabr 1991-ci il tarixli sessiyasının həll edəcəyi ən əsas vəzifə təşkilati məsələ idi.

Naxçıvan Muxtar Respublikasının bütün əhalisi Ali Məclisin Sədri vəzifəsinə görkəmli dövlət xadimi, xalqının sədaqətli rəhbəri Heydər Əliyevin muxtar respublikanın ali hakimiyyət orqanının rəhbəri vəzifəsinə seçilməsini qətiyyətlə tələb edirdi. Həmin gün Ali Məclisin binası qarşısına toplanmış minlərlə insan dayanmadan, gur səslə Heydər Əliyevin muxtar respublikanın ali qanunverici orqanının rəhbəri vəzifəsinə seçilməsini tələb edən bəyanatlarla çıxış edirdi. Lakin deputat kimi də ictimai-siyasi proseslərdə özünün obyektiv sözünü demiş, cəmiyyət həyatının demokratikləşdirilməsinə ciddi təsir göstərən, xüsusən, Naxçıvanın ərazi bütövlüyünün qorunub saxlanılması üçün xalqın birliyinə nail olmuş, zəngin dövlətçilik fəaliyyətinə malik olan Heydər Əliyev xalqın qarşısına çıxaraq heç bir rəsmi dövlət vəzifəsi daşımaq niyyətində olmadığını dəfələrlə bildirmişdi.

Naxçıvan MR Ali Məclisinin 3 sentyabr 1991-ci il tarixli sessiyasının iclasında da Ulu öndər 4 dəfə çıxış edərək, namizədliyini irəli sürənlərə minnətdarlıq duyğularını ifadə etməklə yanaşı, böyük təkidlə bu məsələnin səsə qoyulmamasını xahiş etmişdi. Onun həmin sessiyadakı çıxışları Heydər Əliyev dühasını daha dərindən anlamaq, bu görkəmli şəxsiyyətin böyüklüyünün miqyasını bütün aydınlığı ilə, əyani şəkildə dərk etmək üçün mühüm siyasi əhəmiyyətə malikdir.

Fövqəladə sessiya Naxçıvan Muxtar Respublika Ali Məclisinin bütün tarixi ərzində keçirilmiş ən uzunmüddətli sessiya idi. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin rəhbərliyi ilə 3 sentyabr 1991-ci il tarixdə öz işinə başlayan sessiyanın iclasları 4 sentyabrdan sonra 5 gün ərzində davam etdirilmiş, iclaslarda ölkə səviyyəsində və region üçün əhəmiyyətli olan mühüm məsələlər geniş müzakirə edilərək tarixi əhəmiyyətə malik olan müvafiq qərarlar qəbul olunmuşdur.

Gündəlikdə duran məsələlərə uyğun olaraq Naxçıvan MR Ali Məclisinin sessiyası yaranmış tarixi şəraitdə alternativsiz namizəd irəli sürüldüyünü, hələlik ölkədə çoxpartiyalı sistemin formalaşmadığını, Kommunist Partiyasının süquta uğradığını, seçki komissiyası və məntəqələri üzvlərinin partokratiya nümayəndələrinin sifarişi ilə təyin olunduğunu nəzərə almaqla Azərbaycan Respublikasının Prezidentinin seçilməsi üçün 8 sentyabr 1991-ci il tarixə təyin edilmiş seçkilərin Naxçıvan MR ərazisində keçirilməsinin dayandırılmasına dair qərar qəbul etmişdir. Eyni zamanda, Heydər Əliyevin Sədrlik etdiyi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 3 sentyabr 1991-ci il sessiyası "Azərbaycan Kommunist Partiyasının və onun strukturlarının fəaliyyətinə münasibət haqqında" məsələ müzakirə edərək, Azərbaycan Respublikasının Ali Sovetindən xahiş edilmişdir ki, Sovet İttifaqı Kommunist Partiyası, Siyasi Büro, Mərkəzi Komitə dağıldığı üçün respublikada da bu siyasi-təşkilati qurumun fəaliyyəti dayandırılsın.

Bundan başqa, sessiyada Naxçıvan MR-də partiya təşkilatlarının əmlakının milliləşdirilməsini təmin etmək üçün deputat komissiyasının yaradılmasına da qərar verilmişdi. Bunlar Azərbaycanda tarixi gedişatın axarının, istiqamətinin dəyişdirilməsinə, müstəqil dövlətçilik uğrunda mübarizə hərəkatına böyük təkan verən tarixi qərarlardır. Bu qərarların mətninin sonunda görkəmli dövlət xadimi, böyük şəxsiyyət Heydər Əliyevin imzasının olması, sadəcə, həmin tarixi günün faktı olaraq qalmır. İlk növbədə, 3 sentyabr 1991-ci il xalqın böyük arzusu və tələbi ilə dünya miqyaslı siyasətçi Heydər Əliyevin böyük siyasətə yenidən qayıdışının həlledici mərhələsi idi. Bu, Azərbaycanda siyasi-tarixi gedişatın əsaslı dönüş məqamı idi.

Naxçıvan MR Ali Məclisinin Sədri vəzifəsinə seçilməmişdən 46 gün əvvəl, yəni 19 iyul 1991-ci ildə Kreml rəhbərliyinə rəsmi müraciəti əsasında Sovet İttifaqı Kommunist Partiyasının sıralarından öz iradəsi ilə çıxmış Heydər Əliyev SSRİ tarixində ilk dəfə olaraq bitərəf, partiyasız, müstəqil deputat kimi ali hakimiyyət orqanının rəhbəri vəzifəsinə seçilmişdi.

Görkəmli dövlət xadimi Heydər Əliyevin Sədri olduğu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin timsalında XX əsr ərzində Azərbaycanın o vaxta qədərki tarixində birinci dəfə idi ki, üzərində Kommunist Partiyasının nəzarəti olmayan ali dövlət qurumu fəaliyyətə başlamışdı. Siyasi gedişatın ciddi dönüşünü şərtləndirən bu tarixi məqamlar ölkəmizi müstəqil dövlətçiliyə aparan çətin və keşməkeşli yollara işıq salan, ümummilli prosesin hərəkətverici qüvvəsinə çevrilən mühüm hadisələrdir.

Buna baxmayaraq, Azərbaycan Sovet Respublikasının siyasi rəhbərliyi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyev sədrliyi ilə qəbul edilmiş qərarların həyata keçirilməsinə mane olmaq üçün bütün vasitələrdən istifadə etmişdi. Bununla belə, həmin vaxt Azərbaycanda siyasi rəhbərlik dəyişilsə də, Naxçıvan Muxtar Respublikasına münasibət uzun müddət dəyişməz olaraq qalmışdı. Hətta Naxçıvan Muxtar Respublikasında 24 oktyabr 1991-ci il tarixdə Heydər Əliyevə qarşı Azərbaycan Xalq Cəbhəsi tərəfindən mərkəzdən idarə olunan çevriliş cəhdi də göstərmişdilər.

Lakin bütün təzyiqlərə baxmayaraq, görkəmli dövlət xadimi Heydər Əliyev dövlət çevrilişi cəhdinin qarşısını qətiyyətlə almış, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi fəaliyyətini dönmədən həyata keçirirərək, bu regionda ölkənin ərazi bütövlüyünü qoruyub saxlamış, muxtar respublikanı işğaldan xilas etmiş, regionda sosial-iqtisadi vəziyyəti böhran həddindən çıxarmış, çətin və mürəkkəb şəraitdə real inkişafa nail olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin rəhbərliyi ilə Ali Məclisin qəbul etdiyi qərarlar təkcə region üçün deyil, geniş mənada ölkə üçün mühüm əhəmiyyət kəsb edən məsələləri əhatə etmişdir. Məsələn, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin həyata keçirdiyi məqsədyönlü hərbi-siyasi tədbirlər və qəbul etdiyi qərarlar sayəsində Sovet ordusu hissələri dinc yolla muxtar respublikanın ərazisindən çıxarılmışdır. Ölkənin bu regionunun xarici ölkələrlə olan sərhədlərini ilk dəfə olaraq Naxçıvanda yaradılmış milli ordunun əsgərləri qorumaq şərəfi qazandılar.

Həmin dövrdə Heydər Əliyevin həyata keçirdiyi genişmiqyaslı müdafiə tədbirləri nəticəsində Naxçıvan Muxtar Respublikası xaricdən böyük dəstək alan Ermənistanın işğalından xilas edilmişdir. Dünya Azərbaycanlılarının Həmrəylik Gününün dövlət səviyyəsində qeyd edilməsi haqqındakı 16 dekabr 1991-ci il tarixli dərin məzmunlu qərara da Heydər Əliyev imza atmışdır. Ali Məclisin Sədri Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə və İran İslam Respublikasına tarixi səfərləri, bu ölkələrin rəhbərləri ilə apardığı danışıqlar regionda blokada şəraitinin yaratdığı ağır böhranın aradan qaldırılması, iqtisadi problemlərin və enerji məsələlərinin həllində əhəmiyyətli rol oynamışdır.

Azərbaycanda ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasında sosialist təsərrüfat sistemi və kollektiv mülkiyyət forması ləğv edilmiş, torpaq islahatları və özəlləşdirmə tədbirləri həyata keçirilmişdir. Azərbaycanla Türkiyə Cümhuriyyətini əlaqələndirən Naxçıvan Muxtar Respublikası ərazisindəki Sədərək-Dilucu – "Ümid körpüsü"nün 28 may 1992-ci ildə istifadəyə verilməsi ilə ölkələr arasında çoxcəhətli əlaqələrin yeni mərhələsi başlanmış, blokada şəraiti yumşaldılmışdır. Naxçıvan Muxtar Respublikası üçün mühüm həyati əhəmiyyət kəsb edən Naxçıvan Aeroportunun imkanlarının genişləndirilməsi və yenidən qurulması sahəsində tədbirlər həyata keçirilmişdi.

Ulu öndər Heydər Əliyev Naxçıvanda ikən 21 noyabr 1992-ci ildə yaradılmış Yeni Azərbaycan Partiyası, məlum olduğu kimi, ölkənin sonrakı inkişafında mühüm tarixi rol oynamışdır. Çətin blokada şəraiti olmasına baxmayaraq, 12 noyabr 1992-ci il tarixdə Naxçıvan Dövlət Universitetinin 25 illik yubileyinin muxtar respublika səviyyəsində keçirilməsi, Ali Məclisin Sədri kimi Heydər Əliyevin yubiley mərasimində axıradək iştirak etməsi və dərinməzmunlu nitq söyləməsi Ulu öndərin həyatının bütün məqamlarında ziyalı faktoruna xüsusi diqqət göstərməsinin bariz nümunəsidir.

Bir sözlə, görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə 1991–1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Azərbaycanda dövlət müstəqilliyinin formalaşdırılmasının böyük məktəbinə çevrilmişdi. Ümummilli liderin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsindəki yorulmaz və səmərəli fəaliyyətiilə çətin və mürəkkəb şəraitdə muxtar respublikanın Ermənistanın işğalından qorunub saxlanılması və inkişaf etdirilməsi ilə bərabər, həm də Azərbaycan miqyasında müstəqillik uğrunda mübarizənin qüvvətləndirilməsinə, ölkədə demokratik proseslərin inkişaf etdirilməsinə böyük təkan verilmişdir.

Heydər Əliyevin xalqın ardıcıl və təkidli tələbləri ilə 3 oktyabr 1993-cü il tarixdə Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməsi və ölkə rəhbəri kimi fəaliyyət göstərdiyi tarixi mərhələ (1993–2003) ölkəmizdə dövlət müstəqilliyinin yaradılması, möhkəmləndirilməsi və gələcək inkişafın böyük təməllərinin formalaşdırılması epoxasıdır. Heydər Əliyev epoxası Azərbaycanın xilası və inkişafı dövrünün tarixi epoxasıdır! Heydər Əliyev yolu Azərbaycanı böyük gələcəyə aparan möhtəşəm magistraldır.

Bu, Böyük Qayıdışdan Milli Qurtuluşa və müasir inkişafa doğru dönməz şəkildə istiqamət alan müqəddəs və əbədi yolun möhkəm bünövrəsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə Heydər Əliyev milli dövlətçilik təlimini yaradıcı şəkildə inkişaf etdirməklə və müasir dövrün meydana çıxardığı yeni əlavələrlə zənginləşdirməklə Qarabağda erməni işğalına son qoyaraq xalqımıza misilsiz böyük Zəfər qazandırmaqla, erməni separatçılarını təslim etdirərək ölkəmizin tam suverenliyinə nail olmaqla xalqımızın və dövlətimizin tarixində yeni bir tarixi epoxa yaratmağa nail olmuşdur.

Heydər Əliyev – İlham Əliyev epoxası Azərbaycanın çoxəsrlik inkişaf yolunun ən böyük tarixi mərhələsidir. Bu, özündəki bütün dövrlərin heç birində təkrarı, bənzəri olmayan, mahiyyətinə və əhəmiyyətinə görə əsrlərə bərabər olan misilsiz tarixi epoxadır. İlham Əliyev epoxası tam suverenlik qazanmış və ərazi bütövlüyünə qovuşmuş müstəqil Azərbaycan Respublikasının və xalqımızın sabahkı daha parlaq həyatının və möhtəşəm uğurların tam təminatı epoxasıdır. Bu epoxa böyük uğurla özünün tarixi yolunu davam etdirməkdədir.

***İsa HƏBİBBƏYLİ,***
***AMEA-nın prezidenti,***
***akademik***

# ABŞ–Avropa münasibətləri: Vassallıq getdikcə dərinləşir

## *Vaşinqtondan hərtərəfli asılı ölkələr Azərbaycanın müstəqil xarisi siyasət yürütməsini qəbul edə bilmirlər*

**Avropa və ABŞ arasında əlaqələr uzun tarixə malikdir. İkinci Dünya müharibəsinin başa çatmasınadək münasibətlər bərabərhüquqlu əsasda idi. Müharibədən sonra isə fərqli durum yaşandı. Çünki savaş Avropaya böyük fəlakətlər gətirmişdi. Şəhərlər və kəndlər dağılmış, iqtisadiyyat məhv edilmiş, milyonlarla insan həyatını itirmişdi. ABŞ isə dünyanın 57 ölkəsinin cəlb olunduğu müharibədə tək-tük ölkələrdən idi ki, ərazisində hansısa döyüş əməliyyatları aparılmamışdı. Birləşmiş Ştatların insan itkisi də xeyli az idi. Müqayisə üçün deyək ki, yapon işğalına məruz qalmış Çin 35 milyon, SSRİ 26,6 milyon, Almaniya və onun Avropadakı müttəfiqləri müxtəlif hesablamalara görə, 8-13 milyon, Polşa 6 milyon itki vermişdi. 1941-ci il dekabrın 7-də Havay adalarının Honolulu şəhərindəki Pörl-Harbor limanında yerləşən ABŞ Hərbi Dəniz Qüvvələrinin bazasına Yaponiya aviasiyasının qəfil hücumu ilə müharibəyə qoşulan ABŞ-ın dörd ilə yaxın dövrdə insan itkisi cəmi 405 399 nəfər təşkil etmişdi. Nəticə etibarilə ölkə Birinci Dünya müharibəsində olduğu kimi, İkinci cahan savaşından da qalib ayrılmışdı. Nəinki qalib ayrılmış, iqtisadiyyatı güclənmişdi. Bəli, müharibə Vaşinqtonun Avropa üzərində hegemonluğa başlaması üçün münbit şərait yaratdı. Zəifləmiş qitə ölkələri ABŞ-dan asılı vəziyyətə düşdülər.**



Həmin vaxt "köhnə qitə"nin şərq hissəsi sabiq SSRİ-nin təsiri altına düşdü. Sovet İttifaqı 1944-cü ilin əvvəlindən başlayaraq, alman işğalından azad etdiyi ölkələrdə kommunist rejimləri qururdu. ABŞ isə anti-Hitler koalisiyası üzrə əsas müttəfiqlər olan Böyük Britaniya və Fransa ilə birgə özünə loyal rejimlər yaratmaqda idi.

Müharibədən sonra – 1947-ci ildə Birləşmiş Ştatların dövlət katibi Corc Marşall tərəfindən rəsmi adı "Avropanın bərpası proqramı" olan, lakin daha çox "Marşall planı" kimi məşhurlaşmış proqram irəli sürüldü. Xarabazara çevrilmiş Avropaya xarici yardım göstərməyi nəzərdə tutan plan 1948-ci il aprelin 3-də qüvvəyə mindi. "Marşall planı" çərçivəsində ayırmaların ümumi məbləği 13 milyard dollar oldu. Yeri gəlmişkən, qeyd edək ki, 2015-ci ildə dərc olunmuş bir araşdırmada həmin 13 milyard dolların hazırda 150 milyard dollar ekvivalentində olduğu qeyd olunmuşdu. Planın həyata keçirilməsində 18 Avropa ölkəsi iştirak etsə də, əsas benefisiarlar Böyük Britaniya (26 faiz), Fransa (18 faiz) və Qərbi Almaniya (11 faiz) idi.

Nəticə etibarilə, "Marşall planı" Vaşinqtona öz iradəsini Avropaya diktə etmək imkanı yaratdı. Plan cəmi dörd ilə yaxın (1951-ci ilin dekabrınadək) qüvvədə oldu. Ancaq Avropanın ABŞ-dan həmin planla əsası qoyulan asılılığı bu günə qədər davam edir.

***

Avropa İttifaqı, onun xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Jozep Borrell, Avropa Parlamenti və qitənin digər qurumları Azərbaycanın sentyabrın 19-20-də Qarabağın bütün ərazisində dövlət suverenliyini bərpa etmək məqsədilə reallaşdırdığı lokal xarakterli antiterror tədbirləri səbəbindən, ölkəmizə əsassız hücumlar etməkdədirlər. Bu yerdə haşiyə çıxaq ki, həmin Avropa İttifaqının əsası da məhz "Marşall planı" ilə qoyulub. Onu da nəzərə alaq ki, planın əsas məqsədlərindən biri Avropanı "birləşdirmək" idi. Yəni, həm Avropanın özündə, həm də Avropa ilə ABŞ arasında bütün valyuta və gömrük maneələrinin aradan qaldırılması, xüsusən də Rur kömür mədənlərinin və Lotaringiya dəmir filizinin birləşdirlməsi, vahid Avropa bazarının yaradılması nəzərdə tutulurdu. 1950-ci ilin mayında bu plan konkret formada – Avropa Kömür və Polad Birliyi şəklində təcəssüm olundu. 1951-ci il aprelin 18-də Parisdə Fransa, Almaniya Federativ Respublikası, İtaliya, Belçika, Niderland və Lüksemburqun kömür, dəmir filizi və metallurgiya sənayesini birləşdirən və Qərbi Avropada gələcək iqtisadi inteqrasiyanın əsasını qoyan beynəlxalq təşkilat yaradılmasına dair müqavilə imzalanmışdı ki, bu sənəd 1952-ci il iyulun 25-də qüvvəyə minmişdi. Avropa Kömür və Polad Birliyi son nəticədə Avropa Komissiyası, Avropa Parlamenti, Avropa İttifaqı Şurası və Avropa İttifaqı Məhkəməsinin formalaşması üçün əsas olmuşdu. Beləliklə, Avropa İttifaqının da yaradılmasının əsası ABŞ tərəfindən qoyulub. Deməli, hazırda ölkəmizə Birləşmiş Ştatlar və Aİ tərəfindən edilən hücumlardakı sinxronluqda bir tarixi qanunauyğunluq var. Loru dildə desək, pulu kim verirsə, musiqini sifariş edən də odur.

Yeri gəlmişkən, Avropanın aparıcı ekspertləri və siyasətçiləri Aİ-nin ABŞ-dan vassal asılılığından getdikcə daha açıq formada danışırlar. Bu ilin aprelində Avropa Xarici Əlaqələr Şurası (ingiliscə abbreviaturası ECFR) transatlantik münasibətlərin vassal xarakter daşıdığını göstərən hesabat dərc edib. Hesabatın müəllifləri, ECFR-in tədqiqat direktoru Ceremi Şapiro və alman politoloqu Yana Puqlirin Avropanın siyasi dairələrində transatlantik münasibətlərə olan reaksiyaları toplayıb. Onlar "The Brussels Times"a müsahibədə bu reaksiyalardan danışıblar.

Şapironun sözlərinə görə, bir çox avropalı siyasətçilər şəxsi söhbətlərdə hesabatın əsas müddəaları ilə razılaşdıqlarını bildiriblər, baxmayaraq ki, onlar "vassallaşma" sözünün özünü çox sərt hesab edərək ondan istifadə etməməyə üstünlük verirlər. "Sanki deyirdilər ki, "haqlısan, sadəcə, bu barədə belə danışma", – deyən Şapiro qeyd edib ki, Avropa o qədər vassallaşıb ki, bunu etiraf da edə bilmir. Onun sözlərinə görə, bu çox dəhşətli haldır.

Şapiro və Puqlirin öz hesabatlarında Rusiya–Ukrayna müharibəsinin başlanması ilə Aİ ilə ABŞ arasında münasibətlərin daha sürətlə vassal münasibətlərinə çevrilməyə başladığını vurğulayır və bunun əsas səbəblərindən ikisinin önə çəkirlər. Birincisi, avropalıların xarici siyasət strategiyası ilə bağlı əsas məsələlərdə öz aralarında razılığa gələ bilməməsidir: "Onlar əvvəllər də buna nail ola bilmirdilər. Lakin indi vahid strategiya təcili ehtiyaca çevrilib və buna görə də tamamilə ABŞ rəhbərliyinə arxalanmalı məcburiyyətində qalıblar. Avropa ölkələri nə edəcəkləri ilə bağlı razılığa gələ bilmir və kompromis əldə etmək üçün bir-birlərinə kifayət qədər güvənmirlər. Amerika rəhbərliyi Avropada lazımdır, çünki avropalılar özlərini idarə etməkdə aciz qalıblar".

Ekspertlərin fikrincə, mövcud durumun ən bariz nümunəsi Polşa-Almaniya ziddiyyətləridir ki, Berlin Ukraynaya hərbi yardım üçün milyardlarla vəsait xərcləməyə başlayandan sonra da bu ziddiyyətlər aradan qalxmayıb: "Hətta Polşa ərazisində Kiyevə tədarük edilən alman tankları üçün servis mərkəzinin açılması ilə bağlı Berlin və Varşava böyük çətinliklə razılaşa bildilər. Daha böyük məsələlər haqqında heç nə danışmadılar. Polşa-Almaniya nümunəsi isə yeganə nümunə olmaqdan uzaqdır. Almaniya hətta Aİ-dəki ən yaxın tərəfdaşı Fransa ilə də xarici və müdafiə siyasətinə vahid yanaşma formalaşdıra bilməyib. Baxmayaraq ki, Berlin və Paris son on ildə çoxlu belə cəhdlər ediblər".

ECFR ekspertləri qeyd ediblər ki, Aİ-nin vassallaşmasının ikinci səbəbi Avropanın ABŞ-dan iqtisadi cəhətdən geridə qalmasıdır: "2008-ci ildə Aİ iqtisadiyyatı Amerika iqtisadiyyatından bir qədər böyük idi: 16,2 trilyon dollara qarşı, 14,7 trilyon dollar. 2022-ci ilə qədər ABŞ iqtisadiyyatı 25 trilyon dollara, Aİ və Böyük Britaniya iqtisadiyyatı isə cəmi 19,8 trilyon dollara qədər böyüyüb", – deyə hesabat müəllifləri qeyd edirlər. Hesabatda daha sonra bildirilir: "Böyük Britaniyanı nəzərə almasaq, o zaman deməliyik ki, Aİ iqtisadiyyatı hazırda Amerika iqtisadiyyatının üçdə biri boydadır və bu tendensiya daha da güclənir. Heç vaxt siyasiləşməyən, lakin buna baxmayaraq, Aİ-nin etiraf edilmiş iqtisadi lideri olan Almaniya sənayə potensialını itirir, alman iqtisadiyyatından investisiyalar xaricə gedir".

Bildirilir ki, Aİ texnoloji inkişaf və hərbi gücünə görə də ABŞ-dan xeyli geri qalır, avro isə beynəlxalq valyuta əməliyyatlarında istifadə baxımından dollara yenilir: "Ona görə ki, böhranlı vəziyyətdə avropalıların nəinki siyasi iradəsi, hətta öz xəttini tutmaq üçün resursları da yox idi. Amerikalılar Aİ-nin zəifliyini hiss edərək, onun maraqlarını nəzərə almağı dayandırdılar. Hətta qoşunların Əfqanıstandan çıxarılması zamanı Bayden administrasiyası avropalı müttəfiqlərini sadəcə olaraq, fakt qarşısında qoydu və bu günə qədər də bunu davam etdirir. Bayden ən yaxşı halda postfaktum öz hərəkətlərini avropalılara nəzakətlə izah edir və bəzi simvolik güzəştlər boyun olur. Eyni şey Aİ-nin sənayesizləşdirilməsini sürətləndirən Amerika anti-inflyasiya aktı məsələsində də baş verdi – heç kim bunu avropalılarla müzakirə də etmədi".

ECFR ekspertlərinin proqnozuna görə, bundan sonra Aİ-dən Çinlə iqtisadi mübarizədə tam iştirak etmək tələb olunacaq. "Vaşinqtonun bu mübarizədə Aİ-yə verdiyi əsas vəzifə Amerika sənayəsini dəstəkləmək və ABŞ-ın Çin üzərində texnoloji üstünlüyünü təşviq etməkdir. Görünür, avropalılar, hətta öz iqtisadiyyatlarını qurban vermək bahasına olsa belə, bununla razılaşacaqlar. Bir çox Vaşinqton rəsmiləri müxtəlif müsahibələrdə avropalıların qışqıra və şikayət edə biləcəkləri fikrini ifadə ediblər, lakin "köhnə qitə"nin təhlükəsizlik baxımından ABŞ-dan artan asılılığı onların Amerikanın qlobal təhlükəsizlik siyasətinin bir hissəsi kimi formalaşdırılan Çinə qarşı iqtisadi siyasəti qəbul edəcəkləri deməkdir. Vassallaşmanın mahiyyəti budur", – deyə Şapiro və Puqlirin yazır.

Beləliklə, aydın olur ki, Qərbi Avropa ölkələri hazırda ABŞ-ın vassalına, marionet ölkələrə çevriliblər. Onlar nəinki müstəqil xarici siyasət yürüdə bilmir, hətta iqtisadi baxımdan da İkinci Dünya müharibəsindən sonra olduğu kimi, Vaşinqtondan asılı vəziyyətə düşüblər. Bu mənada, belə ölkələrin rəsmi şəxslərinin Azərbaycanla bağlı hədyanlar yağdırmaları bizi öz yolumuzdan döndərə bilməz. Onlardan fərqli olaraq, tam müstəqil xarici siyasət yürüdən Azərbaycan güclənməkdə və milli maraqlarını uğurla müdafiə etməkdə davam edir.

**Səxavət HƏMİD,**
**XQ**

### Ekspert rəyi



**Zaur MƏMMƏDOV,**
**politoloq**

– Qərbi Avropa ölkələri uzun müddətdir ki, birqütblü dünyanın ABŞ tərəfindən idarə olunması üçün köməkçi rol oynayırlar. Əslində, bu da əbəs deyil. Çünki dünyanı idarə etmək istəyən müəyyən güclər özlərinin təhlükəsizliklərini okeanın o tayında görürdülər. Onlar Avropadan Amerikaya köç etdikdən sonra Vaşinqtonun mərkəz olması şərtilə dünya proseslərini istiqamətləndirməyə başladılar. Məqsədlərdən biri də Avropanı Amerikaya yaxınlaşdırmaq idi. Çünki dünyanı idarə edən güclərin bunu etmələri, beynəlxalq proseslərdə məqsədlərinə çatmaları üçün mütləq şəkildə Qərbi Avropadan başlamaq lazım idi. Əgər Birinci Dünya müharibəsindən sonra ABŞ borcverən ölkəyə çevrilmişdisə, İkinci Dünya müharibəsindən sonra dollar dünya valyutası olmağa başladı. Biz daha sonra Qərbi Avropa ərazisində Aİ-nin yaradılmasını, NATO-nun təşkilini gördük. Hər iki qurum hazırda da məhz Vaşinqtonun diktəsi altında fəaliyyət göstərir. ABŞ-ın ayrı-ayrı ölkələrlə qarşıdurması zamanı Aİ və NATO hər zaman Vaşinqtonun köməyinə çatıb.

Qarabağ ətrafında hazırda baş verən proseslərdə də biz Qərbi Avropanın və okeanın o tayının mövqeyinin eyni olduğunu görürük. Həm anqlosaks dünyası, həm Qərbi Avropa ölkələri, həm də Kanada Azərbaycanın haqq işinə qərəzli yanaşmağı davam etdirir.



# Milli Məclisin Sədri Bişkekdə

**Milli Məclisin Sədri Sahibə Qafarova Bişkek şəhərində keçirilən MDB iştirakçısı olan Dövlətlərin Parlamentlərarası Assambleyasının 56-cı plenar iclasında çıxışında Ermənistan tərəfinin yalanlarını növbəti dəfə ifşa edib.**

O bildirib ki, Azərbaycan 2020-ci ildə öz torpaqlarını işğaldan azad etdikdən sonra Ermənistanla beynəlxalq hüququn prinsiplərinə əsaslanan sülh müqaviləsi imzalamaq təşəbbüsü ilə çıxış edib. Lakin Qarabağı sözdə Azərbaycan ərazisi kimi tanıyan Ermənistan təəssüf ki, üç il ərzində siyasi və hərbi təxribatlarla məşğul olub. Bu ilin sentyabrında həyata keçirilən antiterror tədbirləri Azərbaycanın öz Konstitusiya quruluşunu bərpa etmək və qanunsuz silahlı birləşmələri zərərsizləşdirmək məqsədi daşıyıb.

Spiker qeyd edib ki, nəticədə, Ermənistanın Qarabağdakı ordusu tam tərksilah edilib, Azərbaycan Qarabağdakı qanunsuz separatçı rejimə son qoyaraq, beynəlxalq səviyyədə tanınmış ərazisi üzərində suverenliyini tam bərpa edib. Antiterror tədbirləri zamanı Azərbaycan beynəlxalq humanitar hüquqa tam uyğun hərəkət edib, mülki əhaliyə və mülki infrastruktura heç bir ziyan dəyməyib. Eləcə də, heç bir "etnik təmizləmə", ermənilərin Qarabağdan məcburi köçürülməsi ilə bağlı bir fakt belə qeydə alınmayıb. Bunu bölgəyə səfər etmiş iki BMT missiyasıda təsdiqləyib. Bu aşkar faktlara baxmayaraq, Ermənistan hələ də Azərbaycana qarşı yalan və əsassız ittihamlar əsasında beynəlxalq ictimaiyyəti aldatmaqda davam edir.

***

Sahibə Qafarova Bişkek də böyük qırğız yazıçısı Çingiz Aytmatovun 95 illik yubileyi münasibətilə keçirilən beynəlxalq konfransda da çıxış edib.

O, Çingiz Aytmatovun hələ sağlığında klassikə çevrilmiş yazıçı olduğunu söyləyərək, onun dünya ədəbiyyatında yeni nəsrin yaradıcılarından biri olmaqla oxucularına misilsiz irs qoyduğunu bildirib. S.Qafarova Çingiz Aytmatovun Azərbaycanın böyük dostu olduğunu xatırladaraq qeyd edib ki, yazıçının 95 illik yubileyi münasibətilə paytaxt Bakıdakı küçələrin birinə böyük qırğız yazıçısının adı veriləcək, onun büstü qoyulacaq.

**Ə.BƏDƏLOV**
**XQ**

# Ulu öndərin 100 illiyinə həsr olunmuş qızıl sikkənin təqdimat mərasimi



**Noyabrın 17-də "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə istehsal edilmiş "100 il və onun fövqündə bir irs" adlı qızıl sikkənin təqdimat mərasimi keçirilib.**



Heydər Əliyev Mərkəzində təşkil olunan mərasimdə "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov nəfis tərtibatda dizayn edilmiş 999.9 əyarlı qızıl sikkəsinin müasir numizmatika sahəsində inqilabi yenilik hesab edilən "Smart-minting" texnologiyası əsasında ərsəyə gətirildiyini qeyd edib.

**XQ**

# Latviya Respublikasının 105 illik yubileyi qeyd edilib



**Latviya elan olunmasının 105-ci ildönümü münasibətilə noyabrın 17-də Bakıda rəsmi qəbul təşkil edilib.**

Ölkəsinin tarixinə, keçdiyi inkişaf yoluna nəzər salan Latviya səfiri Edqars Skuya Azərbaycan–Latviya əlaqələrinin müxtəlif sahələrdə dinamik inkişafından danışıb. Ölkələrimiz arasındakı diplomatik əlaqələrin 2024-cü ildə 30 illiyinin qeyd olunacağını diqqətə çatdıran səfir, münasibətlərin strateji əməkdaşlıq səviyyəsinə yüksəldiyini vurğulayıb.

Tədbirdə çıxış edən xarici işlər nazirinin müavini Samir Şərifov Azərbaycan hökuməti adından Latviya xalqını Respublikanın yaranmasının 105-ci ildönümü münasibətilə təbrik edib.

**XQ**

# Dövlət sahibkarlıq subyektlərinə dəstəyi gücləndirir

**Xəbər verildiyi kimi, noyabrın 16-da Bakıda Qlobal Sahibkarlıq Həftəsi çərçivəsində Kiçik və Orta Sahibkarlıq üzrə Dünya Forumu keçirilib. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin dəstəyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və Kiçik Biznes üzrə Beynəlxalq Şuranın (ICSB) təşkilatçılığı ilə keçirilən tədbirdə dövlət rəsmiləri, beynəlxalq təşkilatların nümayəndələri, biznes assosiasiyaları və iş adamları iştirak ediblər.**



Tədbirdə kiçik və orta biznesin dəstəklənməsi və inkişafı sahəsində ən yaxşı təcrübənin öyrənilməsi, institusional tərəfdaşlığın genişləndirilməsi, maraqlı tərəflər arasında əməkdaşlıq üçün yeni imkanların müəyyən edilməsi, gənc sahibkarlığın təşviqi, eləcə də Azərbaycanın əlverişli biznes mühitini və potensial investisiya imkanlarını geniş auditoriyaya tanıtmaqla bağlı məsələlər geniş müzakirə edilib.

Forumda çıxış edən iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov bildirib ki, son illər Azərbaycan dövləti tərəfindən milli iqtisadiyyatın şaxələndirilməsi və rəqabətqabiliyyətli sektorların iqtisadi inkişafının təşviqi üzrə tədbirlər çərçivəsində kiçik və orta sahibkarlığa səmərəli dəstək və dayanıqlı inkişaf istiqamətində məqsədyönlü siyasət yürüdülür. Əksər ölkələrdə olduğu kimi, Azərbaycanda fəaliyyət göstərən müəssisələrin də mütləq əksəriyyətinin mikro, kiçik və orta sahibkarlıq müəssisələrindən ibarət olduğunu diqqətə çatdıran nazir müavini deyib ki, dövlət kiçik və orta biznesin (KOB) inkişafına dəstək, o cümlədən, biznes mühiti, yeni təşkilati modellər və müasir xidmətlər üzrə kompleks tədbirlər həyata keçirir. Qeyd olunub ki, 2017-ci ildə KOB üzrə ümumi dəstək proqramı çərçivəsində, sözügedən sektorda dövlət siyasətinin təkmilləşdirilməsi və görülən tədbirlərin səmərəliliyinin artırılması məqsədilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yaradılıb.

Nazir müavini qeyd edib ki, işğaldan azad edilmiş torpaqlarımızın yeni ehtiyatlarının və sərvətlərinin iqtisadi dövriyyə cəlb edilməsi, eləcə də beynəlxalq əhəmiyyətli daha səmərəli kommunikasiya xətlərinin yaradılması imkanları təkcə Azərbaycanda deyil, ümumilikdə, region ölkələrində KOB sektorunun inkişafı üçün yeni imkanlar açır. Qarabağ bölgəsinin nəqliyyat-tranzit, bərpaolunan enerji, kənd təsərrüfatı, sənaye, dağ-mədən və digər sahələrdə böyük potensiala malik olduğunu söyləyən S.Məmmədov deyib ki, burada “yaşıl enerji” zonası, “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyalarının tətbiqi həm ölkəmizin, həm də bütövlükdə regionun dayanıqlı inkişafına böyük töhfə olacaq.

Azərbaycanda dövlətin yaratdığı iqtisadi zonaların rezidentlərinin 90 faizindən çox hissəsini KOB subyektləri təşkil etdiyini diqqətə çatdıran natiq, həmçinin deyib ki, ölkəmizdə sənaye parklarının rezidentləri üçün vergi güzəştləri tətbiq olunub.Onun sözlərinə görə, sənaye parklarının rezidentləri qeydiyyata alındıqları hesabat ilindən başlayaraq, 10 il müddətinə mənfəət, əmlak və torpaq vergisindən, eləcə də 10 il müddətinə idxal olunan texnika, texnoloji avadanlıqlar və qurğulara görə ƏDV-dən azad olunur.

Nazir müavini diqqətə çatdırıb ki, Azərbaycanda bizneslər həm özəl maliyyə vasitəçilərinin təklif etdikləri kreditlərdən, həm də dövlət institutlarının təqdim etdikləri güzəştli maliyyə vəsaitlərindən faydalanmaq imkanına malikdirlər. Qeyd olunub ki, 2022-ci ildə İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu KOB subyektlərinə 70 milyon ABŞ dollarına yaxın güzəştli kredit verib ki, bu da fondun kredit portfelinin təqribən 85 faizini təşkil edib.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) İdarə Heyətinin Sədri Orxan Məmmədov bildirib ki, KOB-ların inkişafının dəstəklənməsi təkcə hökumətlərlə məhdudlaşmamalı, bütün maraqlı tərəflər, geniş ictimaiyyət, akademik dairələr və beynəlxalq platformalar öz səylərini bu istiqamətdə birləşdirməlidir. Tərəfdaş ölkələrin müvafiq qurumları və təşkilatları ilə əməkdaşlığın uğurla davam etdirildiyini diqqətə çatdıran O.Məmmədovun dediyinə görə, KOBİA institusional əməkdaşlığın genişləndirilməsinə və yerli sahibkarlıq subyektləri ilə xarici potensial tərəfdaşlar arasında birbaşa əlaqələrin qurulmasına dəstək verməyi əsas hədəf kimi qarşısına məqsəd qoyub. Qeyd olunub ki, qabaqcıl beynəlxalq təcrübələr nəzərə alınmaqla hazırlanan “Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında” yeni qanun KOB sektorunun inkişafına və dövlətin dəstək tədbirlərinin yeni keyfiyyət səviyyəsinə yüksəldilməsinə xidmət edəcək. “Şübhəsiz, platformanın təqdim etdiyi ən əhəmiyyətli imkanlardan biri şəbəkələşmə, təcrübə mübadiləsinin aparılması və həmkarların yeniliklər barədə bir-birindən öyrənmək fürsətidir. Bu baxımdan, əminəm ki, hazırkı Ümumdünya KOB Forumu da strateji fəaliyyət gündəliyimizin zənginləşdirilməsi və genişləndirilməsi üçün uğurlu göstəricilər ilə yadda qalacaq”, - deyə Orxan Məmmədov əlavə edib.

Kiçik Biznes üzrə Beynəlxalq Şuranın prezidenti və baş direktoru Ayman El Tarabişi çıxışında Azərbaycanın Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə ICSB arasında əməkdaşlığı yüksək qiymətləndirib. KOBİA-nın ICSB ilə rəqəmsal transformasiyaya başlayan ilk təşkilat olduğunu vurğualyan qurum rəhbəri ötən 4 il yarım ərzində göstərilən qarşılıqlı fəaliyyətin əməkdaşlıq, innovasiya və dayanıqlılığın nümunəsinə çevrildiyini bildirib. Qeyd olunub ki, bu tərəfdaşlıq qlobal qeyri-müəyyənlik dövründə başlamasına baxmayaraq, təşkilatın yeni fəaliyyət formatına keçidə hazırlığı heyrətamiz çeviklik və ümumi missiiyaya sadiqlik nümayiş etdirib. “Səmərəli tədbirlər görmək üçün səyləri səfərbər etməyə saqidlik KOBİA-nın daim nümayiş etdirdiyi xüsusiyyətdir. Əməkdaşlığımız iddialı başlanğıcla yeni yüksəkliyə çatdı və üç günlük Dünya Forumunun keçirilməsi ilə nəticələndi”, – deyə qurum rəhbəri bildirib.

Forumda, həmçinin İCSB-nin İdarə Heyətinin sədri Ki Çan Kim, Moldovanın Sahibkarlığın İnkişafı Təşkilatının direktoru Dumitru Pintea, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev, İtaliya–Azərbaycan Ticarət Palatasının prezidenti Manuela Traldi, Türkiyə Sənayeçi və İş Adamları Dərnəyinin prezidenti Yaşar Doğan çıxış edərək dünyada və ölkəmizdə sahibkarlığın inkişafı, KOB-ların ÜDM-də, məşğulluqda və ixracda artan rolu, müxtəlif ölkələrdə KOB-ların dəstəklənməsi tədbirləri barədə məlumat veriblər.

Tədbir çərçivəsində “Azərbaycanda kiçik biznes və sahibkarlıq”, “KOB-ların rəqəmsal transformasiyası və xarici ticarət”, “Qadınların və gənclərin sahibkarlıq fəaliyyətinin gücləndirilməsi” mövzularında panel müzakirələr keçirilib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Ölkəmizdə əsas kapitala yönəldilmiş vəsait artıb

**Bu ilin yanvar–oktyabr aylarında ölkəmizdə əsas kapitala 14 milyard 258 milyon manat məbləğində, yaxud ötən ilin müvafiq dövrü ilə müqayisədə 17,1 faiz çox vəsait yönəldilib.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, hesabat dövründə neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 20,4 faiz, qeyri-neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 15,4 faiz artıb. İstifadə olunmuş vəsaitin 8 milyard 414,6 milyon manatı və ya 59 faizi məhsul istehsalı sahələrinə, 5 milyard 108, milyon manatı (35,8 faizi) xidmət sahələrinə, 735,4 milyon manatı (5,2 faizi) isə yaşayış evlərinin tikintisinə sərf edilib.



Yanvar–oktyabr aylarında ölkədə əsas kapitala yönəldilmiş vəsaitlərin 11 milyard 31,1 milyon manatını və ya 77,4 faizini daxili vəsaitlər təşkil edib. Əsas kapitala yönəldilmiş vəsaitlərin 10 milyard 444,4 milyon manatı və ya 73,3 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə xərclənib.

İlin ötən dövründə əsas kapitala yönəldilmiş vəsaitin ümumi dəyərində müəssisə və təşkilatların öz vəsaitləri 45,5 faiz, büdcə vəsaitləri 40,8 faiz, əhalinin şəxsi vəsaitləri 6,3 faiz, bank kreditləri 2,5 faiz, digər vəsaitlər isə 4,9 faiz təşkil edib.

**XQ**

# Azad edilmiş ərazilərdə sahibkarlığa dəstək



**Azərbaycanın işğaldan azad edilmiş ərazilərində sahibkarlara verilən dövlət zəmanətli, subsidiya mexanizmli kreditlərin maksimal məbləği 5 milyon manat ola bilər. Bunu İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondunun İdarə Heyətinin sədr müavini Eldar Həmidov Bakıda keçirilən “Dayanıqlı maliyyə və investisiya” mövzusunda II Bakı Forumunda bildirib.**

Onun sözlərinə görə, bu kreditlər maksimum 7 il müddətinə verilə bilər ki, onların da, təxminən, 90 faizi üçün dövlət zəmanəti tətbiq edilir. Kreditlər üçün maksimum 3 il olmaqla güzəşt müddətinin müəyyən edildiyini bildirən sədr müavini deyib ki, illik faiz dərəcəsi maksimum 15 faiz olan bu kreditlərin 10 faizlik hissəsi subsidiyalaşdırılacaq.

# Neft emalı 8 faiz yüksəlib

**Bu ilin yanvar–oktyabr aylarında Azərbaycanda 5,5 milyon ton neft emal edilib. Bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 400 min ton və ya 7,8 faiz çoxdur. Bu barədə XQ-yə Energetika Nazirliyindən məlumat verilib.**



Qeyd edək ki, Azərbaycanda neftin emalına 1953-cü ildə başlanılıb. Həmin il istifadəyə verilmiş və hazırda Ümummilli lider Heydər Əliyevin adını daşıyan Bakı Neft Emalı Zavodu hazırda ölkəmizin neft məhsullarına olan tələbatını tam ödəyir. Hazırda müəssisədə yenidənqurma və modernləşdirmə işləri davam etdirilir.

**XQ**

# Qarabağ və Şərqi Zəngəzur Azərbaycanın aqrar potensialına qayıdır

## Bununla kənd məhsulları 8-10 faiz çoxalacaq

**Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun Ermənistanın 30 il ərzində işğalda saxladığı torpaqlarımız azad edildikdən sonra Qarabağın və Şərqi Zəngəzurun ölkəmizin kənd təsərrüfatına reinteqrasiyasına başlanılıb. Bu istiqamətdə həyata keçirilən layihələr nəticəsində indiyədək 70 min hektardan çox sahə əkinə cəlb olunub. Qısa müddət ərzində həmin əkin dövriyyəsinin, təqribən, yarısında kənd təsərrüfatı işlərinin görülməsi məqsədilə texnika və digər istehsal vasitələri ilə təminat yüksək səviyyədə həyata keçirilib, taxıl sahələrində pivot suvarma infrastrukturunun qurulmasına başlanılıb.**



İlkin qiymətləndirilməyə əsasən, Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad edilən ərazilərində məskunlaşma, bərpa və inteqrasiya prosesləri başa çatdıqdan sonra, təqribən, 150 min hektar əkin sahəsi dövriyyəyə cəlb olunacaq. Mövcud əkin strukturu nəzərə alınmaqla bu sahələrin, təqribən, 100 min hektarı taxıl məhsullarının istehsalına yönəldiləcək. Şübhəsiz ki, bu, həm ərzaq təminatı, həm də heyvandarlığın yem bazasının yaxşılaşdırılmasnda əhəmiyyətli rol oynayacaq.

Aparılmış qiymətləndirmələrə görə, regionda kənd təsərrüfatı istehsalının bərpası hesabına ölkə üzrə ümumi kənd təsərrüfatı məhsullarının istehsalı 8-10 faizdən çox artacaq. Həmçinin strateji əhəmiyyətli su ehtiyatlarının yerləşdiyi ərazilərin işğaldan azad edilməsi nəticəsində yeni sahələrin suvarılması təmin ediləcək ki, bu da bütövlükdə, ölkədə kənd təsərrüfatının inkişafına müsbət təsir göstərəcək.

Kənd Təsərrüfatı Nazirliyinin məlumatına əsasən, yaxın perspektivdə Qarabağ və Şərqi Zəngəzurda ənənəvi olan üzüm bağlarının bərpası ilə yanaşı, region üçün yeni bir trend kimi intensiv meyvə bağlarının salınmasına başlanacaq. Yeni intensiv bağlar xüsusilə ixrac əhəmiyyətli gilas, ərik, şaftalı kimi çəyirdəkli meyvələr, həmçinin nar və fındıq kimi ölkə üçün spesifik olan meyvə bağlarından ibarət olacaq. Həmçinin regionda soğan və kartof kimi tərəvəz məhsullarının istehsalı, habelə pambıq və tütün kimi texniki bitkilərin istehsalının təşkili də ölkə üzrə müvafiq istehsal göstəricilərini yüksəldəcək.

Hesablamalara görə, Qarabağ və Şərqi Zəngəzur bölgələrində mövcud olan təqribən 350 min hektar örüş-otlaq sahələri, əlverişli təbii şərait burada heyvandarlığın inkişafı üçün də geniş imkanlar yaradır. İlkin hesablamalar göstərir ki, bu ərazilərdə qaramalın sayının, təqribən, 430 min başa, davarın sayının isə 1,6 milyon başa çatdırılması mümkündür. Bunun nəticəsində bölgədə, təqribən, 45 min ton ət və 240 min ton süd istehsalı proqnozlaşdırılır ki, bu da idxalın əvəzedilməsi və ərzaq təhlükəsizliyinin gücləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Ətlik və südlük istiqamətli heyvandarlıqla yanaşı, bölgədə tarixən mövcud olan baramaçılıq və arıçılıq ənənələrinin, həmçinin atçılığın bərpası da diqqət mərkəzində saxlanılır.

İşğaldan azad olunan ərazilərdə kənd təsərrüfatının bərpası və yenidən inkişaf etdirilməsi istiqamətində genişmiqyaslı tədbirlərdən bəhs edərkən, Zəngilan rayonunda yaradılan “Dost Aqropark”ın da fəaliyyətinə toxunmaq istərdik. Bununla bağlı əvvəlcə onu deyək ki, parkın sürətlə inkişaf etdirilməsi düşməndən təmizlənən ərazilərdə aqrar sektorun inkişafı, kənd təsərrüfatının sənayeləşdirilməsi məqsədi daşıyır.

Üç mərhələdə həyata keçirilən layihənin təməli 2021-ci il oktyabrın 26-da dövlətimizin başçısı İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulub. Artıq aqroparkda birinci mərhələ üzrə görüləcək bütün işlər başa çatdırılıb. 5200 kvadratmetrlik qapalı, 113 min kvadratmetrlik açıq tipli heyvandarlıq kompleksləri tikilib və bura 3500 baş cins qaramal gətirilib və əkinçilik məhsullarının istehsalına başlanılıb.

Hazırda “Dost Aqropark”ın ikinci və üçüncü mərhələləri üzrə işlər davam etdirilir. Layihənin hər 3 mərhələsinin başa çatdırılması nəticəsində 6 min hektar sahədə bitki mənşəli istehsal və texnika sahələri yaradılacaq, 10 min baş cins heyvanın yetişdirilməsi üçün maldarlıq, eləcə də toxumçuluq və şitilçilik sahələri salınacaq. Bununla yanaşı, bütün bölgəyə hədəflənən inteqrasiya olunmuş ət emalı və qablaşdırma müəssisəsi qurulacaq, tutumu 100 min ton olan anbar inşa ediləcək. İstehsal olunan məhsullar yerli tələbatı ödəməklə yanaşı, “Made in Qarabağ” brendi ilə dünya bazarına çıxarılacaq.

“Dost aqropark” ətraf mühitin və təbiətin mühafizəsi ilə yanaşı, halal qida prinsipi ilə fəaliyyət göstərəcək. Burada ekosistemin yaradılması üçün ümumilikdə 100 milyon dollar dəyərində sərmayə qoyulacaq.

***Vaqif BAYRAMOV***
***XQ***

# 10 ayda xaricə 19,8 milyard kubmetr qaz satılıb

**“Azəri–Çıraq–Günəşli” (AÇG) və “Şahdəniz” yataqları istismara veriləndən 2023-cü il noyabrın 1-i tarixinədək 418,7 milyard kubmetr qaz hasil edilib.**

Energetika Nazirliyinin məlumatına görə, ümumi hasilatın 214,1 milyard kubmetri AÇG-nin, 204,6 milyard kubmetri isə “Şahdəniz”in payına düşüb. “Şahdəniz” yatağından hasil edilən qazın 144,8 milyard kubmetri ixraca nəql edilib.

Nazirliyin yaydığı operativ məlumatlara əsasən, 2023-cü ilin 10 ayı ərzində Azərbaycanda 40,1 milyard kubmetr təbii qaz hasil edilib. Bu da ötən ilin müvafiq dövründəkindən 1,6 milyard kubmetr və ya 4,2 faiz çoxdur. Qazın 10,7 milyard kubmetri AÇG-dən, 21,8 milyard kubmetri “Şahdəniz”dən, 0,5 milyard kubmetri “Abşeron”dan, 7,1 milyard kubmetri isə SOCAR üzrə hasil olunub.



Hesabat dövründə xaricə qaz satışı 19,8 milyard kubmetr təşkil edib ki, bu da ötən ilin eyni dövrünə nisbətən 8,2 faiz çoxdur. “Cari ilin yanvar-oktyabr aylarında Avropaya 9,8 milyard kubmetr, Türkiyəyə 8,1 milyard kubmetr, Gürcüstana isə 1,9 milyard kubmetr qaz satılıb. Bu müddətdə Türkiyəyə TANAP-la 4,7 milyard kubmetr qaz nəql olunub”,–deyə məlumatda bildirilir.

**XQ**

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

# Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi haqqında

# ƏSASNAMƏ

**1. Ümumi müddəalar**

1.1. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi (bundan sonra – Agentlik) Azərbaycan Respublikasında suyun mənbədən götürülməsi, emalı, nəqli və təchizatı sahəsində fəaliyyətin təmin edilməsi, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin, içməli su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması sistemlərinin istismarı, eləcə də bu sahədə xidmətlər göstərilməsinin təşkili, balansında olan su təsərrüfatı obyektlərinin texniki vəziyyətinə müntəzəm nəzarətin həyata keçirilməsi, Azərbaycan Respublikasında yerüstü, yeraltı su ehtiyatlarının, su və su təsərrüfatı obyektlərinin, hidrotexniki qurğuların (Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində yerləşən dəniz qurğuları, onların saxlanılmasını və qorunmasını təmin edən əsas və köməkçi avadanlıq istisna olmaqla), su təchizatı sistemlərinin monitorinqinin aparılması sahələrində (bundan sonra – müvafiq sahə) vahid dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

1.2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını rəhbər tutur.

1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Agentliyin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri və öz adı həkk olunmuş möhürü, kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları və blankları vardır.

1.5. Agentliyin saxlanılması xərcləri və fəaliyyəti, habelə maddi-texniki təminatı Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Agentlik Bakı şəhərində yerləşir.

**2. Agentliyin fəaliyyət istiqamətləri**

2.1. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahədə vahid dövlət siyasətinin formalaşmasında iştirak etmək və onun həyata keçirilməsini təmin etmək;

2.1.2. müvafiq sahədə dövlət tənzimləməsini və əlaqələndirməni həyata keçirmək;

2.1.3. müvafiq sahədə normayaratma fəaliyyətini həyata keçirmək;

2.1.4. müvafiq sahənin inkişafını təmin etmək;

2.1.5. Azərbaycan Respublikasının ərazisində su təhlükəsizliyinin təmin edilməsi məqsədilə tədbirlər görmək;

2.1.6. tabeliyindəki qurumların balansında olan su təsərrüfatı obyektlərinin təhlükəsiz istismarının və etibarlı mühafizəsinin təmin edilməsi ilə bağlı tədbirlər görmək və onların texniki vəziyyətinə müntəzəm nəzarəti həyata keçirmək;

2.1.7. Azərbaycan Respublikasının ərazisində yerüstü və yeraltı su ehtiyatlarının, su və su təsərrüfatı obyektlərinin, hidrotexniki qurğuların, su təchizatı sistemlərinin monitorinqini aparmaq;

2.1.8. su obyektlərinin mühafizəsi və onlardan istifadə üzərində dövlət nəzarətini həyata keçirmək;

2.1.9. torpaqların meliorativ vəziyyətini yaxşılaşdırmaq məqsədilə meliorasiya sahəsində xidmətləri inkişaf etdirmək, eləcə də suvarılan torpaqların meliorativ vəziyyəti üzərində nəzarəti həyata keçirmək;

2.1.10. su ehtiyatlarından səmərəli, qənaətlə istifadə olunması və su itkisinin qarşısının alınması sahəsində tədbirləri müəyyənləşdirmək və onların həyata keçirilməsini təşkil etmək;

2.1.11. su ehtiyatlarının inteqrasiyalı idarə olunmasını təmin etmək.

**3. Agentliyin vəzifələri**

3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Agentliyin vəzifələri aşağıdakılardır:

3.1.1. Azərbaycan Respublikasının ərazisində yerləşən su təsərrüfatı obyektlərində, hidrotexniki qurğularda, su təchizatı sistemlərində, habelə aidiyyəti dövlət orqanlarının (qurumlarının) iştirakı ilə su obyektlərində monitorinqlərin, dövlət su kadastrının, yerüstü və yeraltı suların dövlət uçotunun aparılmasını təmin etmək;

3.1.2. su obyektlərindən təyinatına görə istifadə edilməsinə dair monitorinq aparmaq və müvafiq tədbirlər görmək;

3.1.3. suların vəziyyətinə zərərli təsir edən texniki qurğuların, avadanlığın, müəssisələrin (və ya onların bir hissəsinin) və digər obyektlərin istismara buraxılmasının qadağan edilməsi barədə, habelə onların istismarının məhdudlaşdırılması, dayandırılması və fəaliyyətinin qadağan edilməsi ilə bağlı təkliflər vermək;

3.1.4. qanunla nəzərdə tutulmuş hallarda və qaydada su obyektlərinin, o cümlədən içməli su təchizatı mənbələrinin sanitariya mühafizə zonaları və dairələrinin rejiminin təyin edilməsi, tabeliyindəki qurum vasitəsilə su təchizatı və kanalizasiya sistemi obyektlərində qanunla nəzərdə tutulmuş sanitariya mühafizə zonalarının yaradılması və ona nəzarətin həyata keçirilməsi ilə bağlı tədbirlər görmək;

3.1.5. su mühafizə zonalarının, sahil mühafizə zolaqlarının ölçülərinin, sərhədlərinin və onlardan istifadə qaydasının müəyyən edilməsi ilə bağlı aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə müvafiq tədbirləri həyata keçirmək;

3.1.6. yeraltı və yerüstü suların zərərli təsirinin qarşısının alınması və nəticələrinin aradan qaldırılması üçün aidiyyəti dövlət orqanlarının (qurumlarının) iştirakı ilə tədbirlər planı hazırlamaq və həyata keçirilməsini təmin etmək;

3.1.7. təbii fəlakət və texnogen qəzalar nəticəsində zədələnmiş və ya sıradan çıxmış su təsərrüfatı obyektlərinin bərpasına dair təkliflər hazırlamaq, sel və daşqın nəticələrinin aradan qaldırılması üçün su və su təsərrüfatı obyektlərinin tikintisi (bərpası) işlərinin həyata keçirilməsini təşkil etmək;

3.1.8. su təsərrüfatı tədbirlərini və su ehtiyatlarına Azərbaycan Respublikasının perspektiv tələbatını müəyyən etmək, su obyektlərinin mühafizəsini və onlardan səmərəli istifadəni təmin etmək məqsədilə aidiyyəti dövlət orqanlarının (qurumlarının) iştirakı ilə su ehtiyatlarından kompleks istifadə və həmin obyektlərin mühafizəsi baş sxemini, hövzə və ərazi sxemlərini hazırlamaq;

3.1.9. sudan qənaətlə istifadə olunması, o cümlədən itkilərin qarşısının alınması və içməli suyun keyfiyyətinin texniki normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğunlaşdırılması ilə bağlı tədbirlər görmək;

3.1.10. tabeliyindəki qurumların balansında olan meliorasiya, irriqasiya, su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması obyektlərinin işlək vəziyyətdə saxlanılması üçün tədbirlər görmək;

3.1.11. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

3.1.12. su mühafizə zonalarındakı torpaqlardan istifadəyə qanunla nəzərdə tutulmuş qaydada razılıq vermək və bu ərazidəki fəaliyyətə nəzarəti təşkil etmək;

3.1.13. hidrotexniki qurğuların təhlükəsizliyinə təsir edən tikinti fəaliyyətini və konservasiya işlərini dayandırmaq barədə təkliflər vermək;

3.1.14. su obyektlərinin, hidrotexniki qurğuların və su təchizatı sistemlərinin təhlükəsizliyini təmin etmək məqsədilə həmin obyektlərdən (onların bir hissəsindən) istifadənin məhdudlaşdırılması, dayandırılması və qadağan olunması üçün tədbirlər görmək;

3.1.15. dövlət uçotuna alınacaq su istifadəçilərinin siyahısını tərtib etmək;

3.1.16. su obyektlərinin istifadəçiləri və su istehlakçıları tərəfindən su obyektlərindən götürülən və onlara axıdılan suların uçotunun aparılmasına nəzarət etmək və bu məqsədlə istifadə olunan avadanlıq və cihazların vəziyyətinə dair aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə monitorinq aparmaq;

3.1.17. su obyektlərinin təyinatından asılı olaraq, suyun tələbata uyğun paylaşdırılması üçün tədbirlər görmək;

3.1.18. su ehtiyatlarından istifadə sahəsində proqnoz və layihələr hazırlamaq;

3.1.19. su obyektləri üzrə xüsusi suburaxma, çaylardan sel və daşqın sularının axıdılma və su anbarlarının doldurulub-boşaldılma rejimlərini aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə müəyyən etmək;

3.1.20. suların axım rejiminə, keyfiyyətinə və istifadəsinə dair məlumatların toplanılmasını və təhlilini təmin etmək;

3.1.21. təbii fəlakət və texnogen qəzalar nəticəsində su obyektlərində, meliorasiya, irriqasiya, su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması sistemlərində baş vermiş qəzaların səbəblərinin müəyyənləşdirilməsində və bu qəzalar nəticəsində dəymiş zərərin qiymətləndirilməsində, habelə bərpa və yenidənqurma işlərinin təşkilində iştirak etmək;

3.1.22. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq, ərazi planlaşdırılması sənədlərinə dair rəy vermək;

3.1.23. aidiyyəti dövlət orqanlarının (qurumlarının) iştirakı ilə ölkə, su hövzələri və inzibati ərazi vahidləri üzrə su təsərrüfatı balanslarının hazırlanmasını təmin etmək;

3.1.24. meliorasiya, irriqasiya, su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması sistemlərinin dayanıqlı fəaliyyətini təmin etmək məqsədilə, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq, tikintiyə icazə verilməsinə dair rəy vermək, tabeliyindəki qurum vasitəsilə tikinti obyektlərinin istismarına icazə üçün istismara hazır olması barədə sənədlər vermək;

3.1.25. daşqın və subasma zonalarının müəyyənləşdirilməsində iştirak etmək;

3.1.26. sulardan istifadə və onların mühafizəsi sahəsində qanunla müəyyən edilmiş tələbləri pozan şəxslərə qarşı qanunla müəyyən edilmiş tədbirlər görmək;

3.1.27. müvafiq sahədə "Coğrafi İnformasiya Sistemi"nin (GİS) formalaşdırılmasını, aparılmasını və təkmilləşdirilməsini həyata keçirmək;

3.1.28. su ehtiyatlarının idarə edilməsi sahəsində müasir metodların tətbiqi üçün tədbirlər görmək;

3.1.29. transsərhəd su obyektlərinin, hidrotexniki qurğuların, meliorasiya və irriqasiya sistemlərinin dövlətlərarası birgə istismarının təmin edilməsi üçün tədbirlər görmək;

3.1.30. transsərhəd su obyektlərindən, hidrotexniki qurğulardan, meliorasiya və irriqasiya sistemlərindən istifadə sahəsində beynəlxalq müqavilələrin layihələrinin hazırlanmasında iştirak etmək;

3.1.31. müvafiq sahədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə riayət olunması üçün tədbirlər görmək;

3.1.32. sudan ödənişli istifadənin həyata keçirilməsini təşkil etmək;

3.1.33. qanunla nəzərdə tutulmuş qaydada su obyektlərindən balıqçılıq üçün istifadəyə razılıq vermək, sututarlar və ya onların müəyyən hissələrinin idman və həvəskar balıq və digər su bioresurslarının ovu üçün ayırmaq;

3.1.34. xüsusi qorunan su obyektlərinin ölkə, bölgə və yerli əhəmiyyətli xüsusi qorunan su obyektlərinə aid edilməsi barədə təkliflər vermək;

3.1.35. meliorasiya, irriqasiya, içməli su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması sistemlərinin pasportlaşdırılmasını həyata keçirmək, habelə meliorasiya və irriqasiya sistemlərinin kadastrını aparmaq;

3.1.36. hidrotexniki qurğuların dövlət reyestrini aparmaq;

3.1.37. dövlət mülkiyyətində olan meliorasiya, irriqasiya, su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması, qış otlaqlarının su təminatı sistemlərinin istismarını, sel və daşqınlara qarşı mübarizə tədbirlərini, eləcə də bu sahədə xidmətlər göstərilməsini təşkil etmək;

3.1.38. Sudan İstifadəedənlər Birliklərinin (bundan sonra – Birliklər) xidmət göstərdiyi ərazidə yerləşən torpaqların istifadəçiləri istisna olmaqla, mülkiyyət formasından asılı olmayaraq torpaq istifadəçilərinin və uzunmüddətli sazişlərə uyğun olaraq Birliklərin suvarma suyu ilə təchizatını tabeliyindəki qurum vasitəsilə həyata keçirmək;

3.1.39. Birliklərin istifadəsində olan sistemlər istisna olmaqla, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin istismarını tabeliyindəki qurum vasitəsilə həyata keçirmək;

3.1.40. "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən Birliklərin reyestrini aparmaq və onların fəaliyyətinə dövlət nəzarətini tabeliyindəki qurum vasitəsilə həyata keçirmək;

3.1.41. meliorasiya və irriqasiya sahəsində ölkə və regional miqyaslı proqramları hazırlamaq və həyata keçirmək;

3.1.42. su və su təsərrüfatı obyektlərindən götürülən suların bölüşdürülməsini və sudan istifadəyə nəzarəti strukturuna daxil olan qurum vasitəsilə həyata keçirmək;

3.1.43. suvarılan və meliorasiya olunmuş torpaqların uçotunu tabeliyindəki qurum vasitəsilə təşkil etmək və monitorinqini aparmaq;

3.1.44. meliorasiya və irriqasiya sistemlərinin layihələrinin dövlət ekspertizasını tabeliyindəki qurum vasitəsilə həyata keçirmək;

3.1.45. suvarılan və meliorasiya olunmuş torpaqların vəziyyətinə, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin istismarına nəzarəti tabeliyindəki qurum vasitəsilə həyata keçirmək;

3.1.46. tabeliyindəki qurumların balansında olan meliorasiya və su təsərrüfatı obyektləri boyunca qoruyucu meşə zolaqlarının salınmasını, onların saxlanılmasını və qorunmasını təmin etmək;

3.1.47. sudan istifadə ilə bağlı dövlət tənzimləməsi tətbiq olunan tariflərin (qiymətlərin) formalaşdırılmasında iştirak etmək və bu sahədə təkliflər vermək;

3.1.48. qanunla nəzərdə tutulmuş qaydada tullantı sularının axıdılması üçün su obyektlərindən istifadə edilməsinə razılıq vermək və ya tərkibində çirkləndirici maddələrin miqdarı normadan artıq olan tullantı sularının su obyektlərinə axıdılmasını strukturuna daxil olan qurum vasitəsilə məhdudlaşdırmaq, dayandırmaq və ya qadağan etmək;

3.1.49. sanitariya, hidrotexniki və meliorasiya tədbirlərinin görülməsi halları istisna olmaqla, çaylarda, çay qollarında, meliorasiya və irriqasiya sistemlərində qalaqların yaradılmasının, su axımının qarşısının özbaşına kəsilməsinin, göllərdən və limanlardan su buraxılmasının qarşısının alınması üçün strukturuna daxil olan qurum vasitəsilə tədbirlər görmək;

3.1.50. ölkə əhəmiyyətli və rayonlararası suvarma sistemləri üzrə sudan istifadəyə dair ümumsistem planlarını təsdiq etmək;

3.1.51. müəyyən müddət üçün sudan istifadə limitlərini tabeliyindəki qurum vasitəsilə müəyyən etmək, qanunla müəyyən edilmiş hallarda və qaydada su ehtiyatlarından istifadəyə icazə vermək;

3.1.52. hidrotexniki qurğuların təyinatı üzrə təhlükəsizlik bəyannamələrini strukturuna daxil olan qurum vasitəsilə təsdiq etmək;

3.1.53. su və meliorasiya sahəsində elmi-praktiki araşdırmalar aparılmasını, elmi prinsiplərə əsaslanan risk qiymətləndirilməsini, həmçinin bu sahədə texniki normativ hüquqi aktların layihələrinin hazırlanmasını və tədqiqatların aparılmasını tabeliyindəki qurum vasitəsilə həyata keçirmək;

3.1.54. su təsərrüfatı və meliorasiya obyektlərinin, su təchizatı, tullantı sularının emalı və axıdılması sistemlərinin layihələndirilməsini tabeliyindəki qurum vasitəsilə həyata keçirmək;

3.1.55. su obyektlərindən istifadə və onların mühafizəsi qaydalarına, sudan istifadə limitlərinə, su obyektlərindən istifadə və onların mühafizəsi sahəsində sanitariya-gigiyena, ekoloji, hidrogeoloji, hidroloji, texnoloji tələbləri nəzərdə tutan normativ hüquqi aktlara, su mühafizə zonalarının ərazisindən istifadə rejiminə və Azərbaycan Respublikasının su qanunvericiliyinin digər tələblərinə riayət edilməsinə dövlət nəzarətini strukturuna daxil olan qurum vasitəsilə həyata keçirmək;

3.1.56. su təchizatı üçün suyun mənbədən götürülməsi, emalı, nəqli və satışı sahəsində fəaliyyəti təşkil etmək;

3.1.57. yağış və tullantı sularının toplanması, təmizlənməsi, təkrar istifadəsi, kənarlaşdırılması sahəsində fəaliyyəti tabeliyindəki qurum vasitəsilə həyata keçirmək;

3.1.58. "Elektron su təsərrüfatı" informasiya sisteminin fəaliyyətinin təşkilini, idarə olunmasını və təkmilləşdirilməsini təmin etmək;

3.1.59. müvafiq sahədə əlverişli investisiya mühitinin yaradılması üçün təkliflər vermək;

3.1.60. müvafiq sahədə dövlət proqramlarının hazırlanmasında iştirak etmək;

3.1.61. müvafiq sahənin sosial-iqtisadi inkişafının əsas istiqamətlərinə uyğun proqnoz və layihələrin hazırlanmasını təşkil etmək;

3.1.62. müvafiq sahədə elmi tədqiqat və təcrübə-konstruktor işlərinin aparılmasını təşkil etmək;

3.1.63. müvafiq sahə üzrə tövsiyə xarakterli metodiki sənədlər hazırlamaq və onları təsdiq etmək;

3.1.64. müvafiq sahə üzrə statistik uçot aparılmasını təmin etmək;

3.1.65. müvafiq sahə üzrə kadr hazırlığını təmin etmək, həmçinin mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;

3.1.66. müvafiq sahəyə ayrılan büdcə vəsaitindən, kreditlərdən, qrantlardan və qanunla qadağan olunmayan digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.67. müvafiq sahədə elektron xidmətlərin təşkilini təmin etmək;

3.1.68. Agentlikdə kargüzarlıq və arxiv işinin aparılmasını təşkil etmək;

3.1.69. Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər görmək;

3.1.70. dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.1.71. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunla müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.72. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.73. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

3.1.74. fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.75. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**4. Agentliyin hüquqları**

4.1. Öz vəzifələrini yerinə yetirmək üçün Agentliyin aşağıdakı hüquqları vardır:

4.1.1. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

4.1.2. müvafiq sahə üzrə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə təşəbbüslə çıxış etmək;

4.1.3. müvafiq sahə üzrə dövlət və yerli özünüidarəetmə orqanlarından, hüquqi və fiziki şəxslərdən zəruri məlumatların alınması barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.4. beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti orqanları (qurumları) ilə əməkdaşlıq etmək və təcrübə mübadiləsi aparmaq;

4.1.5. müvafiq sahəyə investisiyaların, o cümlədən xarici investisiyaların cəlb olunması üçün aidiyyəti üzrə təkliflər vermək;

4.1.6. fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, müvafiq sahə üzrə tədqiqatlar aparmaq, təkliflər vermək;

4.1.7. müstəqil ekspertləri və mütəxəssisləri, məsləhətçi təşkilatları müqavilə əsasında, bu məqsəd üçün nəzərdə tutulmuş vəsait çərçivəsində öz fəaliyyətinə cəlb etmək, işçi qruplar və komissiyalar yaratmaq;

4.1.8. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

4.1.9. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**5. Agentliyin fəaliyyətinin təşkili**

5.1. Agentliyin Aparatı, onun strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar (hüquqi şəxslər, təşkilatlar və sair), habelə Naxçıvan Muxtar Respublikasının müvafiq dövlət orqanı (qurumu) Agentliyin vahid sistemini təşkil edir. Agentlik öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir.

5.2. Agentliyin strukturunu, Agentliyin Aparatının və strukturuna daxil olan qurumların işçilərinin ümumi say həddini Azərbaycan Respublikasının Prezidenti müəyyən edir. Agentliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların və sair) siyahısını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.

5.3. Agentliyin fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən sədr rəhbərlik edir. Sədr Agentliyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.4. Sədrin Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi birinci müavini və 3 (üç) müavini vardır. Sədrin müavinləri sədrin onlara həvalə etdiyi vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

5.5. Sədr:

5.5.1. Agentliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. müavinləri arasında vəzifə bölgüsü aparır, onların, habelə Agentliyin digər vəzifəli şəxslərinin səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;

5.5.3. Agentliyin Aparatının struktur bölmələrinin, strukturuna daxil olan qurumların (əsasnamələri Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən qurumlar istisna olmaqla) və elmi-texniki şurasının əsasnamələrinin, strukturuna daxil olmayan tabeliyindəki qurumların (nizamnamələri Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilən hüquqi şəxslər istisna olmaqla) nizamnamələrini (və ya əsasnamələrini) təsdiq edir, həmçinin bu Əsasnamənin 5.11-ci bəndində Agentliyin Kollegiyasının səlahiyyətlərinə aid edilməmiş məsələlər barədə normativ hüquqi aktları qərarlar formasında qəbul edir;

5.5.4. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Agentliyin Aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların strukturunu, ştat cədvəlini, ayrılmış büdcə təxsisatı və büdcədənkənar gəlirləri daxilində onların gəlir və xərclər smetasını təsdiq edir;

5.5.5. Agentliyin Aparatının işçilərini, habelə strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərlərini, onların müavinlərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

5.5.6. Agentliyin strukturuna daxil olan qurumların digər işçilərinin vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verir;

5.5.7. Agentliyin işçilərinə, strukturuna daxil olan qurumların rəhbərlərinə və onların müavinlərinə dövlət qulluğunun baş müşaviri və ondan aşağı olan ixtisas dərəcələri verir, habelə xüsusi fərqlənmiş əməkdaşlara Azərbaycan Respublikasının fəxri adlarının verilməsi və ya onların dövlət mükafatları ilə təltif olunması üçün Azərbaycan Respublikasının Prezidentinə təqdimat verir;

5.5.8. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin sərəncamçısı olaraq maliyyə vəsaitini bölüşdürür, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla Agentlik işçilərinin vəzifə maaşlarına əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir;

5.5.9. Apellyasiya Şurasının sədrini, habelə Apellyasiya Şurası sədrinin təqdimatı (təklifi) əsasında Apellyasiya Şurasının digər üzvlərini, Katibliyin rəhbərini və tərkibini təsdiq edir;

5.5.10. əmr və sərəncam formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların, habelə Agentlik tərəfindən qəbul edilmiş normativ hüquqi aktlarının icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

5.5.11. Azərbaycan Respublikasının və xarici ölkələrin dövlət orqanları (qurumları) ilə, hüquqi və fiziki şəxsləri ilə, habelə beynəlxalq təşkilatlarla münasibətdə Agentliyi təmsil edir, danışıqlar aparır, verilmiş səlahiyyətlər daxilində müvafiq beynəlxalq sənədləri imzalayır;

5.5.12. Agentliyin fəaliyyət istiqamətləri üzrə müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar vəsaitin formalaşdırılması ilə bağlı təkliflər verir;

5.5.13. Agentliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir.

5.6. Agentliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərləri onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün birbaşa məsuliyyət daşıyırlar.

5.7. Sədr öz səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini, yaxud vəzifələrinin müvəqqəti olaraq icrasını birinci müavininə və ya müavinlərindən birinə həvalə edə bilər.

5.8. Agentlikdə sədrdən (Kollegiyanın sədri), sədrin birinci müavini və müavinlərindən, Naxçıvan Muxtar Respublikasının müvafiq dövlət orqanının (qurumunun) rəhbərindən və Agentliyin digər rəhbər işçilərindən ibarət tərkibdə Kollegiya yaradılır. Agentliyin Kollegiyasının tərkibinə həmçinin mütəxəssislər və alimlər də daxil edilə bilərlər.

5.9. Agentliyin Kollegiyası üzvlərinin sayını və tərkibini Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.

5.10. Agentliyin Kollegiyası öz iclaslarında Agentliyin fəaliyyəti ilə bağlı məsələləri müzakirə edir və müvafiq qərarlar qəbul edir.

5.11. Agentliyin Kollegiyası qərarlar formasında aşağıdakı normativ hüquqi aktları qəbul edir:

5.11.1. Agentliklə digər şəxslər (qurumlar) arasında münasibətləri tənzimləyən normativ hüquqi aktları;

5.11.2. qəbul edilməsi Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Agentliyə tapşırılmış konkret normativ hüquqi aktları;

5.11.3. bir neçə dövlət orqanının fəaliyyətini tənzimləyən vahid (birgə) normativ hüquqi aktları;

5.11.4. aidiyyəti dövlət orqanları ilə razılaşdırılmalı olan normativ hüquqi aktları;

5.11.5. sədrin təşəbbüsü ilə Agentliyin Kollegiyasının müzakirəsinə çıxarılan bu Əsasnamənin 5.5.3-cü yarımbəndində nəzərdə tutulan normativ hüquqi aktları;

5.11.6. bu Əsasnamənin 5.11.1 – 5.11.5-ci yarımbəndlərinə uyğun olaraq, Agentliyin Kollegiyasının qəbul etdiyi normativ hüquqi aktları ləğv edən və ya onlarda dəyişiklik edilməsi barədə normativ hüquqi aktları.

5.12. Agentliyin Kollegiyasının iclasları Kollegiya üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Agentliyin Kollegiyasının qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Agentliyin Kollegiyasının qərarı qəbul edilərkən səslər bərabər olarsa, Kollegiya sədrinin səsi həlledici hesab edilir.

5.13. Agentliyin Kollegiyasının üzvləri arasında fikir ayrılığı yarandığı hallarda, sədr bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verərək, öz qərarını həyata keçirir. Agentliyin Kollegiyasının üzvləri şəxsi fikirlərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə çatdıra bilərlər.

5.14. Agentliyin Kollegiyasının iclaslarına digər dövlət orqanlarının (qurumlarının), habelə qeyri-hökumət təşkilatlarının nümayəndələri dəvət edilə bilərlər.

5.15. Müvafiq sahədə elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün Agentlikdə ictimai əsaslarla fəaliyyət göstərən elmi-texniki şura yaradıla bilər.

5.16. Agentlikdə, sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin öz sahibkarlıq fəaliyyəti ilə bağlı Agentliyin və ya onun struktur (yerli) qurumlarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən (korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlər istisna olmaqla) verilmiş təkrar şikayətlərinə, habelə dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən namizədlərin verdikləri şikayətlərə baxan, ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən və kollegial orqan olan Apellyasiya Şurası yaradılır.

# Ağdamın zəngin turizm potensialı dirçəldiləcək

## Bu, erməni xislətinin bütün dünyaya göstərilməsi baxımından önəmlidir

**Ağdamın dirçəldilməsi prosesi sürətlə davam etdirilir. Bu məsələdə diqqət yetirilən əsas sahələrdən biri rayonda turizmin inkişaf etdirilməsidir. Əhalinin geri dönüşü və infrastrukturlar tam yaradıldıqdan sonra yeni turizm məhsulları təqdim ediləcəkdir. Birinci mərhələdə əsas istiqamət daxili turizmin təşkilidir. Bu dövr üçün daha çox ziyarət xarakterli turizm, daha sonra infrastruktur tam bərpa olduqdan sonra isə istirahət turizminin təşkili planlaşdırılır.**



Hazırda "Qarabağ Zəfər marşrutları" konsepsiyası çərçivəsində "Yolumuz Ağdama" adlı turlar təşkil edilir. Bu turizm növü "qara turizm" və ya dark turizm adlanır. İşğal nəticəsində dağılan tikililəri, ölüm və faciələrlə bağlı yerlərə edilən səyahətləri, tarixdə yaşanmış faciələri, baş vermiş müharibələrin yaratdığı çətinlikləri, fəlakətləri göstərmək üçün nəzərdə tutulan bu turizm növü rayonun inkişaf etdirilməsi üçün maraqlı istiqamətdir.



Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin baş məsləhətçisi Eldar Seyidov bu barədə bildirdi ki, 2021-ci il mayın 28-də dövlətimizin başçısı İlham Əliyevin iştirakı ilə Ağdam İşğal və Zəfər muzeyləri kompleksinin təməlqoyma mərasimi keçirilib. Bu muzeylər kompleksi, ümumilikdə, 22,5 hektar ərazini əhatə edir. Ağdam şəhərinin müəyyən bir hissəsinin dağıdılmış vəziyyətdə qalması və Ermənistanın işğalçılıq siyasətinin ümumi mənzərəsini əks etdirən açıq səma altında memorial kimi nümayiş etdirilməsi nəzərdə tutulub.

Bu sahə İşğal muzeyi kompleksinin bir hissəsi olub Memorial bağ adlanır. Onun sahəsi 18 hektardır. Bağda xarabalıqlar, dağıdılmış binalar olacaq. Binalar restavrasiya deyil, konservasiya ediləcək, olduqları kimi saxlanılacaq. Bunlar dark turizmi üçün önəmli yer tutur. Onun həvəskarıları məhz belə yerləri görmək istəyirlər. Düşünürəm ki, bu, müharibənin bütün incəliklərini dünyaya çatdırmaq baxımından yaxşı vasitə olacaq.

...Biz Ağdamda olanda Memorial bağda konservasiya ediləcək binalardan biri ilə yaxından tanış olduq. Bu, Ağdam Dövlət Dram Teatrının binasının qalıqları idi. Tarixi simasının qaytarılması mümkün olmadığından onun konservasiyası nəzərdə tutulub. 1955-1956-cı illərdə tikilmiş binadan yalnız giriş qapısının olduğu bir divar hissəsi qalıb. Teatrın binası önündə hovuzun ortasında Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasından "Fərhad Bisütun dağını çapır" heykəlindən əsər-əlamət qalmayıb. İşğal dövründə hər şeyi məhv edən ermənilər mədəniyyət ocağını dağıdıblar. Dağıntıların miqyası isə insanı dəhşətə salır. Bəlkə də dünyada əyani surətdə vandalizm, nifrət və düşmənçiliyin nəticələrini göstərən belə bir yer yoxdur. Bura dark turizm üçün önəmli obyekdir.




Teatrın yaxınlığında yerləşən kitabxana, poçt binası, mehmanxana və dükan da dağıdılıb. Onların qalıqları Memorial bağda saxlanılacaq. Eyni zamanda, bu xarabalıqlar hər kəsə – istər yerli, istərsə də xarici turistlərə müharibənin necə acı nəticələrə səbəb olduğunu, mənfur düşmənin xalqımızın başına gətirdiyi dəhşətli faciələri anladacaq. Xarici turistlər Ağdama səfər edərkən onlar barədə geniş məlumat alacaqlar.

Dark turizm həvəskarlarının Ağdamda maraq göstərəcəyi obyektlərdən biri də "Çörək muzeyi"nin dağıdılmış binasıdır. Bu binanın tarixi çox zəngindir. Ağdamda olarkən yaxınlıqdakı "Çörək muzeyi"nin uçuq divarlarını da gördük. Bir vaxtlar bu muzey nəinki ölkəmizdə, həm də xaricdə məşhur idi. Muzeyin özü şəhərin tam mərkəzində xarabaya çevrilmiş köhnə bir dəyirmanın bazasında yaradılmışdı. Bu bina Böyük Vətən müharibəsi (1941–45) dövründə Ağdamı elektriklə təmin edirdi. Müharibə dövründə, hətta dəyirmanın həyətində yaşayan, təxminən, 20 ailə buradan elektrik enerjisi ilə təmin olunurdu. Sonra istifadəsiz qalaraq yararsız vəziyyətə düşmüşdü.



Ağdam partiya komitəsinin sabiq birinci katibi Sadıq Murtuzayevin göstərişi ilə dəyirman qısa müddətdə bərpa olunmuş, onun ətrafı təmir edilmiş, fasadında məşhur daş mozaika yaradılmışdı. Mozaikanın ideya müəllifi Sadıq Murtuzayev idi. Mozaika Ağdamdan olan rəssam-dizayner Zakir Rüstəmov tərəfindən hazırlanmışdı. Panno xüsusi rəngli daşlardan istifadə edərək yığılmışdı. Muzeyin 3 ekspozisiya zalında 2850-yə yaxın eksponat saxlanılırdı. Bu muzeydə toplanan eksponatlar arasında daşlaşmış qədim taxıl nümunələri, nadir dənli bitki növləri, taxılçılığın inkişafına aid çoxsaylı qiymətli kitablar, əlyazmalar və başqa materiallar, qədim əkinçilik alətləri – xış, vəl, çin, adi və dişli oraq, əldəyirmanı (kirkirə) və başqa alətlər saxlanılırdı.

Ermənistan Silahlı Qüvvələrinin hücumları nəticəsində muzeyə iki dəfə mərmi düşmüşdü. Birinci mərmi üçüncü sərgi zalına düşsə də, partlamamışdı. İkinci mərmi isə 1992-ci ilin avqust ayının 12-də atılmışdı. "QRAD" mərmisi muzeyin varlığına birdəfəlik son qoydu, külünü göyə sovurdu. Bunun nəticəsində muzeydə olan 1500-dək eksponat, tavan taxta materialından hazırlandığından tez alışmış və bir saat ərzində muzey külə dönmüş, dəyirmanın yalnız divarları qalmışdı. Qısa müddətdə 2 minə yaxın taxıl nümunəsi toplanmış belə bir müqəddəs muzey ermənilər tərəfindən yer üzündən silinmişdi. Muzeyin yerləşdiyi küçənin kanalizasiya boruları belə sökülüb aparılmışdı. Bu, hərbi cinayətdir. Azərbaycan xalqına qarşı nifrətin göstəricisidir.

Ağdam səfərimiz zamanı yaxınlıqda yerləşən "Çay evi"nin dağıntılarını da izlədik. 1986-cı il iyul ayının 26-da açılan "Çay evi"nin yalnız birinci mərtəbəsində hörgü işləri olub. Qalan hissələr dəmir konstruksiyadan ibarət idi. Tikinti zamanı yüz tona yaxın metal konstruksiyadan istifadə edilib. Ağdam işğal edilən zaman "Çay evi" tamamilə dağıdılıb, qarət edilib. Vandallar və oğrular dəmir dirəkləri, pəncərə çərçivələrini, qapıları, dam örtüklərini, aparılması mümkün olan nə varsa hamısını söküb daşıyıblar. Hazırda ondan pilləkənin bir hissəsi, dəmir yığını qalıb.

Ağdamlılar şəhərin simvollarından biri olan "Çay evi"nin bərpa olunmasını istəyirlər. Yeni şəhərsalma planına görə, bu ərazidə Mərkəzi park salınacaq. Ola bilsin ki, parkın ərazisində "Çay evi" də tikilsin. Bəlkə də əvvəlki formasını olduğu kimi təkrar etməyəcək, amma az-çox ona bənzədiləcəyinə şübhə yoxdur.

Dark turizm üçün önəmli obyektlərdən biri də İşğal muzeyidir. Muzey hazır olduqdan sonra dark turizm həvəskarları bu muzeydəki informasiyalardan istifadə etməklə işğal dövrünün ağrılı-acılı günləri barədə geniş məlumat əldə edəcəklər. Çünki muzeyin giriş hissəsində nəhəng ekranlar quraşdırılacaq. Orada işğal dövrünün ağrılı-acılı günləri nümayiş etdiriləcək.

Birinci zalda Qarabağ, Ağdam tarixi faktlarla, ikinci zalda 360 dərəcəlik rəqəmsal ekranlarda müharibə dövrünün ağır günləri, dairəvi zalda Ağdamın dağıdılması, yerlə-yeksan edilməsi göstəriləcək. Bu vəhşiliklərin hamısı videolarla və hekayələrlə təqdim olunacaq. Dördüncü zal işğal dövrü qurbanlarının xatirəsinə həsr olunub. Beşinci zal isə Xocalı soyqırımından xilas olmaq üçün Ağdama üz tutmuş sakinlərin keçdiyi əzablı yolu əks etdirəcək. Həmin hissləri yaşatmaq üçün otaqda çox soyuq temperatur olacaq ki, insanlar, ziyarətçilər o soyuğu hiss etsin. Burada sükunət zalı da olacaq, dağıntılar, evlərin yanması əksini tapacaq. Böyük otaq insanlara həmin o hissi yaşatmaq üçün effekt verəcək. Arxiv zalında isə tarixi faktlar əks olunacaq. Memorial bağ isə səma altında muzey olacaq.

Bağın sonuna doğru Zəfər muzeyi, Bayraq meydanı və Zəfər arenası yerləşəcək. Həmin yerlər 27 ildən sonra 44 günlük Vətən müharibəsini, şanlı Qələbəmizi simvolizə edəcək. Zəfər muzeyində hər bir kəndin, qəsəbənin, şəhərin necə azad edilməsi faktlarla göstəriləcək. Döyüşlər şəkillərlə, videolarla əks etdiriləcək. O cümlədən şəhidlərimizin əziz xatirəsini əbədiləşdirmək üçün lövhə də quraşdırılacaq.

Keçmişin ağrı və kədərini nümayiş etdirən bu ərazi dark turizmi üçün səyahət yeri olacaq. Xaricdən ölkəmizə gələn turistlər arasında erməni vəhşiliyinin bir nümunəsi olan Ağdamdakı Şəhidlər xiyabanını, kütləvi məzarlıqları ziyarət etmək istəyənlər də az deyil.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***




# Virtual deportasiya muzeyinin təqdimatı

**Dünən Beynəlxalq Avrasiya Mətbuat Fondu Sosial Tədqiqatlar Mərkəzinin konfrans salonunda "Qərbi azərbaycanlıların deportasiyası və soyqırımı ilə bağlı virtual muzeyin yaradılması" layihəsininin ilkin mərhələsini ictimaiyyət təmsilçilərinə təqdim etdi.**

Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin köməyi ilə həyata keçirilən layihə əsasında hazırlanan sayt və sənədli film haqqında ətraflı məlumat verdi. Mərasimdə iştirak edən rəsmi qurumların, Qərbi Azərbaycan İcmasının, vətəndaş cəmiyyətinin və ölkə mediasının təmsilçiləri BAMF-ın ərsəyə gətirdiyi "Deportasiya – şahidlərin gözü ilə" sənədli filminə baxdılar.

Sonra erməni virtual deportasiya muzeyinin və "deport.az" saytının təqdimatı oldu. Umud Mirzəyev qeyd etdi ki, saytda yerləşdirilən virtual muzeyi yaratmaqda məqsəd Qərbi azərbaycanlıların məruz qaldıqları soyqırımı və cinayətləri beynəlxalq müstəvidə tanıtmaq, onların faciəli hekayələrini, yaşadıqları acıları müasirlərimizə göstərməkdir. İlkin mərhələdə erməni millətçi-qaniçənlərinin Qərbi Azərbaycanda xalqımıza qarşı törətdiyi deportasiya və soyqırımları zamanı müsibətlərə düçar olmuş və bu misilsiz vəhşiliyə şahidlik etmiş 80 nəfərin müsahibəsi lentə alınıb, 25 nəfərlə anket sorğusu keçirilib. Bundan əlavə, çoxsaylı foto və digər sənədlər təqdim etmiş 150 Qərbi azərbaycanlının iştirakı ilə virtual deportasiya muzeyi yaradılıb. Hələlik muzeydə 300-dən çox foto və 200-ə yaxın sənəd toplanıb.

BAMF rəhbəri bildirdi ki, bu cinayətlərin beynəlxalq səviyyədə ictimailəşdirilməsi deportasiyaya məruz qalmlş soydaşlarımızın hüquqlarının bərpası ilə bağlı zəruri beynəlxalq əsaslar yaradılmasına kömək edəcək. Növbəti hədəf isə daha çox iştirakçının müsahibələrə cəlb olunması, toplanan materialların sayının artırılması və digər virtual muzeylərlə qarşılıqlı əlaqələrin qurulmasıdır.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva isə layihənin yüksək səviyyədə gerçəkləşdirildiyini vurğulayaraq söylədi ki, qalib ölkənin qürurlu vətəndaşları kimi düşmənin xəyanət və cinayətlərinin nəticələrini axıradək aradan qaldırmaq üçün hələ çox iş görməliyik. Bu hədəflərə çatmaq üçün vətəndaş cəmiyyəti də fəal çalışır, çeşidli layihələr icra edir.

Milli Məclisin deputatı Musa Quliyev layihə çərçivəsində yaradılan saytın və virtual muzeyin Qərbi Azərbaycana qayıdış missiyasının gerçəkləşdirilməsinə önəmli dəstək olacağını bildirdi, bu yöndə görüləsi işlər barədə təkliflərini söylədi. Deputat Ceyhun Məmmədov isə Azərbaycan həqiqətlərinin beynəlxalq aləmdə tanıdılmasında belə layihələrin vacibliyini qeyd edərək dedi ki, qarşıda duran əsas məsələlərdən biri ermənilərin törətdikləri deportasiya və soyqırımlarının müxtəlif dillərdə əhatəli mənzərəsini yaratmaq və dünya ictimaiyyətinə çatdırmaq üçün internet resurslarından, eləcə də "deport.az" saytından bacarıqla istifadə etməkdir.

Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri, Qərbi Azərbaycan İcmasının Ziyalılar Şurasının üzvü Əfqan Vəliyev deportasiya cinayətləri ilə bağlı yeni yaradılan virtual muzeydə və digər qaynaqlarda əksini tapmış tarixi fakt və hadisələrdən söhbət açdı. Müzakirələrdə təqdim edilən layihənin yaratdığı imkanlardan səmərəli istifadə barədə mülahizələr səsləndi.

**T.RÜSTƏMLİ**
**XQ**

# Dövlət Mükafatları Komissiyası 2024-cü il üçün dövlət mükafatlarına əsərlərin (işlərin) qəbulunu elan edir

**Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyası 2024-cü il üçün Dövlət Mükafatlarına əsərlərin (işlərin) qəbulunu elan edir.**



Komissiyadan verilən məlumata görə, müvafiq sənəd və materiallar Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 8 fevral tarixli 212 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının Əsasnaməsi"ndə göstərilən qaydalara uyğun hazırlanmalı və 2024-cü il aprelin 1-dək Komissiyaya təqdim edilməlidir.

Dövlət Mükafatı Azərbaycan Respublikasının vətəndaşı olan müəlliflərə elmin, texnikanın, memarlığın, mədəniyyətin və ədəbiyyatın inkişafına mühüm töhfələr verən əsərlərə, fundamental və tətbiqi elmi araşdırmalara, dövlətçilik, iqtisadi inkişaf və digər sahələrdəki elmi kəşflərə və ixtiralara, qabaqcıl sənaye-texniki təcrübənin tətbiqinə və nəzəri tədqiqatlara, habelə yeni material və mexanizmlərin yaradılmasına görə verilir.

Əsərlər dövlət idarə və təşkilatları, ali təhsil, elmi-tədqiqat və layihə-konstruktor müəssisələri, ictimai və yaradıcı birliklər tərəfindən Dövlət Mükafatına təqdim olunur.

Fundamental və tətbiqi elmlərə aid əsərlər müvafiq elmi şuraların, bədii əsərlər isə yaradıcı ittifaqların qərarları əsasında Dövlət Mükafatına təqdim edilir.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsis edilən digər mükafatlara, eləcə də başqa ölkələrin dövlət mükafatlarına layiq görülmüş əsərlər Dövlət Mükafatına təqdim edilə bilməz.

Dövlət Mükafatı bir şəxsə bir dəfədən artıq verilə bilməz. Bir müəllifə eyni zamanda bir neçə əsərə görə Dövlət Mükafatı verilmir. Bir qurum tərəfindən Dövlət Mükafatına yalnız bir əsər təqdim edilə bilər.

Dövlət Mükafatları Komissiyasının ünvanı: AZ1066, Bakı şəhəri, Lermontov küçəsi, 68, Azərbaycan Respublikasının Nazirlər Kabineti.

Əlaqə telefonu: 492-22-65. E-mail: nk@nk.gov.az

# Zəfər Muzeyinin əmanətləri

**Prezident İlham Əliyevin sərəncamı ilə Bakının Neftçilər prospektindəki Muzey Mərkəzində yaradılan "Zəfər Muzeyi" Qarabağda möhtəşəm qələbəmizi xırda detallarına qədər təqdim edən bir xatirə kompleksi olacaq. Hazırda Azərbaycan İstiqlal Muzeyində yeni zəfər tarixi məkanı üçün eksponatlar toplanır.**

Muzeydəki hər bir eksponat – şəhidlərin şəxsi əşyaları canını Vətənə qurban verənlərin əziz yadigarı olaraq qorunub saxlanır. Ayrı-ayrı şəhid ailələri qəhrəman soydaşlarımızın əşyalarını bu məkana əmanət edirlər. Bu günə qədər toplanan əşyaların sayı artıq 9 mini keçib.

**İstiqlal Muzeyinin böyük elmi işçisi Aynurə Tağıyeva həzin duyğular yaradan zəfər eksponatları barədə bizə məlumat verdi:**

– Gördüyünüz əşyaların hər biri şanlı tarixin parçasına çevrilib. Eksponatların toplanıb komplektləşdirilməsinə hər kəs ürəklə girişib. Həmçinin muzeyimiz "Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün" adlı layihə də həyata keçirir. Bu layihə çərçivəsində hər həftə 7–10 şəhidimizin əşyaları tamaşaçılara nümayiş etdirilir. Məqsədimiz həm şəhidlərin xatirəsini yaşatmaq, həm də gələcək nəsillərdə güclü hərbi vətənpərvərlik ruhu aşılamaqdır.

Onu da qeyd edək ki, muzey üçün həm 1-ci, həm də 2-ci Qarabağ müharibəsi şəhidlərinin əşyaları toplanır. Şəhid olmuş mülki vətəndaşlarımızın əşyaları üçün də yer ayrılıb. Muzeyin əməkdaşları şəxsən şəhid ailələri ilə görüşərək onların əşyalarını qəbul edirlər. Toplanan yadigarlar diqqətlə çeşidlənir, əmanətlərin hamısı əziz xatirə kimi qorunur. Polad Həşimova, Xudayar Yusifzadəyə, Rəşad Babayevə və digər şəhidlərə məxsus əşyalar artıq tam komplektləşdirilib.

**Muzeydə şəhid baş leytenant İlqar Vəliyevin oğlu Vəli Vəliyevlə görüşdük. Atasına aid əşyaların burada nümayiş etdiriləcəyindən qürur duyduğunu söyləyərək dedi:**

– Birinci Qarabağ müharibəsində fəal iştirak etmiş atam rabitəçi-kəşfiyyatçı olub. Otuz il sonra başlanan Vətən müharibəsində də kənarda qalmayaraq döyüşlərə qatılıb. Doğum günü ərəfəsində bizimlə telefon söhbətində sevinclə bildirmişdi ki, düşməndən bir hərbi hissə azad edilib. Öz ad günündən göndərdiyi video isə atamızla bağlı son xatirə oldu. Oktyabrın 20-də Füzuli–Şuşa istiqamətindəki döyüşlərdə şəhadətə yüksəldi. Ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medallarına layiq görüldü…



**Silahlı Qüvvələrimizin kapitanı olmuş Samir Mikayıllının əmisi oğlu Rüfət Sultanov şəhid əzizi ilə bağlı xatirələrini paylaşdı:**

– Samir 1993-cü ildə Ağcabədidə anadan olub. Yaşadığımız rayon düşmənlə keçmiş təmas xəttinə yaxın olduğundan Samirdə hərb işinə maraq yaranmışdı. O, torpaqlarımızın azad olunmasında iştirak etmək istəyirdi. Həmin arzu ilə də Samiri Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olmuşdu. Sonra Samir təhsilini Heydər Əliyev adına Ali Hərbi Məktəbdə davam etdirdi, ardınca da Türkiyədəki Kara Harb Okuluna daxil oldu. Qardaş ölkədə motoatıcı ixtisasına yiyələndi. Vətən müharibəsində əmim oğlu öndə gedən zabitlərdən oldu…

Rüfət danışdıqca biz şəhidin buradakı təltiflərinə diqqət etdik. Ondan yadigar qalan hərbi geyim və saat isə S.Mikayıllının barəsində qürur dolu təəssürat yaratdı. O, Şuşada qazanılan möhtəşəm zəfərdən bir gün sonra şəhadətə ucalıb. Ağcabədidə onun adını daşıyan park var.

Xüsusi təyinatlı qüvvələrin baş leytenantı Məhəmmədhəsən Sadıqlıya aid hərbi geyimi, çantanı, növbətçilik bayrağını da ailəsi muzeyə təhvil verib. Türkiyədə hərbi təhsil almış şəhid baş leytenant Ramil Babayevdən yadigar qalan diplom və sertifikatlar da həzin duyğular yaradır. Fərrux Hüseynov da baş leytenant idi. Onun kiteli, şalvarı və öz əli ilə yazdığı tərcümeyi-halı da əziz eksponatlar kimi qorunub saxlanır və nümayiş etdirilir.

Zamanı dayanmış qol saatı, mürəkkəbi qurumuş qələm, boyunbağı kimi əşyalar isə şəhid Ruzi İbrahimovun yadigarlarıdır. Cib dəsmalı, daraq, alışqan bir başqa şəhidin olub.

Muzeydə onu da öyrəndik ki, şəhidlərin fotoşəkilləri, videogörüntüləri disklərə köçürülüb saxlanılır. Qəhrəmanlarımız haqqında solmaz xatirələri isə hər birimiz ürəyimizdə gəzdiririk.

***Əli NƏCƏFXANLI***
***XQ***

Yeni nəşrlər

**Dünən AMEA Nəsimi adına Dilçilik İnstitutunda professor Nadir Məmmədlinin tərtib etdiyi Əbdürrəhim Ərdəbili Şirvaninin "Məzhər-üt-türki" kitabının təqdimatı keçirilib.**

Akademik Teymur Kərimli əslən Ərdəbil şəhərindən olan XVIII əsr Azərbaycan alimi Əbdürrəhim Ərdəbili Şirvaninin müəllifi olduğu "Məzhər üt-türki" dərsliyinin (risalə), təxminən, 270 il əvvəl – Nadir Şah Əfşar dövründə Qızılbaş türkcəsini qeyri-türklərə öyrətmək məqsədilə yazıldığını deyib. Akademikin sözlərinə görə, ilk dəfə Azərbaycanda fars dilindən tərcümə və çap olunan bu dərslik zəngin dünya dilləri arasında öz mövqeyi ilə seçilən Azərbaycan dilinin inkişaf yolları, qrammatik və leksik normalarının tarixi təkamülünün öyrənilməsi baxımından dil tarixçiləri, türkoloq və iranşünaslar üçün çox dəyərli vəsaitdir.

# Ana dilimizin qiymətli qaynağı

## Farslara türk dilini öyrədən kitab - "Məzhər-üt-türki"



Naşrin tərtibçisi, "Ön söz" və şərhlərin müəllifi, professor Nadir Məmmədli İranın Qum şəhərində mühafizə olunan, Azərbaycan dili və tarixi üçün mötəbər və qiymətli mənbə olan bu əlyazmanı ona Tehranın Fərhangiyan Universitetinin fars dili və ədəbiyyatı fakültəsinin dosenti, əslən azərbaycanlı İxtiyar Bəxşinin hədiyyə etdiyini vurğulayıb. O qeyd edib ki, "Məzhər üt-türki"ni türk mədəniyyəti, ədəbiyyatı və elminin fədakar təbliğatçısı ərdəbilli Məhəmməd Micəndehi Qum şəhərindəki "İslam irsini yenidən canlandırma mərkəzi" kitabxanasının nadir fondundan əldə etmiş, şəxsi arxivində saxlamış, sonralar vətənpərvər dostlarına hədiyyə etmişdir.

Nadir Məmmədli "Məzhər üt-türki" kitabının müəllifi Əbdürrəhim Ərdəbili Şirvaninin Ərdəbildə doğulduğu, burada boya-başa çatdığı, lakin bir müddət Azərbaycanın Şamaxı şəhərində yaşadığı üçün Şirvani təxəllüsünü götürdüyünü bildirib. Alim əlavə edib ki, Əbdürrəhim Ərdəbili "Məzhər üt-türki" risaləsinni Şirazda olarkən türkcə öyrənmək və danışmaq istəyən fars mənşəli Ağa İsmayıl adlı bir şəxsin xahişi ilə yazmışdır. O, dərsliyin İranda Qızılbaş türkcəsini qeyri-türklərə öyrətmək üçün yazılmış, bu dil haqqında məlumat verən ilk və yeganə əsər olduğunu vurğulayıb.

Sonra Azərbaycanda Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov kitabı dilçilik elmində xüsusi dəyəri ola biləcək əsər kimi xarakterizə edərək, bildirib ki, nəşrlə bağlı bəzi məsələlərin tam aydınlaşdırıldığdan sonra bu əsər müasir Azərbaycan dilçiliyinin ilk möhtəşəm abidəsi hesab oluna bilər.

Tədbirdə professor Güllü Yoloğlu, Azərbaycan Respublikası Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktoru, professor Sevinc Əliyeva, akademik Möhsün Nağısoylu, professor Rüfət Rüstəmov, əsərin tərcüməçisi, dosent Günel Orucova, institutun icraçı direktoru, dosent Baba Məhərrəmli və digər dilçi alimlər "Məzhər üt-türki" dərsliyində XVI–XVIII əsrlərdə Azərbaycan türkcəsinin normalarında xəlqiləşmə prosesi getdiyindən, tələbata uyğun olaraq, müxtəlif anlayışları ifadə etmək üçün ümumxalq danışığına xas söz və ifadələrin işlədilməsi və dil vahidlərini ümumiləşmə məsələsindən, milli dilin formalaşması prosesindən söhbət açıblar.




Müzakirələrdə qeyd edilib ki, "Məzhər üt-türki" əsəri dil tariximizin, qrammatikamızın tədqiq olunması baxımından ən zəngin mənbələrdən biri hesab olunur. Bundan əlavə, Səfəvi və Əfşarlar dövründə Azərbaycan türklərinin ictimai-siyasi tarixinin aydınlaşdırılması ilə bağlı dəyərli bir mənbədir. Mərhəmətli və rəhmli Allahın adı ilə başlayan" bu əsər müqəddimə, dörd bölmə, birinci və ikinci bölmələrin, hər biri iki fəsil və feillərdən ibarət lüğətdən ibarətdir. Əbdürrəhim Ərdəbili Şirvani türkcə danışmağın fəzilətindən bəhs edir və bu dilin sultan və hakimlərin dili olduğunu qeyd edir. O yazır ki, bu dilin onu işlədənlərin işlərinin həyata keçməsində hədsiz faydaları var.

***Fidan SALMANOVA***
***XQ***

Tofiq Kazımov – 100

# "Sənsiz"in yubiley təqdimatı

**Akademik Milli Dram Teatrında görkəmli rejissor, aktyor və pedaqoq, Xalq artisti Tofiq Kazımovun xatirəsi yad edilib. Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə unudulmaz sənətkarın yubileyi münasibətilə teatrın hazırladığı "Sənsiz" tamaşası ictimaiyyətə təqdim edilib.**



Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, milli məclisin üzvləri, tanınmış mədəniyyət və incəsənət xadimləri əvvəlcə teatrın foyesində rejissorun həyat və yaradıcılığını əks etdirən fotosərgi ilə tanış olublar.

Mərasimdə Milli Dram Teatrının bədii rəhbəri, Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə çıxış edərək bildirib ki, Tofiq Kazımov 15 il bu sənət məbədinin baş rejissoru olub. Onun milli teatr sənətinə böyük xidmətlərindən biri də istedadlı gənclərə meydan verməsi, onların peşəkar fəaliyyətinə yol açmasıdır. Elə bu amil nəzərə alınaraq, onun hələ 1967-ci ildə şair-dramaturq Şıxəli Qurbanovun "Sənsiz" pyesi əsasında böyük uğurla səhnələşdirdiyi eyniadlı tamaşanın yubiley interpretasiyası – rejissorluğu, rəssamlığı və musiqi tərtibatı gənclərə həvalə edilib.

Tofiq Kazımovun yaradıcılıq yolundan bəhs edən 10 dəqiqəlik qısametrajlı film nümayiş olunduqdan sonra səhnə aktyorların ixtiyarına verilib. Ustad rejissorun səhnə həyatı verdiyi "Sənsiz" rejissor Nihad Qulamzadə, bəstəkar Vüqar Babayev, rəssam Vüsal Rəhim, işıq tərtibatçısı Rafael Vaqifoğlunun quruluşunda çağdaş təqdimat həllini tapıb. Rolları Xalq artisti Mehriban Zəki (Sevinc), Əməkdar artist Füzuli Hüseynov (Tərlan), aktyorlar İlahə Həsənova (Maral), Elçin Əfəndi (Fərhad), Elsevər Rəhimov (gənc Tərlan), Lalə Süleymanova (gənc Sevinc) canlandırıblar.

Unudulmaz sənətkarın xatirəsinə böyük ehtiramla oynanılan tamaşa maraqla qarşılanıb və dönə-dönə alqışlanıb.

***R.QURBANLI***
***XQ***

**AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi Faiq Ələkbərlinin "Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər)" adlı kitabının 2-ci cildi işıq üzü görüb. "Elm və təhsil" nəşriyyatında buraxılmış nəşrdə XX əsr Quzey Azərbaycan Türk fəlsəfi fikrinin inkişaf yollarından və tanınmış mütəfəkkirlərin yaradıcılığından bəhs olunur.**

# Fəlsəfi fikir tariximiz haqqında tədqiqat




Müəllif xalqımızın fəlsəfi və ictimai fikir tarixinin inkişaf yollarını mərhələ və məfkurəvi yönlər üzrə təhlil etmişdir. Milli-demokratik və siyasi-fəlsəfi ideya cərəyanları olmuş türkçülük-azərbaycançılıq, çağdaşlıq və islamçılığın nümayəndələri (Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə, Ə.Topçubaşı, Ə.Müznib, F.B.Köçərli, M.B.Məhəmmədzadə, Ü.Hacıbəyli, N.Yusifbəyli, A.İldırım və başqalarının elmi-nəzəri irsi əsərdə aparıcı yer tutur.

Kitab Fəlsəfə və Sosiologiya İnstitutunun Elmi Şurasının qərarı ilə çap edilib. Nəşrin elmi redaktorları fəlsəfə elmləri doktoru, professor Rafail Əhmədli və fəlsəfə doktoru, dosent Zeynəddin Şabanovdur. Əsərin çapına professorlar Sakit Hüseynov və Əlikram Tağıyev, qabaqcıl maarif xadimi, dosent Müstəqil Ağayev rəy veriblər.

***XQ***

# Üçrəngli bayrağımız filmlərimizdə necə dalğalanır?

**"Türkləşmək, islamlaşmaq, müasirləşmək" triadasına əsaslanmış bayrağımızın qəbulundan bizi 105 illik zaman ayırır. Üçrəngli bayrağımızın məfkurə müəllifi böyük Turan sevdalısı Əli bəy Hüseynzadədir. 1918-ci ilin 9 noyabrında bu amalı rəhbər tutan cümhuriyyət qurucuları bugünkü bayrağımızı rəsmən qəbul etmişdilər.**

Onillər ötüb, aylar dolanandan sonra – 1990-cı ilin 17 noyabrında Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə bayrağımızın ilk dəfə Naxçıvanda Ali Məclisin iclas zalına gətirilməsi və beləliklə də dövlət statusu qazanması şərəf tariximizin unudulmaz səhifələrindəndir. Prezident İlham Əliyevin 2009-cu ildə imzaladığı sərəncamla isə hər ilin 9 noyabrı ölkəmizdə Dövlət Bayrağı Günü kimi qeyd olunur.

Cumhuriyyət dövründə bayrağımızı vəsf edən əsərlər yazılmışdı. Əhməd Cavadın, Cəfər Cabbarlının bu "kimlik sancağı"mıza həsr olunan şeirləri müstəqilliyimizi tanıdan nümunələr kimi tarixdə qalıb.

*Bu göy boya, Göy Moğoldan*
*qalmış bir türk nişanı,*
*– Bir türk oğlu olmalı!*
*Yaşıl boya islamlığın sarsılmayan imanı,*
*– Ürəklərə dolmalı!*
*Şu al boya azadlığın, təcəddüdün fərmanı,*
*– Mədəniyyət bulmalı!*

Bu misraların müəllifi Cəfər Cabbarlının daha bir xidməti isə 1930-cu ildə – sovet rejiminin kəskəhəks dövründə "Sevil " tamaşasında üçrəngli bayrağın səhnədə nümayişi olub.

Yetmiş il davam edən SSRİ dövründə üçrəngli bayraq əksinqilabın rəmzi kimi təqdim edilirdi. Təbii ki, bu da insanlarımızın bayrağımızın tarixini öyrənmələrinə maneə törədirdi. Məhdud bir dairə üçrəngli bayraq barədə məlumatlı idi. Bununla yanaşı, ədəbi əsərlərin müəllifləri imkan daxilində üçrəngli bayrağı senzuranın gözündən yayındıraraq yada salırdılar.

Kinoya gəlincə isə xatırladaq ki, bu gün artıq ən uca zirvələrdə dalğalanan Dövlət Bayrağımız ilk dəfə 1939-cu ildə Səməd Mərdanovun "Kəndlilər" filmində göstərilmişdir. Filmin süjet xətti XI Qızıl Ordunun fəal iştirakı ilə bolşeviklərin hakimiyyəti öz əllərinə keçirmələri haqqındadır. Ekran əsərində bayrağımız əksini kəndli qurultayında tapır. Orada bayrağın islami tərəfi qabardılır. Lakin, eyni zamanda, bayrağın əksində yanlışlığa yol verilir: Ay-ulduz nişanı bayrağın mavi hissəsində göstərilir.

İsa Hüseynovun ssenarisi əsasında rejissor Əjdər İbrahimovun 1971-ci ildə çəkdiyi və Nəriman Nərimanova həsr olunan "Ulduzlar sönmür" filmində də üçrəngli bayrağımız görünür. Amma "Kəndlilər"də yol verilən səhv bu ekran işində də təkrar olunur. Onu da deyək ki, "Kəndlilər"dən fərqli olaraq, bu dəfə bayrağın türkçülük düsturu qabarıq göstərilir. Belə ki, Denikinə yardıma gedəcək əsgərlərin sırasında Orta Asiyadan olan bir türk əsgəri Azərbaycan bayrağını irəlidə aparır. Bu da turançılıq ideyasına işarədir.

Rasim Ocaqovun rejissoru, Zeynal Xəlilin ssenari müəllifi olduğu "Qatır Məmməd" filmində bayrağımız yenə də ordu yürüyüşü kontekstində öz əksini tapır. Belə ki, cumhuriyyət əsgərləri döyüş hazırlığı zamanı bu bayraqla irəliləyirlər. Bu epizodda bayrağımız uzaq fonda görsənir. Lakin ay-ulduz təsviri dəqiq əksini taparaq, bayrağın məhz qırmızı zolağında yer almış olur.

1986-cı ildə ekranlaşdırılmış "İşarəni dənizdən gözləyin"(ssenari müəllifi Firudun Ağayev, rejissor Ceyhun Mirzəyev) filmində üçrəngli bayraq gəmi göyərtəsindən diqqət çəkir. Cumhuriyyət hökumətinə xəyanət etmiş Çingiz İldırımın başçılığı etdiyi dəniz donanmasının fəaliyyətindən bəhs edən filmdə bayrağımız tam aydın şəkildə görünür. Bildiyimiz kimi, həmin filmin çəkilişindən cəmi 2 il sonra artıq üçrəngli bayrağımız Azadlıq meydanında – müstəqillik uğrunda mücadilə mitinqlərində dalğalanmağa başlayıb. 5 fevral 1991-ci ildə isə bu bayraq müstəqilliyini elan etmiş Azərbaycan Respublikasının Ali Soveti tərəfindən təsdiq edilmişdir.



Müstəqillik dövründə isə üçrəngli bayrağımız Qurban Səidin eyniadlı romanı əsasında çəkilmiş "Əli və Nino" filmində göz oxşayır. İcraçı prodüserləri Leyla Əliyeva və Mayri Bet, rejissoru Asif Kapadiya olan fimdə bayrağımız 1920-ci il mayın 26–31-də sovetlərə qarşı qalxan Gəncə üsyanından bəhs olunan epizodlarda Əlixan Şirvanşir və digər silahdaşları müqəddəs bayrağımızın kölgəsində işğalçılara qarşı mübarizə aparırlar. Onlar bayraq, Vətən uğrunda şəhid olurlar. Filmdəki bu bayraq obrazı istiqlaliyyət xəttinə xidmət edir.

Çox istərdik ki, bundan sonra da üçrəngli bayrağımız filmlərimizdə məxsusi əksini tapsın.

***Ceyhun MİRZƏLİ***

Beynəlxalq həyat

# Qəzzanın ağır günləri davam edir

**Oktyabrın 7-də HƏMAS yaraqlılarının İsrail ərazisinə qəfil hücumu ilə başlanan ağır silahlı qarşıdurma davam edir. İsrail Müdafiə Qüvvələri həmin andan başlayaraq, yaraqlıları cəzalandırmaq məqsədilə Qəzza zolağında antiterror əməliyyatlarını davam etdirir.**

BBC xəbər verir ki, dünən İsrail hərbçiləri ərazidəki "Əl-Şəfa" xəstəxanası yaxınlığında HƏMAS-ın girovluğunda olan ikinci qadının meyidini aşkar ediblər. Son günlər bura ən gərgin döyüşlərin baş verdiyi ərazidir.

Dünən ərazidə Fələstin Parlamentinin sədr müavini Əhməd Baharın öldüyü bəlli olub. Fələstinin "Maan" xəbər agentliyinin məlumatına görə, Ə.Bahar Qəzzada gedən döyüşlərdə aldığı ciddi xəsarətlər nəticəsində həlak olub.

Qeyd edək ki, İsrail Ordusu bu həftənin əvvəlində də həmin ərazidə reyd keçirmiş, burada yaraqlılar tərəfindən oğurlanaraq əsir aparılmış Noa Marsiano adlı 19 yaşlı bir əsgərin cəsədini taparaq doğmalarına təhvil vermişdir. Təl-Əviv həbib edir ki, adıçəkilən xəstəxanada HƏMAS-ın əsas komanda mərkəzlərindən biri yerləşir. HƏMAS rəhbərliyi bu iddianı inkar edir.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Qebreyesus İsrail ordusunun "Əl-Şəfa" xəstəxanasına reydlərini "tamamilə qəbuledilməz" adlandırıb. ÜST rəhbəri Cenevrədə keçirilən mətbuat konfransında deyib ki, xəstəxanalar döyüş meydanı deyil və hətta obyektlər hərbi məqsədlər üçün istifadə olunsa belə, xəstəxanalardakı xəstələr və işçilər qorunmalıdır.

ABŞ Prezidenti Co Bayden isə HƏMAS-ı "Əl-Şəfa" xəstəxanasını komanda mərkəzi kimi istifadə etməkdə ittiham edərək, bunu "müharibə cinayəti" adlandırıb. O, çərşənbə günü Kaliforniya ştatının Vudsayd şəhərində Çin lideri Si Cinpinlə görüşdən sonra keçirilən mətbuat konfransında bildirib ki, HƏMAS döyüşçülərini xəstəxananın altında gizlətməklə cinayət törədir.

Qlobal media yazır ki, İsrail rəsmiləri fələstinliləri Qəzzanın cənubundakı dörd şəhəri tərk etməyə çağırıb. Təhlilçilər hesab edirlər ki, bu, Təl-Əvivin yaraqlılara qarşı müharibəsinin genişlənməsinə və insanlara həmin ərazilərdə qalmağın təhlükəli olduğuna işarədir.

Dünən gecə boyu İsrail ordusu təyyarələrdən vərəqələr ataraq, mülki əhaliyə Bəni-Şüheyla, Xuzaa, Abasan və Qarara şəhərlərini tərk etməli olduqlarını bildirib. Ərazidə yaşayan sakinlər ötən gecə İsrailin güclü bombardman həyata keçirdiyini bildiriblər.

Bu arada BMT-nin Təhlükəsizlik Şurası (TŞ) Qəzzada "təcili və uzunmüddətli humanitar fasilələr" tələb edən qətnamə qəbul edib. Şuranın 12 üzvü sənədin lehinə səs verib. Əleyhinə səs verən olmayıb. ABŞ, Rusiya və Böyük Britaniya nümayəndələri bitərəf qalıblar.

TŞ-nin qəbul etdiyi sənəddə tərəflər arasında atəşkəsin elan edilməsinin vacibliyi xüsusi vurğulanır. Qətnamədə, həmçinin "HƏMAS tərəfindən girov götürülən bütün insanların dərhal azad edilməsi" tələb edilir.

Baş nazir Binyamin Netanyahu ABŞ-nin "CBS News" telekanalına müsahibəsində deyib ki, İsrail Qəzza zolağında HƏMAS-la mübarizə zamanı dinc sakinləri təhlükədən qorumaq cəhdlərinin bəzən uğursuz olduğunu etiraf edib.

HƏMAS tərəfi bu bəyanatın həqiqətə uyğun olmadığını, İsrail aviasiyasının əraziyə gün ərzində onlarla hava zərbəsi endirdiyini, bu zaman çox sayda dinc sakinin həlak olduğunu bildirir.

Münaqişə başlanan gündən bu vaxta qədər 11 mindən çox fələstinlinin, 1400 nəfərə yaxın İsrail vətəndaşının öldürüldüyü bildirilir. HƏMAS yaraqlılarının əlində 200-ə yaxın əsir və girovun olduğu təxmin edilir.

Bu günlər dünyanın bir çox ölkələri və beynəlxalq qurumlar tərəfindən Qəzza sakinlərinə humanitar yardımlar göndərilir. İsrail Hökumətinin Fələstin Ərazilərində Fəaliyyətlərin Koordinasiyası İdarəsi məlumat yayıb ki, dünən beynəlxalq humanitar yardım daşıyan 144 yük maşını Misir ərazisindəki "Rəfah" keçidi vasitəsilə Qəzza zolağına daxil olub.



Qeyd edək ki, Qəzza zolağına humanitar yardımın çatdırılması Yaxın Şərqdə münaqişənin gərginləşməsinin başlanmasından iki həftə sonra oktyabrın 21-də başlayıb.

Göründüyü kimi, ağır zorakılıqlarla müşahidə olunan HƏMAS–İsrail qarşıdurması davam edir. Bir çox dövlətlər, eləcə də qardaş Türkiyə münaqişəyə cəlb olunan tərəflərdən təcili surətdə atəşkəs elan etmələri və sülh danışıqlarına başlamağı tələb edirlər. Təəssüf ki, bu çağırışlar cavabsız qalır.

**PS.** Yazı çapa hazırlanarkən xəbər gəldi ki, İsrail və HƏMAS Qəzzada üç günlük atəşkəs haqqında razılığa gəliblər. Bu barədə "Al Arabiya" telekanalı məlumat yayıb. Bildirilib ki, bu, atəşkəs humanitar məqsədlərlə elan edilib.

*M.HACIXANLI*
*XQ*

# Qadın şahmatçılarımız inamla irəliləyirlər



(əvvəli 1-ci səhifədə)

Budəfəki qitə çempionatında qadın millimizin uğurlarını xüsusi qeyd etməyə dəyər. İlk turda Sloveniya komandasını 2,5:1,5, Niderland yığmasını eyni hesabla məğlub edən millimiz sonrakı görüşlərdə də inamlı çıxışını davam etdirib. Şahmatçılarımız 3-cü turda güclü komandalardan biri olan Polşa yığması üzərində 3:1 hesablı qələbəyə sevindiblər. Turnir cədvəlinin lideri olan Fransa kollektivi ilə növbəti turda nümayiş etdirilən bərabər oyun da yığmamızın güclü potensialını göstərir. Çempionatın reytinq favoritlərindən olan Almaniya komandası isə V turda şahmatçılarımızın qarşısında duruş gətirməyib. Ülviyyə Fətəliyeva, Gövhər Beydullayeva və Gülnar Məmmədovanın məğlub olmadığı bu görüşdə birinci lövhədə Günay Məmmədzadənin Elizabet Petsi yenməsi Azərbaycan komandasına 2,5-1,5 hesablı qələbə qazandırıb. Həmin gün kişilərdən ibarət yığmamızın ev sahibi Çernoqoriyanı 3:1 hesabı ilə üstələməsi sayəsində xallarını 6-ya çatdıran komandamız isə turnir cədvəlində mövqeyini xeyli yaxşılaşdırıb.

**Ötən 5 turda qızlarımızın yüksək səviyyədə çıxış etdiklərini vurğulayan məşqçi Fikrət Sideifzadə "XQ"yə açıqlamasında komandamızdan medal gözlədiklərini bildirdi:**

–Şahmatçılarımız öz güclərindən maksimum istifadə edirlər. Düzdür, Rusiya komandasının yarışda iştirak etməməsi nəticələrə təsir edir. Həmçinin Hindistan, Çin şahmatçıları da dünyanın ən güclülərindən sayılır. Amma Avropa çempionatı da kifayət qədər nüfuzlu yarışdır və bu turnirdə medal qazanmaq ciddi səy tələb edir. Komandamızın çempionata hazırlığı istiqamətində kifayət qədər işlər görülüb. Düşünürəm ki, böyük şanslarımız var. Komandamız bu imkanlardan yararlana və medal qazan bilər.

**Uzun illər qadınlardan ibarət yığmanın kapitanı olmuş Zeynəb Məmmədyarova da qadın komandamızın güclü potensialı olduğunu dedi:**



– Görüşləri böyük həyəcanla izləyirəm. Hesab edirəm ki, komandamız hazırda ən yaxşı həyətə malikdir. Onların komanda şəklində yüksək göstəricilər əldə etmələri təqdirəlayiqdir. Millinin heyətində olduğum əvvəlki illərdə indikindən qat-qat zəif, reytinqi aşağı olan komandalarla medallar uğrunda mübarizə aparırdıq. İndi şahmatçılarımız qitənin ən güclülərinə qarşı inamlı oyun sərgiləyirlər. Bu, vətənpərvərlik, komandada birlik sayəsində mümkün olub. Yığmamız Avropanın ən iddialı komandasıdır. Son iki Avropa çempionatının bürünc mükafatçısı olan komandamızın daha yüksək nəticələr qazanacağına inanıram.

Turlar bir-birini əvəz etdikcə mübarizə də gərginləşir. Dünən – VI turda qızlarımızın rəqibi məhz qızıl uğrunda mübarizədən qopmamağa çalışan Bolqarıstan kollektivi olub. Kişi şahmatçılarımız isə Yunanıstan komandası ilə mübarizə aparıblar.

*Leyla QURBANOVA*
*XQ*

# Hayların sağalmaz "beyin iflici"

## *Yaxud müqayisəyə gəlməyən dəyərləri üzləşdirmə cəhdləri*

**Cinayəti törədərkən 17 yaşında olan Ogün Samast hadisədən bir gün sonra Samsunda avtovağzalda saxlanılmışdı. 16 il 10 ay həbsdə olan Samast vaxtından 1 il əvvəl yaxşı davranışı səbəbilə şərti azadlığa buraxılıb. Samast cəzasını Bolu şəhərindəki F Tipli Həbsxanada çəkirmiş. Ogün Samastın qətlə yetirdiyi erməni əsilli jurnalist Hrant Dink 1954-cü ilin sentyabrında Türkiyənin Malatya şəhərində anadan olub. "Aqos" qəzetinin baş redaktoru kimi Dink qondarma "erməni soyqırımı"nın Türkiyədə tanınması, yerli ermənilərə daha çox imtiyazlar verilməsi üçün çalışırdı.**



İndi sual olunur: Ermənistanda nə vaxtsa hansısa türk jurnalistinin, yaxud siyasətçisinin xatirəsinə mitinq, anım mərasimi keçirilibmi? Ümumiyyətlə, belə bir halın mümkünlüyünü ağlınıza sığışdıra bilərsinizmi? Mümkün deyil! Əksinə, İrəvanın Teatr meydanında Hitler Almaniyası çağlarındakı kimi, neonasist nümayişlərin, "njdesevərlərin" yürüşlərinin şahidi ola bilərsiniz. Faşist qafalı vandalların belə aksiyalarında Türkiyə bayrağının yandırılması isə adi qaydaya çevrilib. Bəs, erməni jurnalistləri həmvətənlərinin insan haqlarından, azadlıq və humanizm prinsiplərindən uzaq davranışlarını bircə dəfə olsun qınadılarmı?

***

Ötən əsrin sonlarında Fransanın Orli hava limanında terror aktı törədən və 8 insanın ölümünə səbəb olan ASALA liderlərindən Varijan Karapetyanı dünyanın "ən humanist məhkəməsi"nin fransız hakimləri girov müqabilində azadlığa buraxanda rəsmi İrəvan şadyanalıq edirdi. 2001-ci ilin mayında Ermənistanın baş naziri Andranik Markaryan "ana vətəninə" təşrif buyurmuş terrorçu Karapetyanı şəxsən qəbul etmiş və onun Fransa həbsxanasından buraxılmasına görə çox sevindiyini bildirmişdi. Amma Türkiyədə nə jurnalistlərdən, nə də siyasilərdən kimsə Samastın pişvazına getmədi, onu qəbul etmədi, hərəkətinə "qəhrəmanlıq donu" biçmədi. Müqayisə üçün digər tarixi sübutları da sadalaya bilərik. Əslində, bu iki hadisənin arxasından boylanan dəyərlər müqayisə materiall olmağa layiq deyil.

Zərərli ideologiyaya və xəstə təxəyyülə söykənən bütün bu anti-Türk təbliğatının, hərəkətlərinin fonunda erməni mediası, siyasi kəsim Ogün Samastın vaxtından əvvəl bir il tez azadlığa çıxmasını "qara bayramları" kimi qələmə verirlər. Deməli, bu qaraguruh zehniyyəti ondan xəbər verir ki, Ermənistan cəmiyyətində, bütövlükdə, hayların düşüncəsində "türkofobiya" iflicindən müalicə prosesi asta və ağrılı gedir.

***

Ogün Samastın vaxtından əvvəl bir il əvvəl azadlığa çıxmasından "qəzəblənən" erməni KİV-ləri, sosial şəbəkə seqmentləri etiraz səslərini ucaltmağa başlayıblar. Bu zaman ağıllarının ucundan belə keçirmirlər ki, Türkiyədə hətta Hrant Dinkin qətlindən sonra da ermənidilli qəzetlər çap olunur və həmin qəzetlərin səhifələrində mütəmadi olaraq uydurma "erməni soyqırımı"nın "tanınmasının zəruriliyi" məsələsi qaldırılır. Axı, bu sözləri də o zaman "Aqos"un baş redaktoru yazmışdı: "Türkiyə cəmiyyətinin ən aktual problemlərindən biri Osmanlı imperiyasında ermənilərin soyqırıma məruz qalması ilə bağlıdır". İndi müddətdən bir il tez həbsdən buraxılmış Samastın üstünə "hücum çəkən" hay media mənsublarına necə sübut etsinlər ki, onların bəyənmədiyi Türkiyədə söz azadlığı "daşlar ölkəsi" Ermənistandakından daha çoxdur. Hərçənd son vaxtlar ermənipərəst Qərb və okeanın o tayındakı ABŞ Ermənistanı, az qala, bölgənin "demokratiya mayakı" qismində təqdim etməyə çalışırlar. Məsələnin milli-siyasi tərəfinə nəzər saldıqda haray-həşir qoparan erməni media mənsublarının bir incə məqamı "unutduqları" mütləq qeyd olunmalıdır.

Axı, Ermənistanda türk dilində qəzet yoxdur və yerli KİV-lərdə isə "erməni soyqırımı"nı şübhə altına almağın özü belə qadağandır. Amma 16 il 10 ay bundan əvvəl İstanbulun küçələrində Dinkin öldürülməsinə qarşı etiraz aksiyaları keçirilmişdi. O mitinqlərdə Türkiyə cəmiyyətinin ictimai-siyasi xadimləri ilə yanaşı, tanınmış sənət adamları da iştirak edirdilər. "Biz hamımız – Hrant Dinkik" şüarı ilə keçirilən aksiyalardan sonra yerli media cameəsi bir neçə dəfə Dinki anma tədbirləri də düzənləmişdi.

*İ.HƏSƏNQALA*
*XQ*

# Kuba ilə səhiyyə sahəsində əməkdaşlıq rəsmiləşdirilib



**Azərbaycan və Kuba arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Sənəddə səhiyyə sektorunda əməkdaşlıq, birgə təşəbbüslər, mütərəqqi texnologiyaların inkişafının və tətbiqinin genişləndirilməsi üzrə əməkdaşlıq sahəsində Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Kuba Respublikasının İctimai Səhiyyə Nazirliyi arasında razılaşma əksini tapıb.**

Azərbaycanın Səhiyyə naziri Teymur Musayev və Kubanın ictimai səhiyyə naziri Xose Anxel Portal Miranda görüş zamanı bildiriblər ki, memorandumun məqsədi hər iki ölkənin səhiyyə sistemlərinin gücləndirilməsi və institusional çərçivənin genişləndirilməsi, əhalinin sağlamlığının inkişafına töhfə verilməsi, eyni zamanda əməkdaşlıq proqramlarının həyata keçirilməsidir.

Bundan əlavə, sənəddə akademik və elmi mübadilə, əczaçılıq və biotexnologiyalar sahəsində birgə fəaliyyətlər, diplomdan sonrakı təlimlər, tibbi turizm əsas əməkdaşlıq istiqamətləri olaraq müəyyən edilib.

*Z.HÜSEYNOVA*
*XQ*

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti

informasiya sistemləri üçün "Microsoft Server" 2022 Datacenter lisenziyalarının satın alınması məqsədilə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər.
Zərflərin təqdim edilməsi üçün son tarix 15 dekabr 2023-cü il saat 17.00-dəkdir.
Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Əlaqə telefonu- +994 12 599 00 03 (daxili 3704).
Ünvan-AZ1010. Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 251 (30367) 18 noyabr 2023-cü il, şənbə


# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

## *2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

**Hörmətli abunəçilər!**
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


Memarlıq

# Bakıda tarixi bina bərpa edilib

**Ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidəsi olan Ə.Əliyev küçəsi 1 ünvanında yerləşən binanın fasadının karniz hissələrində bərpa işləri aparılıb.**



"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsindən bildirilib ki, tarixi binanın karniz hissəsində atmosfer təsirləri nəticəsində piyadalar üçün təhlükə yarada biləcək xırda daş parçalarının, karnizin və kronşteynlərin tökülmə təhlükəsinin qarşısını almaq üçün bərpa işlərinin aparılması üçün zərurət yaranıb.

Bərpa nəticəsində təhlükəli daşlar təmizlənərək bərkidilib, kronşteynlərdə olan nəbati naxışlar xüsusi əhəng məhlulları ilə bərpa edilib, daşları bərkidilib, metal hissələr qoruyucu qatlarla örtülüb.

Nəticədə, tarixi bina ilkin vəziyyətə qaytarılıb.

**XQ**

İdman xəbərləri

# Ən güclü tələbə güləşçilər



**Ali təhsil müəssisələrinin tələbələri arasında Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş XV Respublika Universiadası başa çatıb.**

7 idman növü üzrə keçirilən yarışda güləşçilər arasında da ən güclülər müəyyənləşib. Kişilər arasında sərbəst güləş yarışlarında 6 komanda iştirak edib. Yekun nəticələrə görə, Azərbaycan Memarlıq və İnşaat Universiteti yarışın qalibi olub. Azərbaycan Texniki Universiteti gümüş, Azərbaycan Dövlət İqtisad Universiteti isə bürünc medala layiq görülüblər.

Yunan-roma güləşində isə Azərbaycan Memarlıq və İnşaat Universiteti birinci, Azərbaycan Dövlət İqtisad Universiteti ikinci, Azərbaycan Texniki Universiteti üçüncü yerdə qərarlaşıblar.

# Gimnastımız bürünc medal qazanıb



**Azərbaycan gimnastı Aleksey Karataşov batut gimnastikası və tamblinq üzrə keçirilən dünya yaş qrupları yarışında uğurla çıxış edib.**

Böyük Britaniyanın Birminqem şəhərində keçirilən turnirdə təmsilçimiz tamblinq növündə bürünc medal qazanıb. Milli tamblinq üzrə yarışlarda 3 gimnastla (Aleksey Karataşov, Bilal Qurbanov, Hüseyn Əsədullayev) təmsil olunub.

Qeyd edək ki, turnir noyabrın 19-dək davam edəcək.

# 5 boksçumuz Avropa yarımfinalında

**Azərbaycan millisinin 5 üzvü Monteneqronun Budva şəhərində keçirilən 22 yaşadək boksçular arasında Avropa çempionatının yarımfinalına vəsiqə qazanıb.**



Qadın boksçumuz Marjona Savriyevadan (50 kq) sonra daha 4 dəri əlcək ustası yarımfinala yüksəlməklə minimum bürünc mükafatı təmin edib. Belə ki, Tural Sarıyev (48 kq), Nicat Hüseynov (51 kq), Əzrək Bəbirov (57 kq), Murad Allahverdiyev (80 kq) final uğrunda mübarizə aparacaqlar.

***Leyla SABİRQIZI***
***XQ***

Maraq dünyamız

# "Əl çirki", yoxsa "nemətlər açarı?"

**Qazanırıq, ödəyirik, köçürürük, qənaət edirik. Əslində, pul barəsində heç də hər şeyi bilmirik. Babalarımızın "əl çirki" adlandırdığı bu "nemətlər açarı" barədə bir neçə heyrətamiz faktı diqqətinizə çatdırırıq.**



**1.** Qədim dövrlərdə ödəniş kimi mirvari, qabıq, mal-qara, taxıl, balıq, xəz və digər qiymətli əşyalar qəbul edilirdi.

**2.** Əskinaslar infeksiyalar üçün yuvadır. Alimlərin fikrincə, dünya pullarının 94 faizi bakteriyalarla çirklənmişdir. Oksford Universitetinin tədqiqatçıları bir neçə valyuta nümunəsini mikroblara qarşı sınaqdan keçiriblər. Onlar 100 yuan əskinasda 180 mindən çox bakteriya aşkar ediblər. Nisbətən "təmiz" əskinas avro hesab edilə bilər – 11.000 bakteriya.

**3.** Kağız əskinasların istifadə müddəti 3–5 ildir.

**4.** 100 dollarlıq əskinaslardan ibarət bir milyon Amerika dolları, təxminən, 10 kiloqram ağırlığındadır. 100 dollardan başqa, bütün dollar əskinaslarında keçmiş prezidentlərin şəkilləri var. Bu nominalı əskinasda Benjamin Franklinin şəkli var və o, heç vaxt Amerikanın prezidenti olmayıb.

**P.ƏFƏNDİ**
**XQ**

Sağlamlıq

# Şabalıdın bişmişi – cana məlhəmdir beşi

**Şabalıd A, D, E, B qrupu vitaminlər, fosfor, dəmir, kalsium, kalium kimi minerallar, qidalı liflər, flavonoidlər, pektinlər, aminturşuları və s. əvəzolunmaz maddələrlə zəngindir.**



Dietoloqlar müalicəvi və profilaktik məqsədlərlə hər gün 5 bişmiş şabalıd yeməyi tövsiyə edirlər. Bu, orqanizmə çox yaxşı müalicəvi və profilaktik təsir edir.

**Hər gün 5 şabalıd yeməyin faydaları:**

1. Damarların divarlarını möhkəmləndirir, varikoz xəstəliyinə kömək edir.
2. Bağırsaqların fəaliyyətini yaxşılaşdırır və təmizləyir.
3. Ürək üçün çox xeyri var – fəaliyyətini yaxşılaşdırır, ödemləri azaldır.
4. Sinir sistemi üçün faydalıdır, stress və depressiyadan qoruyur.
5. Qanda xolesterolun səviyyəsini aşağı salır.
6. Qaraciyərin fəaliyyətini yaxşılaşdırır, piylənmə riskini aşağı salır.
7. Həzm və mübadilə proseslərini nizamlayır.

Məhz bu faydalarına görə qida menyusuna şabalıd əlavə etmək lazımdır. Onun çərtilərək istər suda, közdə, istərsə də, sobada bişmişi orqanizmə eyni faydalı təsir göstərir.

**Z.HÜSEYNLİ**
**XQ**

✓ *"Azəristiliktəchizat" ASC-yə məxsus yük avtomobilinin İBA seriyalı, 053419 nömrəli yol vərəqəsi itdiyi üçün etibarsız sayılır.*

Hadisə

# Şahağacda sürüşmə



**Astara rayonunun Şahağac kəndində torpaq sürüşməsi intensivləşib. Nəticədə 50-yə yaxın ev üçün təhlükəli vəziyyət yaranıb.**

Ərazidən keçən Pensərçay torpaq qatını yuyaraq, evlərə doğru istiqamət alır. Çay sağ və sol sahillərinə doğru 20–25 metr genişlənib. Torpaq sürüşməsi vətəndaşların həyətyanı sahələrindəki tikililərə, meyvə bağlarına da ciddi ziyan vurub.

Baş verən hadisə nəticəsində 20-25 metr enində, 45-50 metr uzunluğunda torpaq qatı sürüşərək, kənd sakinləri Səfail İbadov, Möhsün Möhsümov və digərlərinin həyətyanı sahələrindəki tikililəri, 50-yə yaxın sitrus, eləcə də meyvə ağacını aparıb.

Sakinlər narahatdırlar ki, əgər çay kənarına bənd vurulmasa, növbəti seldə daha böyük fəsadlar yaranar və yaşadıqları evləri tərk etmək məcburiyyətində qala bilərlər.

**XQ**

Texnologiya yenilikləri

# Ən sürətli internet



**Çin saniyədə 1,2 terabit məlumat ötürmə sürətini təmin edən yeni fiber-optik internet kabelini istifadəyə verib. Bu, bir saniyədə 150 HD filmin ötürülməsinə bərabərdir.**

Uzunluğu üç min kilometrdən çox olan kabel ölkənin Pekin, Uhan və Quançjou şəhərlərini birləşdirir. Layihəni Çinin aparıcı təşkilatları, o cümlədən Tsinhua Universiteti, "China Mobile", "Huawei Technologies" və "Cernet Corporation" icra edib.

Qeyd olunur ki, Çin kabeli amerikalı rəqiblərindən on dəfəyə qədər sürətlidir. Kabel Çinin "Cernet" layihəsinin bir hissəsidir və ölkənin təhsil və elm mərkəzləri arasında yüksəksürətli internet əlaqələrinin yaradılmasına yönəlib.

**XQ**

# Hava yağmursuz keçəcək

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən noyabrın 18-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin axşam bəzi yerlərdə arabir yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, gündüz mülayim cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 9-12°, gündüz 14-17° isti olacaq. Atmosfer təzyiqi 765 mm civə sütunundan 761 mm civə sütununa enəcək, nisbi rütubət 60-70 faiz olacaq.**

Hava



Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi şərq rayonlarında qısamüddətli yağıntılı olacağı ehtimalı var. Səhər bəzi rayonlarda duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 7-11°, gündüz 14-19° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 4-9° isti olacaq.

**Q. QASIMOV**
**XQ**

# Uçan bərə-gəmilər

**2024-cü ilin yayından etibarən Stokholmda sərnişinlər üçün yeni tipli elektrikli bərə-gəmilər istismara veriləcək.**



Sınaq yoxlamalarında bərənin sürəti saatda 30 kilometrə çatdırıldıqda, bərə-gəmi suyun səthindən korpusun altında yerləşdirilmiş aerodinamik profilə keçid edir.

Bərə-gəmi, təxminən, 1,5 metr hündürlüyə qalxır, buna görə də, su ilə təmas sıfıra enir. Bu, onun çalışması üçün tələb olunan enerjinin miqdarını azaldır, üstəlik, tamamilə səssiz işləyir.

Qarşıdakı iyulda isə Ekeryö adası və Stokholmun mərkəzi arasında saatda 33 kilometr sürətlə işləyəcək pilot marşrut işə salınacaq. Beləliklə, 55 dəqiqə davam edən reysin vaxtı cəmi 25 dəqiqəyə enəcək.

***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4806
SİFARİŞ 2966
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır
00:00